# QƏDİM DİYAR

Beynəlxalq onlayn elmi jurnal

## ANCIENT LAND

International online scientific journal

aem.az

AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# QƏDİM DİYAR

**Beynəlxalq onlayn elmi jurnal**

**Cild: 5 Sayı: 5**

# ANCIENT LAND

**International online scientific journal**

**Volume: 5 Issue: 5**

**Bakı – Baku**
**2023**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
31.01.2012.
Registration No. 3534

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 806 67 68
+994 12 510 63 99

**e-mail**
qedim.2012@aem.az

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2706-6185**
**e-ISSN: 2709-4197**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

**Redaktor**

**Assoc. Prof. Dr. Gülnar Qəmbərova**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
ms.gulnar_babayeva@mail.ru

**Editor**

**Assoc. Prof. Dr. Gulnar Gambarova**, Institute of Literature of ANAS / Azerbaijan
ms.gulnar_babayeva@mail.ru

**Redaktor köməkçisi**

**Magistrant Gülşən ATAKİŞİYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
a_gulsen00@mail.ru

**Assistant editor**

**Master Gulshan ATAKISHIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
a_gulsen00@mail.ru

**Redaktor köməkçisi**

**Tədqiqatçı Nəhayət HÜSEYİNLİ**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
nehayet.huseynli@gmail.com

**Assistant editor**

**Researcher Nahayat HUSEYINLI**, Azerbaijan Science Center / Azerbaijan
nehayet.huseynli@gmail.com

**Dillər üzrə redaktorlar**

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

**Language editors**

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, ANAS Institute of Linguistics / Azerbaijan

**Elmi sahələr üzrə redaktorlar**

**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Rafail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zərövşən BABAYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Fazil BAXŞƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ələmdar ŞAHVERDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Vüsalə AĞABƏYLİ**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Salatın HACIYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## Editors in scientific fields

**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Zarovshan BABAYEVA**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Fazil BAKHSHALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Alamdar SHAHVERDIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Vusala AGABAYLI**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Salatin HAJIYEVA**, Nakhchivan State University / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

**Prof. Dr. Nailə VƏLİXANLI**, Tarix muzeyi / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə
**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Vaqif SOLTANLI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Adil BAXŞƏLİYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Seyfəddin RZASOY,** AMEA Folklor İnstitutu / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Mübariz SÜLEYMANOV**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Sərvər ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mönsüm ALIŞOV**, "İdrak" liseyi / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülçöhrə ƏLİYEVA**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Taleh XƏLİLOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fərqanə ƏLİYEVA**, DİN-nin Polis Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lyudmila CAVADOVA**, İqtisadiyyat və Hüquq üzrə Pedaqoji Kollec / Rusiya, Dağıstan Respublikası
**Assoc. Prof. Dr. Şəhla ƏHMƏDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Rəşad SADIQOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramis HƏŞİMOV**, Dağıstan Dövlət Universitetinin Dərbənd filialı / Rusiya, Dağıstan Respublikası

## EDITORIAL BOARD

**Prof. Dr. Naila VALIKHANLI**, The museum of History / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL**, The University of Arzinjan Binali Yildirim / Turkey
**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Vagif SOLTANLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Adil BAKHSHALIYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Seyfaddin RZASOY**, ANAS Institute of Folklore / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Mubariz SULEYMANOV**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Sarvar ABBASOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, The Institute of History of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulchora ALIYEVA**, Azerbaijan State Marine Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Taleh KHALILOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Assoc. Prof. Dr. Fargana ALIYEVA**, Police Academy of the Ministry of Internal Affairs / Azerbaijan
**Assoc. Prof. Dr. Lyudmila JAVADOVA**, Pedagogical College on Economy and Law / Russia, The Dagestan Republic
**Assoc. Prof. Dr. Shahla AHMADOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Assoc. Prof. Dr. Rashad SADIGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramis HASHIMOV**, Derbend branch of Dagestan State University / Russia, the Dagestan Republic

DOI: https://doi.org/10.36719/2706-6185/23/6-11

**Güllü İsmayılova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-8494-8776
gullu.ismailova@mail.ru

# BƏDİİ MƏDƏNİYYƏT - SOVET İDEOLOGİYASININ TƏSİR MEXANİZMİ ÇƏRÇİVƏSİNDƏ

**Xülasə**

Güllü İsmayılovanın "Bədii mədəniyyət - Sovet ideologiyasının təsir mexanizmi çərçivəsində" adlı məqaləsində Sovet dövründə ədəbiyyat, incəsənət, o cümlədən musiqi sferasında tətbiq olunan ideoloji qadağalar haqqında danışılır. Bədii əsərlərdə ideoloji çərçivədən kənara çıxılmasına icazə verilməməsi, sosial sifariş və senzura haqqında məlumat verilir. Eləcə də, o dövrdə bəstəkarların siyasi mövzularda yazdığı qadağan olunmuş mahnıları və onların mətnləri tədqiq olunur. Sovet ideologiyasının tələbləri - ədəbi, kinomatoqrafiya və musiqi sferasında siyasi mövzulara qoyulan qadağalar göstərilir. Sovet dövründə Ramiz Mirişli və Fikrət Qocanın "Arazım" mahnısının qadağan olunmuş mətni və musiqi təhlili verilir.

***Açar sözlər:*** *bədii mədəniyyət, incəsənət, ideologiya, sosial sifariş, qadağa, mahnı*

**Gullu Ismayilova**
Azerbaijan State University of Culture and Arts
Doctor of Philosophy in Art Studies
https://orcid.org/0000-0002-8494-8776
gullu.ismailova@mail.ru

## Artistic culture - within the mechanism of influence of Soviet ideology

**Abstract**

Gullu Ismayilova's article - "Artistic culture - within the mechanism of influence of Soviet ideology" - discusses the ideological bans imposed on literature, art and music, during the Soviet era. The artists were allowed to provide information that would go beyond the ideological framework, social order and censorship. In addition, in this article, prohibited songs written by composers on political topics and their literary texts are also studied. The requirements of the Soviet ideology - prohibitions on political topics in the literary, cinematographic and musical spheres are indicated. The banned text and musical analysis of the song "My Araz" by Ramiz Mirishli and Fikrat Goca during the Soviet era is given.

***Keywords:*** *artistic culture, art, ideology, social order, ban, song*

## Giriş

Məlumdur ki, müxtəlif tarixi dövrlərdə insanlar tərəfindən yaradılmış mədəni dəyərlərin obrazlı-simvolik formada saxlanılmasını tənzimləyən mədəniyyətin ən sabit komponenti, məhz bədii mədəniyyət növü hesab olunur. Bədii mədəniyyət, 2 böyük sistemin – mədəniyyətin və cəmiyyətin alt sistemidir. Mədəniyyətin geniş sferalarından biri olan bədii mədəniyyətin sosial funksiyalarına onun insanlararası, zamanarası və ərazilərarası səviyyədə mövcudluğu üçün kommunikaktivliyi aiddir. Sənətşünaslıq elmlərinə geniş mənada ədəbiyyatşünaslıq, musiqişünaslıq, teatrşünaslıq və kinoşünaslıq aid edilir, eləcə də dar mənada sənətşünaslıq, təsviri sənətlə əlaqəndirilir. Bədii mədəniyyətdə mərkəzi yer tutan və onun subyekti olan incəsənət – xüsusi professional fəaliyyət sahəsi kimi insanın hisslərini bədii-obrazlı vasitələrlə və janrlarla ifadə etmək bacarığına əsaslanır. Ümumbəşəri dəyərlərin formalaşmasında və insanın mənəviyyatının formalaşmasında mühüm rol

oynayan musiqi mədəniyyəti – estetik, informasiya, idrak, evristik, təşkilati, əlaqə və s. funksiyalar daşıyır. Musiqi - insanın idrak təxəyyülünü əhatə edən universal dildir və cəmiyyətdə ideologiyanın təbliğində də musiqi dilinin müstəsna yeri danılmazdır.

**Sovet ideologiyasının tələbləri - ədəbi, kinomatoqrafiya və musiqi sferasında siyasi mövzulara qoyulan qadağalar.** Bir əsrdən artıqdır (115 il) mövcud olan Azərbaycan professional bəstəkarlıq məktəbinin hər bir nümayəndəsinin yaradıcılığına ideologiya amili müəyyən mənada təsir etmiş, istər onların əsərlərində, istərsə də ümumiyyətlə, yaradıcılıq fəaliyyətlərində ideoloji mövqe, özünü fərqli şəkildə göstərmişdir. Belə ki, Çar Rusiyası dövründə, 1908-ci ildə təməli qoyulan Azərbaycan professional bəstəkarlıq məktəbinin ilk nümayəndələri – Ü.Hacıbəyli və M.Maqomayevin yaradıcılığı, AXC dövründə (1918-1920-ci illər) "türkləşmək, müasirləşmək, islamlaşmaq" kimi o zamanın milli ideologiyasından bəhrələnmişdir. Sonralar, 70 il mövcud olan Sovet dövründə isə insanların şüuruna yeridilən "Marksizm-Leninizm" ideologiyasını həyata keçirən "sosializm realizmi" metodu, bədii mədəniyyətdə hakim mövqe qazanmış və digər yaradıcı şəxsiyyətlər kimi, bəstəkarlar da bu ideoloji çərçivədə yazıb-yaratmaq məcburiyyətində qalmışlar. Vahid istiqamət olaraq rəsmi şəkildə 1934-cü ildə bəyan edilən sosialist realizmi anlayışı, əsas yaradıcılıq metodu kimi sovet mədəniyyətində həyatı olduğu kimi təsvir etməyə səsləyir və sosialist reallığı öz baxışlarını gerçəklikdə kommunist partiyası ilə bölüşərək kommunizmin xüsusiyyətlərini göstərməyə sövq edilirdi. Bu metod, bədii yaradıcılıq işi sahəsində, əsasən sistemin ideoloji silahına çevrilməsini təmin etməyə xidmət göstərirdi. "1935-ci ildə İ.Stalin, bütün mədəniyyət sferasında ali ideoloji orqan Mərkəzi Komitənin təbliğat və təşviqat (Aqitprop) şöbəsini 5 şöbəyə bölür: mətbuat və nəşriyyat, partiya təbliğatı və təşviqatı, məktəblər, elm, mədəniyyət və maarif işləri" (Istoriya sovetskoy politicheskoy chenzuri, 1997: 159). 1938-ci ildə isə Stalin, partiya təbliğatı və təşviqatı işinin bir yerdə cəmlənməsini, təbliğat, təşviqat və mətbuat şöbələrinin vahid birliyinin ÜKPMK-nin tərkibində, hər bir respublika, vilayət və regional partiya təşkilatının tərkibindəki müvafiq şöbə ilə birləşdirilməsini təklif edir. Beləliklə, əvvəllər bir-birindən ayrı vəziyyətdə fəaliyyət göstərən bu şöbələr, mətbuat və nəşriyyatlar vahid təbliğat və təşviqat şöbəsinə (OPiA) birləşdirilir, bununla da partiya orqanlarının ideoloji işlərinə nəzarət etmək vəzifəsi asanlaşdırılır. OPiA ölkədəki bütün mətbuata nəzarət edir, ədəbiyyatı və incəsənəti izləyirdi (Nevejin, 2007: 320). Bu vasitə ilə güclü sovet əli, bütün mədəni istiqamətləri öz nəzarəti altında saxlamağı bacarırdı. Yəni dövlət, mədəniyyətin, o cümlədən də musiqinin xalqa təsir gücünü yaxşı başa düşdüyü üçün əksər musiqi kompozisiyaları dövlət tərəfindən sifariş edilir, onlar öz təqdir etdikləri sahələri cəmiyyətə icmarıc olaraq bəstəkarlar vasitəsilə bu şəkildə çatdırırdılar. Sosializm realizm metodu bəstəkarların, yazıçıların və şairlərin yaradıcılığını sərt çərçivəyə salırdı, yəni senzura tətbiq olunduğu üçün yaradıcı təbəqə mütləq olaraq Kommunist Partiyasının fəaliyyətini bölüşməli və onunla həmfikir olmaq məcburiyyətində idi. Sovet bəstəkarının da rolu musiqi vasitəsilə sosializmin ən ideal cəmiyyət olmasını, bu cəmiyyətdə inqilabi və əmək fəaliyyətinin üstünlüyünü göstərmək idi.

Böyük Vətən müharibəsinə qədər Sovet musiqisinin əsas təbliğat janrı – ümumi Vətən, şəhərlər haqqında, dəniz və əmək mövzularında patriotik səpkili, eləcə də komsomol və pionerlər, rəhbərlər və onların nitqləri haqqında yazılmış mahnılar idi. Yəni bu dövrə qədər yazılan əsərlər, əsasən major məqamında optimist ton daşıyan, şən musiqi nümunələrindən ibarət idi. Mahnılarda təcəssüm olunan yeni insan obrazı, sanki kommunizmə doğru addımlayan tamamilə yeni ölkənin qurucularını vəsf edirdi. Sovet dövründə ədəbiyyat və incəsənət sahəsində əsasən ideoloji düşüncəyə uyğun olan, sosial sifariş əsasında partiyaya, oktyabra, Leninə, Stalinə, komsomola həsr edilən nikbin ruhlu əsərlər geniş yer alırdı. Belə ki, kədər affekti qadağan olunur, əsasən prinsipial ideoloji mətn daşıyan nəşəli mövzulara incəsənət nümunələrində geniş yer verilirdi. Eləcə də milli mövzulara qısqanc bir münasibət var idi, məsələn, şairlərin milli tar alətinə müraciətində olan polemik baxışlar, fərqli yanaşma tərzi (S.Rüstəmin –"oxuma tar" müraciəti, M.Rəfilinin tarın səsini keçi mələməsinə bənzətməsi, M.Rahimin – dinləyəni sıxan, inləyən tarı susdur fikri) yer alırdı. S.Babullaoğlu yazır: "21 yaşlı çılğın Müşfiq sabiq maarif komissarının rəhbərliyi ilə keçən elə həmin "tar məhkəməsində" bədahətən oxumuşdu "Tar"ın bəzi parçalarını" (3). Belə ki, tar alətini

dəyərləndirən, “Oxu tar, səni kim unudar?” söyləyən M.Müşfiq, 29 yaşında Sovet repressiya qurbanlarından biri olmuşdu.

Siyasi mövzularla bağlı olan, eləcə də pərdə arxasındakı acı həyat, şəxsi kədər yaşantıları həm ədəbiyyatdan, həm də mahnı kimi poetik mətnlə bağlı olan musiqi numunələrinin anlamından silinirdi. Sovet cəmiyyətinin “Xruşşov mərhələsində” şəxsiyyətə pərəstişin aradan qaldırılması, “istiləşmə” dalğasının yaranması ilə əlaqədar olaraq ədəbiyyat və incəsənət sahəsinə müəyyən səviyyədə həyat materialı və təbii insan obrazları daxil olsa da, bədii mədəniyyətlə bağlı olan incəsənətin hər bir sahəsində Sovet ideologiyasının yol vermədiyi siyasi məsələləri işıqlandırmaq olmazdı. Belə ki, məsələn, əgər əsərin orijinalında mövcud olan hansısa siyasətə işarə vuran kadr filmə çəkilirdisə, o hissə filmlərdən kəsilib atılırdı. Məsələn, İ.Şıxlının ssenarisinə əsasəsən “Dəli Kür” filminin finalında Cahandar ağa, öz torpaqlarının knyaz İ.İ.Vorontsov-Daşkov tərəfindən tutulmasına etiraz edən zaman atışmada kazaklar tərəfindən öldürülür, lakin bu hissə filmdən kəsilir və bizim gördüyümüz kadrlarda Cahandar ağa, məişət zəminində, arvadını qaçırdığı Allahyar tərəfindən qətlə yetrilir. Kinoşünas A.Kazımzadə filmin senzuradan keçməyən sonluğu ilə bağlı vurğulayır: “Filmin finalını kəsib atdılar, bütün filmin canı, ürəyi də o finalda idi, çünki orada bizim tariximiz, rusların bizim əlimizdən torpaqlarımızı necə alması var idi” (4). Bu gün kinoşünasların açıqladığı bu senzura məsələləri, o dövrün ideologiyasının tələbləri baxımından digər - ədəbi sferada və musiqi sahəsində də mövcud olmuşdur. M.Arazın 1964-cü ildə yazdığı şeiri, hələ də o dövrdə ideologiyanın ədəbi mühitə təsirinin güclü olmasının göstəricisi idi:

Qaytardı redaktor lirik şeirimi,
Qaytardı fəhlə yox, zavod yox deyə (5).

Qədim tarixə malik olan Azərbaycanın, bu günkü müstəqilliyinə və inkişaf səviyyəsinə çatmaq üçün keçməkeçli bir yol qət edərək çətin sınaqlardan keçməsi, əsrlər boyu yadellilərin işğalçılıqlarına məruz qalaraq, daima öz ərazisini qorumaq məcburiyyətində olması məlum faktır. Eləcə də ölkə daxilində gedən çəkişmələr nəticəsində xanlıqlara parçalanan Azərbaycan torpaqları, XIX əsrdə “Gülüstan” və “Türkmənçay” müqavilələrinin şərtlərinə görə Şimali və Cənubi Azərbaycan olaraq iki hissəyə bölünərək Rusiya və İran müstəmləkəsinə çevrilmişdir. Bədii mədəniyyət sferasında bu mövzunun ağrı-acısını əks etdirən çoxsaylı əsərlər yaransa da, onların əksəriyyəti bu siyasi mövzunu təcəssüm etdirdiyi üçün Sovet senzurasından keçə bilməmişdir. C.Cabbarlının 1923-cü ildə tamaşaya qoyulması yasaqlanan “Araz çayı” mənzum pyesindəki parçada deyildiyi kimi:

Araz, çəkil aradan, qovuşsun Azərbaycan!
Araz, söylə nə üçün sən yol saldın buradan?
Yoxsa qorxdun azadlıq, gəlib keçsin oradan?

“İmperiya – yaddaşsızlıq təbliğ edir. İşğal etdiyi, qoynuna aldığı bütün xalqların yaddaşını öldürməyə, onların kök, yəni tarix və müstəqillik haqqında xatirə və təsəvvürlərini məhv etməyə, xalqın öz müstəqilliyini, hətta mifik bir səviyyədə belə anmasına imkan verməməyə çalışır. Buna görə ilk növbədə millətlərin yaddaşını “təmizləyib” ağ varağa çevirir, hətta folkloru da saxtalaşdırır və ağ yaddaş varağında öz saxta tarixini qondarmağa çalışır” (Rüstəmxanlı, 1998: 84). Digər sahələrdə olduğu kimi, bəstəkarlıq sferasında da ideologi baxımdan yasaqlanan bir çox mövzular, o cümlədən Cənubi Azərbaycan, Araz çayı ilə bağlı kompozisiyaları təqdim etmək mümkün olmamışdır. Bəstəkarların qəlbindən gələn bəzi əsərlər yazılmış və ya ifa olunmuş olsa belə, onların notlarının nəşri və sonrakı ifası qadağan edilmişdir. Məsələn, 1946-cı ildə Fikrət Əmirovun (mətn - Nikolay Dorizo) "İki sahil" romansı, Rəşid Behbudovun interpretasiyasında lentə yazılsa da, bu əsərin ifasına 1947-ci ildən qadağa qoyulmuşdur Səbəb isə romansın Azərbaycanı 2 yerə bölən Araz çayını vəsf etməsi və siyasi xarakter daşıması idi. Rekviyemə bənzəyən bu əsəri dinləyərkən,

sərhədləri bağlı olan, həsrət ağrısı ilə bir-birindən ayrı yaşamağa məcbur edilən, Azərbaycan xalqının ikiyə bölünmüş taleyi haqqında yazılmış sanki bir roman oxumuş olursan (7).

Birmənalı şəkildə vurğulamaq lazımdır ki, o zaman senzuradan keçərək ifa olunan mahnılar, əsasən optimist ton daşıyan musiqi nümunələri olmalı idi. Sovet ideologiyası Stalindən sonrakı dövrdə də bu ənənəyə sadiq qalaraq siyasi mövzularla yanaşı, şəxsi və həyati kədər yaşantıları təcəssüm olunan mahnıları da senzuradan keçirmir, buna görə də onların əsas anlamları mətndən silinir, mahiyyəti dəyişdirilirdi. Məsələn, bütöv Azərbaycanı ayıran, semantik səciyyə daşıyan Araz çayı haqqında 1967-ci ildə R.Mirişlinin F.Qocanın sözlərinə yazdığı "Arazım" mahnısı da Sovet ideologiyasının tələblərinə cavab vermədiyi üçün senzuradan keçməmişdi. İfasına icazə verilməyən, bu mahnının müəllifləri, mahnının mətnini dəyişdirərək, onu bizim bildiyimiz daha yumşaq versiyada təqdim etməyə məcbur olmuşdular. Əslində isə F.Qoca və R.Mirişli əməkdaşlığından yaranan "Arazım" mahnısının yalnız müstəqillik dövründə tanış ola bildiyimiz yasaqlanan mətni aşağıdakı kimidir:

I
Gəldi bahar, açdı güllər, Araz aşdı, Araz daşdı,
Ayrı düşdü doğma ellər, qəlbi kövrək, gözü yaşlı.

Nəqərat:
Araz axar həzin-həzin, bulud alıb göyün üzün,
Mənim Arazım.

II
Sularında qəmli-qəmli, axar günlər, axar illər,
Arazımın nəğməsindən, niyə yandı qızıl güllər?

Nəqərat:
Araz axar qəmli-qəmli, göylər dərdli, yer ələmli,
Mənim Arazım.

Bədii qiraət:
Aramızdan Araz axır, ləpələr yandırır yaxır,
Axıb nə vaxt qurtaracaq, yuxarıdan Tanrı baxır.

III
Nə oxuyum, nədən yazım, fəryad çəkir qəmli sazım,
Bu həsrətə torpaq dözür, necə dözsün ruhum, arzum?

Nəqərat:
Araz axar şirin-şirin, özü dərdli, dili şirin,
mənim Arazım.

Ümumiyyətlə, 50-60-cı illərdə yaradıcılığa başlayan gənc şairlər M.Araz, M.İsmayıl, V.Səmədoğlu, F.Qoca və başqalarının şeirlərində ifadə novatorluğu çox güclü idi. Yazıcı Anar bunu "ideoloji qəliblər içində boğulan, dar estetik çərçivələrdə çabalayan həqiqi sənət dirçəlib" şəklində ifadə edir. "Arazım" şeirində də F.Qocanın işlətdiyi bədii təsvir olduqca maraqlıdır, burada şair metonimiya, metafora, təşbeh kimi bədii ifadə vasitələrindən istifadə edir. Suları qəmli-qəmli axan, ləpələri yandırıb yaxan, özü dərdli, dili şirin Arazım deyən, Azərbaycan poeziyasının realist fikirli, azad ruhlu sərbəst şeirin parlaq nümayəndəsi olan şair F.Qoca, "Arazın nəğməsinin bu yurdun, bu Vətənin həsrət nəğməsi olduğunu bir daha xatırladır" (İsmayılova, 2000: 44). Bəstəkar da "Arazım" mahnısında bu gizli kədər hissini, şeirin ümumi məzmunundakı parçalanmış, doğma elləri ayrı

düşən Azərbaycanı,Vətən həsrətini, maraqlı şəkildə, çox gözəl melodik çalarlarla vəsf edir. O, mahnıda həsrət və kədər semantikanı ifadə etmək üçün si mayəli şüştər məqamına əsaslansa da, işıqlı harmoniyalardan istifadə edir. Əsas kuplet aralıq ladı olan tərkibdə yazılmışdısa, mahnının nəqəratı mayeyi-şüştərə qayıdışdan ibarətdir. Bəstəkar, bu qayıdışı III (fa diyez[1]), II (mi[1]) nəhayət III (fa diyez[1]) səslərinin kadansları vasitəsilə edir.




## Nəticə

Sovet ideologiyasının təsir mexanizmi uzun müddət bədii mədəniyyətin bütün sahələrinə nüfuz etmiş və onu müəyyən siyasi çərçivədə saxlamışdır. İdeologiya və bədii mədəniyyətin qarşılıqlı təsiri onunla bağlıdır ki, ədəbiyyat və incəsənət yalnız öz qanunları əsasında inkişaf etmir, o həm də ideologiyanın əhəmiyyətli, hətta təyinedici təsirini hiss edir və eyni zamanda ideyaları insanların şüuruna yeritməyə kömək edir. Müxtəlif metodlara istinadən aparılan tədqiqata əsasən, sovet sistemi dövründə bədii yaradıcılıq işi, incəsənət, o cümlədən də musiqi sferası əsasən totalitar rejimin və hakim ideologiyanın siyasətinə və mənafeyinə tabe etdirilmişdi. “Arazım” mahnısının əvvəlki mətni ilə səslənən Şövkət Ələkbərovanın ifası, eləcə də Vaqif Mustafazadənin caz improvizasiyası ilə “Sevil” vokal-instrumental ansamblının çox sevilən çoxsəsli ifa versiyası və d. interpretasiyalar da mövcuddur. Lakin tarixi musiqişünaslığa aid olan musiqi tekstologiyası sahəsində aparılan araşdırmalara əsasən məlum oldu ki, mahnının yuxarıda verilən mətninin təcəssümü, əvvəl yasaqlandığı üçün yalnız müstəqillik dövründə öz ifadə azadlığını tapa bilmişdir. Belə ki, “Arazım” mahnısının müəllifləri - R.Mirişli və F.Qoca, Sovet dövründə senzuradan keçmədiyi üçün mahnının sözlərini yumşaldaraq dəyişmək məcburiyyətində qalmış və bununla da mahnının semantikası tamamilə dəyişmişdir. 2019-cu ildə müğənni Azər Zeynalov, şeirin məhz ilkin, yasaqlanan versiyasında bu mahnını ifa etmiş və diskə yazdırmışdır. Mahnının yeni

versiyasında həm də bədii qiraətdən istifadə olunmuş və sonuncu kupletə keçiddə verilən passaj, $k_2$ yuxarı - do şüştərə edilən modulyasiyaya aparıb çıxarmışdır. Yeni mətnin təcəssümündə, musiqinin ifadə vasitələri daha çox minor harmoniyaları ilə birlikdə "ayıran" Araz çayının vəsf edilməsində daha həyəcanlı emosional duyğular yaratmış, bununla da dinləyicini düşünməyə və bu hissləri yaşamağa vadar etmişdir.

**Ədəbiyyat**

1. Istoriya sovetskoy politicheskoy chenzuri. (1997). Dokumenti i komentaryy. 1917-1993. Otvetstvenniy sostavitel i rukovoditel tvorcheskogo kollektiva Goryayeva, T.M. M., 672 s.
2. Nevejin, V. (2007). "Yeshli zavtra v pokhod": podgotovka k voyne i ideologicheskaya propaganda v 30-x – 40-x godakh. M., 320 s.
3. https://kulis.az/news/5646
4. http://www.anl.az/down/meqale/525/2018/yanvar/570766.htm
5. https://modern.az/aktual/376955/ediblerimizin-yaradiciliinda-cenub-yanisi/
6. Rüstəmxanlı, S. (1998). İdeologiyamızın təməli tarixdədir. Azərbaycan araşdırmaları vəqfi. Azərbaycanın Türkçülük və Azərbaycançılıq problemləri. Bakı: "Ay-Ulduz" nəşriyyatı, 157 s.
7. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/9774-altmisincilar-ve-son-60-ilin-edebi-heyatindan-sehifeler
8. İsmayılova, G. (2000). Bəstəkar Ramiz Mirişli. Monoqrafiya. Bakı: "Steyk", 72 s.

Göndərilib: 09.03.2023 Qəbul edilib: 14.05.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/12-20

**Fatma Hajiyeva**
Nakhchivan State University
Doctor of Philosophy in Pedagogy
fatmahaciyeva022@gmail.com

# INTELLECTUAL DEVELOPMENT AND EDUCATIONAL SUCCESS IN SECONDARY SCHOOLS

## Abstract

In this study, the features of the relationship between the intellectual level of students and their academic success in the training process, improving the quality of training, the special importance of measuring the intellectual abilities of students were investigated. With another expression, starting from the preparatory groups of students for school, their adaptation to the school environment, the formation of their knowledge, skills and habits, and later, in the elementary grades, their completeness, consciousness, systematicity, generality, etc. successes have been captured. The research was conducted in Julfa district of Nakhchivan city. In the article, it is explained in detail about the generalization of the research results, the reaching of the current intellectual limit, the high indicators, and the existence of a serious dependence between the students' success and their intellectual level, it has also been determined from the conducted research that high indicative students can achieve successful results in education. Sometimes the high level of these indicators also shows the high level of training success. The development of individual components of the intellectual structure of students who are applied an individual approach in the training process, mastering other subjects, etc. covered in detail.

***Keywords:*** *intellect, experience, success, teaching, learning*

**Fatma Hacıyeva**
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
fatmahaciyeva022@gmail.com

## Orta məktəblərdə intellektual inkişaf və təhsil uğuru

## Xülasə

Bu tədqiqatda təlim-tərbiyə prosesində tələbələrin intellektual səviyyəsi ilə onların akademik uğurları arasında əlaqənin xüsusiyyətləri, təlimin keyfiyyətinin yüksəldilməsi, tələbələrin intellektual qabiliyyətlərinin ölçülməsinin xüsusi əhəmiyyəti araşdırılmışdır. Başqa bir ifadə ilə şagirdlərin məktəbə hazırlıq qruplarından başlayaraq onların məktəb mühitinə uyğunlaşması, bilik, bacarıq və vərdişlərinin formalaşması, daha sonra isə ibtidai siniflərdə onların dolğunluğu, şüurluluğu, sistemliliyi, ümumiliyi və s. uğurlar əldə edilmişdir. Tədqiqat Naxçıvan şəhərinin Culfa rayonunda aparılıb.

Məqalədə tədqiqat nəticələrinin ümumiləşdirilməsi, hazırkı intellektual həddə çatması, yüksək göstəricilər, tələbələrin uğurları ilə intellektual səviyyələri arasında ciddi asılılığın mövcudluğu ətraflı izah edilmiş, həmçinin aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, yüksək göstəricili şagirdlər təhsildə uğurlu nəticələr əldə edə bilirlər. Bəzən bu göstəricilərin yüksək səviyyədə olması həm də məşq uğurunun yüksək səviyyədə olmasını göstərir. Təlim prosesində fərdi yanaşma tətbiq olunan şagirdlərin intellektual strukturunun ayrı-ayrı komponentlərinin inkişafı, digər fənlərin mənimsənilməsi və s. ətraflı əhatə olunub.

***Açar sözlər:*** *intellekt, təcrübə, uğur, tədris, öyrənmə*

## Introduction

Features of the relationship between the intellectual level and academic success of students in the educational process of secondary schools, issues of improving the quality of training are the relevance of today. Thus, the level of knowledge and skills acquired by students as a result of the development of education also demonstrates their personal quality (State Strategy for the development of education in the Republic of Azerbaijan, 2013).

Students have a system of knowledge and skills, their level of assimilation of textbooks such as culture, social life, etc. is understood at the same time, they should be considered as a result of the training position of completeness, consciousness, systematicity, flexibility, generality and other indicators in educational success, intellectual development and educational success should be at a high level (State Strategy for the development of education in the Republic of Azerbaijan, 2013).

In modern times, the quality and development of education has become an indicator that ensures the development of society. Development in the field of education is understood as the level of students and the state of the education system to predetermined norms (State Strategy for the development of education in the Republic of Azerbaijan, 2013).

The characteristics of the relationship between students' intellectual levels and academic success in the training process is one of the issues that cause interest in improving the quality of training. Therefore, the measurement of the intellectual abilities of students is of particular importance.

The development of education is not only the level of knowledge, skills acquired by students, but also a personal quality that indicates their attitude to the world, to the development of society. The student's personal quality means that he has a system of knowledge and skills, as well as culture, social life, etc. The level of mastery of such textbooks should be understood. Therefore, the educational success of students should be considered as the final result of completeness, consciousness, systematicity, flexibility, generalization and other indicators in the training process, and intellectual development and success in the training process should be assumed as the main characteristics of training that ensures effectiveness according to the needs of a certain stage of education (State Strategy for the development of education in the Republic of Azerbaijan, 2014).

The main success in education should be considered as the main factor that determines the level of compliance of the knowledge, skills and habits given to the students with the state standards and serves the success (Zakharova, 2003: 193).

Development and success in elementary grades are complex and multi-parametric and should be researched in more detail. Since there is a direct relationship between the quality of the results, the obtained results cannot look outside of the teaching-training process and the conditions created for it. The main successes explained are standing with the characteristics of the conditions created for the implementation of the educational process stand in front of the development and success of students.

Rubinstein shows that if the methods of studying thinking in an experimental situation are used appropriately, it can become a pedagogical method of thinking education (State Strategy for the development of education in the Republic of Azerbaijan, 2017).

When developing thinking in children in school practice, it is observed that tested experimental methods are rarely used in the pedagogical context. A number of teachers and researchers have individual initiatives. In elementary grades, methodologies that serve to develop logical, critical and creative thinking should be widely applied, the content of education and training strategies should be oriented towards this goal. The works of many Azerbaijani scientists are dedicated to raising the intellectual level of students. Among these scientists, the works of A.A.Alizadeh "Psychological problems of the modern Azerbaijani school" and A.O.Mehrabov "Development of the student's intellect" are dedicated to this topic. Some of our scientists note that the development of students' intellectual level should be studied in connection with their physiological development. In modern times, the development of the general level of intelligence of students and different directions of intelligence is the most urgent issue facing the school. Therefore, making many changes in

educational matters and the content of education compulsion has arisen (State Strategy for the development of education in the Republic of Azerbaijan, 2015).

In general, distinguishing training as a specific ability different from general intelligence is a rather difficult problem. Although general intelligence is not the main factor determining training success, it is appropriate to consider it in this context. Content is quite important in matters related to the education of gifted children. The definition of content occurs mainly to teach children a certain amount of selected knowledge according to the relevant goals or on the basis of disputes about teaching them to acquire knowledge on their own. K.D.Ushinsky (1824-1871) also focused on the didactic unity of the assimilation of knowledge with the development of thinking in students. Most importantly, when choosing the material of the taught subjects, special attention should be paid to their developmental quality, intellectual development and most importantly, the success of students. For this reason, the teaching of mathematics, exact sciences, different languages, interdisciplinary and integrated courses are considered basic for them. Because these courses allow the teacher to keep in focus on the development function rather than the teaching function. The main theoretical-psychological idea of this approach is that once cognitive abilities are formed in a small content base, they can be easily transformed to other areas, which leads to the intellectual development of students and their success (State Strategy for the development of education in the Republic of Azerbaijan, 2017).

Jean Piaget (1896-1980) and his followers believe that there is a significant connection between the content and the form of intellectual activity. Indeed, the existence of a certain relationship between any set of factors and their conditioned intellectual development has been confirmed through research. According to some experts, the intellectual development and success achieved by students constituent unity with the idea of universality of creative abilities.

Although intellectual development and creative abilities are universal, in concrete real life applied to a field.

Intellectual development applied to a field for a long time is enriched by the peculiarities of that field, and the further development of abilities is formed on the basis of the internal regularities of this field. For this reason, mathematical, chemical, biological, etc. manifests as thinking. Even in this case, developed abilities do not lose their universality.

In modern times, the importance is given to the formation of developmental education systems in developed countries (State Strategy for the development of education in the Republic of Azerbaijan, 2014).

Azerbaijan development training models are becoming widespread and interest in them is growing even more. In this approach, special importance is given to the intellectual development of students, so the success of talented children is more. In many developed countries, this line is the basis of content changes in school education.

In traditional education, the process of "teaching" takes precedence over "learning". The educational policy pursued decides or executes what should be taught to teachers how. The content concepts of such systems tend to be more focused on the “abstract student”, rather than on students who differ from each other.

The content of education is always the object of research of the sciences related to education, as it is one of the main factors that predispose students to interest in training. In general, the more educated students are in terms of development, the wider their intellectual development. This also leads to their success.

One of the main goals of children in the training process is to make them master social experiences and meet their cognitive needs. In general, when there is mutual interest on the part of both the teacher and the student, the training process of the students is productive. This leads to the intellectual development of students.

When the intellectual level is high, the success of the students is also high. In his concept of content, J.Dewey noted that training should be aimed at the natural development of the innate and natural qualities of children. Therefore, in the central position in the formation of the content of

education, "armed adults" with various plans, programs and goals - education officials, specialists, teachers, parents, etc. not, children with unique interests, needs and capabilities should stand (Bayramov, 2002: 54-56).

The student is the center of gravity of the training process. While determining the quantitative and qualitative parameter in training, the individual capabilities, interests and needs of real children should be taken into account objectively.

John Dewey (1859-1952) noted that the only way to acquire a social heritage is to assimilate to children the various activities that civilize civilization. This approach should focus on efficient and constructive action, creativity and research.

Basically, reference should be made to the student's experience; the student should participate in determining the quantity and quality of training; the training of students should be organized on the basis of practical research activities. These also provide the basis that, the intellectual development of students is increasing and leads to their success. Only in this case, training takes on a natural character, turning the school into a student's social life space.

Training activity is a means for the development and realization of individual and personality qualities of students (Alizade, 1998: 60-63).

In traditional training, students are first taught theoretical knowledge, and then the issue of their fields of application is considered. In this approach, a problem is first posed, and the need for additional knowledge - training for its solution necessitates an appeal to theory. Students also achieve their success and achievements with this method. Students adopt knowledge not ready-made, but in a real creative process, research activity. In this case, solving the problem with the acquisition of the necessary knowledge creates an impression of discovery in the students and has a significant positive effect on the emotional field, the knowledge learned in this process becomes more effective in terms of good memorization and free application. This approach leads to intellectual development and success in them. It is also important to properly base the training process on the cultural, historical, social and psychological-pedagogical aspects (Baylarov, 2006).

The intellectual level is gradually selected mainly from preschool groups. The main goal of creating preschool groups is the adaptation of children to the lesson process and the school environment, the formation of certain knowledge, skills and habits in them. The main task of teachers engaged in this work is to create a positive emotional attitude for children to adapt to school, to create a passion for reading in them, and to form their personal social characteristics.

The physical, intellectual and social preparation of preschool aged children ensures a high level of their achievements. High achievement includes a child's physical fitness, health, maturity, movement activity, and development of physical and mental abilities. Personality-oriented preparation develops in children the characteristics of independence, activity, initiative. Students' listening skills form the ability to agree with adults. Following the defined rules arranges advantage. The process of formation of communication and self-evaluation begins in them (Alizade, 1998: 80-82).

Intellectual preparation leads to the formation of thinking and imagination in children. It directs them to systematize and analyze, and this creates conditions to master for children to develop speech, dialogue, monologue and other types of activities. At the same time, these also create an opportunity for children to achieve a high level of success. The development characteristics of children of preschool age create a foundation for their achievement in higher grades, starting from the first grade.

Researches conducted in developed countries of the world show that preschool education has a positive effect on the future social and academic life of children. Children who receive such education later form competencies such as social behavior, exams, achieving successful results, and tending to special education. In recent years, important work has been going on also in Azerbaijan in the direction of creating and developing preschool groups. Thus, based on research conducted both on scientific-methodological literature and on my own personal experience, I can say that the involvement of children in preschool groups not only ensures their adaptation to school, but also

plays a positive role in their future activities and enables students to achieve higher achievement in school.

The rapidly developing and globalizing world makes it necessary to have a flexible education system capable of training students who can react quickly and positively to changes. In this regard, I visited several schools in Julfa district, where I was born and grew up, and during my research in the schools, I witnessed how the intellectual development of our students increased year by year, and how good successes were achieved.

The education process is given great importance in Julfa region. Because the way of development of our people and the state goes through education. It is no coincidence that the great leader Heydar Aliyev high praised the role of education in the life of society and said that education is the future of the nation. No matter where, no matter what, the society must stop and spend on education, help the education of the younger generation and the teacher. The country's president valued education as a priority area that determines the future of Azerbaijan. Education should be at such a level that, it to create an opportunity to people with the opportunity to quickly master new technologies, take a worthy place in the labor market and personal life, a healthy lifestyle, choosing the right position in relation to the environment and the processes taking place in society ("Voice of Araz" newspaper, "East Gate" newspaper) (8). In this case, students may have high intellectual development and success.

While concluding the school year declared as "The year of quality in education", for example, the indicators of Alinca, Ebragunus village school in many villages of Julfa region were especially emphasized. In the last year, the percentage of graduates of the school entering higher education institutions has increased significantly. The indicator of Alinja school in this field was higher than the republic level. In the current year, 6 out of 11 graduates of that educational institution were awarded the title of student. 112 graduates were admitted to various universities in the region ("Voice of Araz" newspaper, "East Gate" newspaper) (8).

The teachers of Julfa district were among the winners at the conclusion of the XXIV Republican pedagogical lectures in Baku dedicated to the actual topic "Using modern training methods as an important condition for improving the quality of education". The intellectual development and success of the students trained by our highly educated teachers should be at a very high level. During the research, it was also clear that, graduates of 2010, who graduated from the secondary school of the district and were admitted to the higher school, have increased their achievements in terms of quality compared to the previous years. Thus, graduates who scored between 500-700 points during the entrance exam to higher schools in the last academic year covered 9 schools, and if the number was 18, then in 2010 the number of these schools was 14 and the number of students was 24.

Obtaining these achievements is related to the attention and care shown to education by the head of our state, the Autonomous Republic, and conscientious fulfillment of the duties assigned to the education workers.

Educational construction, organization of education at the level of modern requirements is the main focus field in daily activities.

Dozens of teachers work in educational institutions operating in the region to form the worldview of students, training worthy citizens and in the work of preparing of graduates with deep knowledge.

There is no development and progress without school. The school is such a center that plays an important role in educating a whole nation with the most sublime feelings. Every young person studying in independent Azerbaijan should set a goal to work for the interests of Azerbaijan in the future, study the history and national values of our country in depth, and grow up as a professional specialist and national personnel. National leader Heydar Aliyev attached special importance to education and said: "The field of education is the most important area for the present day of our people, for the future of our nation and state."

Implementation of programs and complex measures designed for the development of education in the Autonomous Republic also cover Julfa region. As a result of the implemented measures, 67 electronic boards and 352 computer sets were installed in the general education schools of the region, and the internet connection rate of schools was increased to 95%. These indicators greatly increase the intellectual development of students, and the achieved success is at a very high level.

These successes have been increased even more in Julfa region schools every year. For example, in 2014, 231 people were admitted to higher education institutions, which is 64.8% of the applicants.

In 2015, out of 402 graduates, 305 people were admitted to universities, among them 48 people scored 500-700 points. In 2016, 277 people were accepted, which is 69.5% of the applicants. 35 people scored 500-700 points (“Voice of Araz” newspaper, “East Gate” newspaper) (Voice of Araz (2008); East Gate, (2012). 23 students were admitted to the higher school in Julfa City Secondary School No.3, 4 of them scored 500-600, and one scored 650 points.

In general, national leader Heydar Aliyev drew attention to the importance of the education system in Azerbaijan and said: “How valuable the education system is can be seen from the fact that there are people with high literacy, knowledge, qualifications and high science in Azerbaijan and they form a large part of society. If it were not for them, the economy of Azerbaijan could not develop so strongly. Without these, they could not rule Azerbaijan as an independent state now. Need to evaluate them and we must never forget our achievements over the decades”.

295 computers, 54 printers were provided and 34 computer rooms were created in Julfa district general secondary schools for the further increase the intellectual level of students. 232 computers were connected to the Internet in secondary schools, 28 computer booths were created, district schools were provided with 32 electronic boards ("Voice of Araz" newspaper) (Voice of Araz (2008). Not only in Julfa district, but also in all Azerbaijani schools, every condition has been created for students to study well.

Teacher training arranges one of the main directions of reforms carried out in the field of education. Numerous army of teachers in Azerbaijani schools have tried to fulfill their honorable duty. As a result of the number of teachers, in 2018-2019, 177 out of 279 graduates in Julfa district were admitted to higher schools, 31 to secondary schools, 28 of them scored 500-700 points. These numbers have been increasing (REFERENCE).

In the 2020-2021 academic year, 303 people out of 328 graduates applicanted to higher schools, 181 people were admitted to higher schools, and 43 people were admitted to various secondary schools of the republic. In this academic year, 1 person was awarded the “Gold” and 5 people were awarded the “silver” badges. Students who received "Gold" and "Silver" badges were also admitted to universities with high marks ("East Gate" newspaper) (East Gate, (2012).

Among the teachers working in Julfa district schools, experienced and influential teachers who are masters of their profession, who know the subject they teach perfectly and are able to teach it, are remembered with gratitude even today. Among such teachers, Dovlet Mammadov, Huseyn Mammadov, Seyidali Seyidov, Ramiz Safarov, Abbas Guliyev and others attracted more attention. Thanks to these teachers, our students have developed at a very high intellectual level in the schools where they study, and the successes achieved have been more (“Voice of Araz” newspaper, “East Gate” newspaper) (Voice of Araz (2008); East Gate, (2012).

The purpose of this research is to determine the high intellectual levels and educational success of students in Azerbaijan general secondary schools and the results of professional teachers' activities of these successes. The main purpose of the article is to develop the quality of education in students, raise intellectual levels, bring completeness, consciousness, systematicity, generalization, bring students to a high level and achieve high results in educational success in Azerbaijan general secondary schools. Scientifically revealing these qualities makes the article more comprehensive. As a sub-goal, to conduct research in secondary schools, as a result of the research, how teachers approach students, ways of teaching them, students' contact with the environment, how the environment affects them, what is the approach of both parents and teachers

to students, and as a result of this approach line, measuring their knowledge levels as a result of this approach is the main task of the article.

**Research method.** In a research formulated in a scanning model the information obtained by referring to the scientific literature related to the topic is summarized. At the same time, observation was carried out in the city of Jufla of Nakhchivan Autonomous Republic on the basis of data obtained from scientific literature and findings were revealed.

**Findings.** In Julfa district schools of Nakhchivan Autonomous Republic, in different regions of Azerbaijan, both from this research and from the researches conducted by various researchers, it can be concluded that the intellectual levels of the students who work with experienced, influential, teachers who love their profession are always high. This leads to their educational success (“Voice of Araz” newspaper, “Sharg Gapisi” newspaper, 20-22).

According to some experts, the intellectual development and success achieved by students constitutes unity with the idea of universality of creative abilities.

As a result of the research, interesting results were obtained on the dependence of the success achieved in the training process on the level of development of individual intellectual abilities.

When applying an individual approach in the training process, it is important to know and take into account the impact of the development of individual components of the intellectual structure of students on the mastery of these or other subjects. During the analysis of the results of our research, we came to the conclusion that the transition from models of comment of the parameters of activity with the structure of intelligence with various factors, correlations to more dynamic models is extremely necessary for the development of the general theory of abilities. The concepts of "Intellectual Range" or "Productivity Range" make it possible to comment a number of empirical dependencies, facts, and predict some effects. It can be seen from what has been said that there is a serious dependence between the training successes of students and their general intellectual level. Successes in various subjects are also positively correlated with the level of development of individual components of intelligence.

The higher the intellectual development of students, their success will be much greater. In general, different perceptual styles are studied in students, selected and applied taking into account training-teaching methods and learning tactics. In the teaching process, it is applied taking into account the interests, needs, and preferences of students. At this time, students' preparation levels and interests are taken into account and established. Conducted observations have shown that it is necessary to apply different levels of tasks and tools for assessment. In this case, time is flexibly divided between teaching units, the development and achievements of students are taken as a basis. Taking into account the degree of individual perception, various reading materials are offered to them by the teacher, conditions are created for various interpretations and explanations. At this time, the intellectual development of students is higher, which is the main factor for their success. The above-mentioned issues characterize the transition processes experienced by Azerbaijani schools in modern times, along with the countries of Central Eastern Europe. It also characterizes the transition processes experienced by schoolchildren in Azerbaijan at the present time.

Over the years, the level of professionalism of teachers has increases and leads to both improvement of intellectual development of students and new successes through training courses. As a result, there is a significant connection between the content and the form of intellectual activity. The existence of a certain relationship between any set of factors and their conditioned intellectual development has been confirmed through research.

Finally it can be stated that, characteristics of the relationship between the intellectual level and academic success of the students in the process of training in secondary schools of Azerbaijan, as well as teachers, from the provisions put forward in the study and the scientific results obtained, is one of the issues that causes interest in improving the quality of training. Therefore, the measurement of students' intellectual abilities is of particular importance.

## Conclusion

New educational concepts are being applied in the countries of the world. It is already a year that new educational programs have been implemented in Azerbaijani schools, and, of course, teachers act as a decisive image in the changes in the reform process (Mehrabov, Baylarov, 2006: 72-75). The effect of complex reforms in education is ultimately realized in the classroom environment and serves to improve the training results of students. In this regard, a lot of work is being done in our country. The analysis of the two most important documents that conceptually justify the development of education and its implementation in Azerbaijan - "General Education Concept of the Republic of Azerbaijan" (National Curriculum) (2006) and "State Standards and Programs (Curriculums) of the General Education Level" (2011) once again confirmed that, the pedagogical process in schools should meet the needs of the student's formation as a whole personality, should meet the educational expectations of the society and the goals and tasks set by the state should be fulfilled at the appropriate level. The newly approved concept of education is significantly different in the educational policy of 20-30 years ago. When we compare the education of Azerbaijan with the education of other countries in terms of education, we can see that it is not inferior to the education of any country. When we make an assessment in Azerbaijani schools, we see that this process is diagnostic character and is carried out continuously. The science of pedagogy and psychology has also substantiated that intelligence is commented in different meanings and developed in different ways. The training process is established on the types of intelligence that differ from each other.

Curriculum reform reflecting these processes in Azerbaijan in modern times sets new goals for schools and teachers. It should be noted that my long-term research shows that the attitude of teachers towards new approaches is not static. Research conducted in order to study the initial situation of the implementation of new curricula showed that among the teachers who participated in the survey, there are those who support educational reforms and content reform, which means that teachers positively evaluate the role of new subject curricula in the development of students in different schools of our country (Mehrabov, Baylarov, 2006).

The new curriculum requires a high intellectual level of students and develops logical skills and this makes them achieve even more success. In classes conducted with the new curriculum, students both freely express their opinion and learn to apply the material they have mastered. This leads to further consolidation of knowledge in them and their success. Along with these, teachers connect students' academic skills with social skills. Active participation and free expression of ideas are emphasized as an equally important issue in analysis and application classes. From my classroom research, I have come to the conclusion that the level of support provided by teachers at the initial stage of the curriculum reform was support and appreciation arising from their confidence in their level of professionalism and long-term experience.

At present, new concepts of professionalism of teachers are being developed in the region of countries called “potentialists”, Central-Eastern Europe and the Balkan countries, and perfect reforms are being built on these concepts for the initial training and post-diploma professional development systems of teachers. As the most important starting component for this strategic direction, various "National Teacher Standards" or "Teacher Competency Framework" type documents are being prepared. Thus, it prepares competent personnel for the teaching profession and professional development. It is impossible not to mention here the need to change the approaches to teacher training and professional improvement of teachers in our country. In order to realize all this, the first step should be to study the problems encountered by teachers, analyze their needs and it should consist of determining the reasons why these needs arise. The more high-level and knowledgeable teachers we have, the more educated and intellectual students we will have, and the success will increase day by day (Educational strategies center of the institute of education, 2015).

In general, researches conducted in all fields have confirmed that there is a positive correlation between the general intelligence level of students and training success. Sometimes the low

correlation indicator does not allow researchers to unequivocally say that general intelligence conditions the success of training. An analysis of the research results carried out shows that the relationship between the general level of intelligence and the success of training is expressed not by linear dependence, but by dependence of more complex forms. Although the correlation between the intelligence levels of students with high general intelligence and training success indicators is positive, but not dynamic enough.

Researchers L.F.Burlachuk (1993) and V.M.Blair (1976) in confirming the dependence of students' training success on the level of general intelligence by the Veksler test, found that while among students with low training success there were students with different intellectual levels, among students with high training success there was not a single student with an intellectual level below the average (State strategy for the development of education in the Republic of Azerbaijan, 2015).

According to the current theory of intellectual limit, there is such an intellectual limit that only students with an indicator above this limit are able to achieve successful results in education. Sometimes the fact that these indicators are much higher than that limit does not determine the proportional height of training success. After the important intellectual level, existing assessment systems, teachers' demands, students' motivation, stimulation factor in training, strength of will of the learner, the range of interests are factors that influence success (Davydov, 1986).

Summarizing the research results, it can be concluded that, low learning motivations, the content being uninteresting for students, the presence of individual or family-related problems, and the teacher's teaching and behavior style not being suitable for some students lead to low training success of students with a high intellectual level.

Based on the results obtained from the research, it can be concluded that, systematic work of the "Teacher-student-family" union in the school, approaching students individually and revealing their knowledge, skills and habits, determining students' abilities and skills and guiding them in that direction, constant supervision of intellectual level students, ways such as giving different free topics to develop students' search ability help to form and develop students properly.

## References

1. State Strategy for the development of education in the Republic of Azerbaijan, 2013.
2. State Strategy for the development of education in the Republic of Azerbaijan, 2014.
3. Zakharova, I. (2003). Informatsionniye tekhnologii v obrazovanii. M.: “Akademiya”.
4. State Strategy for the development of education in the Republic of Azerbaijan, 2017.
5. State Strategy for the development of education in the Republic of Azerbaijan, 2015.
6. Bayramov, A. (2008) Development and upbringing of independent thinking in students. Baku: "Maarif".
7. Alizadeh, A. (1998). The development and upbringing of imagination in students. Baku: Ozan.
8. Baylarov, E. (2006). Identification and development of talent in children. Baku: Education.
9. "Voice of Araz" newspaper, "East Gate" newspaper.
10. Mehrabov, A., Baylarov, E. (2006). Development of student intelligence. Baku.
11. State Strategy for the development of Education. 2015.
12. Davydov, V. (1986). Problemy razvivayushchego obucheniya: Opyt teoreticheskogo i eksperimentalnogo issledovaniya. M.: “Pedagogika”.

Received: 20.03.2023 Accepted: 06.05.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/21-27

**Elmar Allahverdi**
Azərbaycan Dövlət İqtisad Universiteti
doktorant
elmarallahverdi@gmail.com

# AZƏRBAYCAN VƏ KEÇMİŞ SOVET RESPUBLİKALARININ İCBARİ TİBBİ SIĞORTAYA KEÇİD PROBLEMLƏRİ

**Xülasə**

Sosial sığorta sisteminin təşkili, xüsusən də tibbi sığorta fondlarının fəaliyyəti iqtisadçı alimlərin daim diqqət mərkəzindədir. Müasir dövrdə cəmiyyətin inkişafı həyatın bütün sahələrində, o cümlədən tibbi sığorta sistemində iqtisadi, təşkilati və funksional dəyişikliklərlə xarakterizə olunur. Tibbi xidmətlər üçün sivil bazarın formalaşdırılması, onun resurslarından səmərəli istifadə hər bir insanın mənafeyinə toxunmaqla yanaşı, həm də müəyyən dərəcədə xalqın sağlamlığının, əhalinin həyat səviyyəsinin və keyfiyyətinin göstəricilərini əvvəlcədən müəyyən edir. Əhalinin sağlamlığı ölkənin sosial, mədəni və iqtisadi inkişafının ən mühüm elementidir. Səhiyyənin modernləşdirilməsinin əsas məqsədi geniş əhali üçün tibbi xidmətin mövcudluğu və keyfiyyətinin yaxşılaşdırılmasıdır. İcbari tibbi sığorta sistemi bu gün bu problemin həllində əsas rol oynayır. Respublikada tətbiqinə başlanan yeni tibbi model də post-sovet ölkələrinə miras qalmış “Semaşko” modelindən keçidlə baş tutmaqdadır. Bu keçidlə yaşanan çətinliklər və digər keçmiş sovet respublikaları ilə müqayisəli təhlilinə əsaslanan araşdırma ilə məntiqi analogiyaları görmək mümkündür.

***Açar sözlər:*** *tibbi sığorta sistemləri, icbari tibbi sığorta, Semaşko modeli, milli səhiyyə sistemi, səhiyyə modelləri*

**Elmar Allahverdi**
Azerbaijan State University of Economics
Ph.D student
elmarallahverdi@gmail.com

## Problems of the transition to compulsory health insurance in Azerbaijan and the former Soviet Republics

**Abstract**

The organization of the social insurance system, especially the activity of health insurance funds, is always in the focus of economic scientists. In modern times, the development of society is characterized by economic, organizational and functional changes in all areas of life, including the health insurance system. The formation of a civilized market for medical services, the efficient use of its resources not only affects the interests of every person, but also to a certain extent predetermines the indicators of the health of the people, the level of life and quality of the population. The health of the population is the most important element of the country's social, cultural and economic development. The main goal of healthcare modernization is to improve the availability and quality of medical care for the general population. Compulsory health insurance system plays a key role in solving this problem today. The new medical model, which has been introduced in the republic, is also taking place with the transition from the "Semashko" model inherited from the post-Soviet countries. It is possible to see logical analogies with the study based on the difficulties experienced with this transition and the comparative analysis with other former Soviet republics.

***Keywords:*** *health insurance systems, compulsory health insurance, Semashko model, national health care system, healthcare models*

## Giriş

İcbari tibbi sığorta hadisə baş verdikdə, müəyyən edilmiş çərçivə daxilində sığorta olunanın həyata keçirdiyi hüquqi, iqtisadi və təşkilati tədbirlərin vahid sistemi olan məcburi sosial sığorta növüdür. İcbari tibbi sığorta, ilk növbədə, insanların sağlamlığını qoruyan və sağlamlıq riskləri ilə qarşılaşdıqda çəkilən xərcləri maliyyələşdirən sığortadır. İcbari tibbi sığorta rezidentlərin xəstəlik, xəsarət, hamiləlik, doğuş, əlillik, qocalıq zamanı sosial müdafiə modelidir. İcbari sosial tibbi sığorta paketinə dövlət zəmanəti ilə göstərilən tibbi xidmətlərlə yanaşı, klinikadakı xidmətlər, həkimlərin qəbulu, müxtəlif müayinələr, reseptlə yazılan dərmanlarla təminat, xəstəxanada müalicə haqqının ödənilməsi kimi tibbi xidmətlər də daxildir. İcbari sosial tibbi sığortanın tətbiqinin əsas üstünlüyü rəqabət nəticəsində tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. İcbari sosial tibbi sığorta fondu müqavilə bağladığı xəstəxana ilə bağlı əksər xərcləri əhatə edir.

1883-cü ildə dövrün Almaniya kansleri Otto Bismark xəstəlik dövründə insanların gəlirlərini sabitləşdirmək və ölüm halında dəfn xərclərini ödəmək üçün işləyən əhalinin sosial sığortasını təklif etdi. Bismarkın təklif etdiyi sxem Almaniyanın əmək qabiliyyətli əhalisinin 75 %-ni əhatə edirdi. Belə ki, sığorta haqqının 2/3 hissəsini işəgötürənin, 1/3 hissəsini isə işçinin ödəməsinə əsaslanırdı (Lagomarsino, Garabrant, Adyas, Muga, Otoo, 2012: 933-943). Birinci Dünya müharibəsinin başlanmasına qədər Avropanın on ölkəsi bu modeli tətbiq etmişdi ki, bunu icbari tibbi sığortanın ilk təcrübəsi adlandırmaq olar. İcbari tibbi sığorta üzrə maliyyə alətlərinin formalaşdırılması, tibbi xidmətlərin göstərilməsi, tibbi sığortanın baza zərfinin hazırlanması, müvafiq tariflərin müəyyən edilməsi və məlumatlandırma işinin düzgün qurulması üzrə məsləhətləşmələrin keçirilməsi nəzərdə tutulur.

**Xarici ölkələrdə tibbi sığorta sistemləri.** Təşkilati və maliyyə xüsusiyyətləri baxımından səhiyyənin təşkilinin aşağıdakı formalarını ayırd etmək olar: sığorta (Bismark), milli (Beveric), dövlət (sosialist) və özəl. Bismark və Beveric səhiyyə sistemləri üçün ümumi olan cəhət ondan ibarətdir ki, həm icbari tibbi sığorta çərçivəsində, həm də dövlət sistemində ödənişlərin (vergilərin) məbləği ilə göstərilən tibbi xidmətin səviyyəsi arasında əlaqə yoxdur. Bismark və Beveric səhiyyə sistemlərində hər kəs pul ödəməlidir və hər kəsin səhiyyə xidmətinə bərabər çıxışı olmalıdır. Sosialist səhiyyəsinin prinsipləri əsasən Beveric sistemləri ilə üst-üstə düşür, lakin onlardan fərqli olaraq sosialist səhiyyəsi səhiyyənin təşkilində dövlətin hərtərəfli rolu, əsasən dövlətin maliyyələşdirilməsi ilə xarakterizə olunur.

Bismark səhiyyə sistemi bu gün Avstriya, Belçika, Almaniya, Hollandiya, Fransa, İsveçrə, Yaponiya kimi ölkələrdə qorunub saxlanılır (Grishin, Aldarov, Petukhova and others, 1996: 13-17). Bunlar dövlət səhiyyə fondlarının əsasən dövlətin minimal maliyyə iştirakı ilə işçilərin və sahibkarların töhfələri hesabına formalaşdığı ölkələrdir. Lakin bütün bu ölkələrdə vəsaitlər dövlət tərəfindən idarə olunur və dövlət maliyyəsinin bir hissəsidir.

Belə düşünmək olar ki, Almaniya və Yaponiyada səhiyyənin təşkili təcrübəsi ən cəlbedicidir. Almaniyada sosial bazar iqtisadiyyatı sistemi mövcuddur. Səhiyyə əsasən öz-özünə idarə olunan tibbi sığorta və tibbi xidmətin çatdırılması sistemidir. Hökumət tibbi xidmətlərin qiymətinin həddən artıq sürətlə artmasının qarşısını alaraq, tibb işçilərini və ödəyicilərini daim nəzarətdə saxlayır. Səhiyyə xidmətlərinin göstərilməsi sistemi, müxtəlif kommersiya səhiyyə təminatçılarını bir araya gətirən dövlət və özəl xəstəxanaların konqlomeratı olan özəl idarə olunan çoxödəyici sistemlə açıq şəkildə tənzimlənir. Tibbi sığorta təminatı ölkə əhalisinin 90 %-dən çoxunu təşkil edir və qanuni tibbi sığorta sistemi vasitəsilə həyata keçirilir. Bu ölkədə tibbi sığorta 1883-cü ildən sosial sığortanın elementi kimi bədbəxt hadisələrdən sığorta mövcuddur. Tibbi sığorta fondlarının fəaliyyətinə əyalət və dövlət səviyyədə müvafiq qurumlar rəhbərlik edir. Tibbi Sığorta Fondu tibbi xidmətlərin keyfiyyətinə nəzarət edir və göstərilən xidmətlərə görə ödənişləri təşkil edir.

Almaniyada tibbi xidmətlər üçün kifayət qədər düşünülmüş qiymətlər sistemi mövcuddur. 2007-ci ildə Almaniyada səhiyyə islahatı aparıldı və ölkədə sığortasız yaşamağı qadağan edən icbari tibbi sığorta haqqında qanun qəbul edildi. Məsələ burasındadır ki, o vaxt ölkədə 400 minə yaxın insan var idi ki, onlar iqtisadi səbəblərdən ümumiyyətlə sığortalanmayıblar. 2011-ci ildə Federal Statistika Departamenti tibbi sığorta müqaviləsi olmayan cəmi 137 min insanı qeydə alıb ki, bu da

onların zəruri hallarda tibbi yardım almaq imkanından məhrum olması deməkdir. Almaniyada iki növ tibbi sığorta fondu var: dövlət və özəl. Az maaş alanlar dövlət fondunda sığorta müqaviləsi tərtib etməlidirlər. Gəlirləri 54900 avrodan artıq olanların seçim hüququ var və istədikləri təqdirdə istər dövlət, istərsə də özəl fondun üzvü ola bilərlər.

Asiya ölkələri arasında tibbi sığortanın təşkili baxımından Yaponiyanın təcrübəsi ən maraqlıdır. Bu ölkə qısa müddət ərzində əhalinin sağlamlığının ən yüksək göstəricilərinə nail ola bilmişdi. Unutmaq olmaz ki, sağlamlığın yüksək səviyyəsini şərtləndirən amillər şərait və həyat tərzi ilə bağlıdır. Yaponiyada tibbi sığorta sistemi 1927-ci ildə tibbi sığorta qanunu qəbul edildikdən sonra formalaşmağa başladı. Bundan əlavə, ölkə Asiyada 1961-ci ildə tibbi sığortanın milli miqyasda tətbiq olunduğu ilk dövlətdir. Hazırda Yaponiyada səhiyyə əsasən tibbi sığorta fondları hesabına maliyyələşdirilir. Yaponiya əhalisinin böyük əksəriyyəti iki əsas tibbi sığorta sisteminə aiddir; ərazi prinsipi əsasında qurulmuş milli tibbi sığorta sistemi və istehsal prinsipi əsasında qurulmuş işçilər üçün sığorta sistemi (Egorov, 2007: 44).

Milli Sığorta İnstitutu İsrailin bütün sakinlərindən sığorta haqları toplayır, məbləği onların gəlirindən və statusundan asılıdır, məhz bu gösəricilərə uyğun olaraq müavinətlər ödənilir. Bu yolla insanların imkanlı təbəqədən olan gəlirləri kasıb və daha həssas təbəqədən olanlara ötürülür. Milli Sığorta İnstitutu milli gəlirin daha ədalətli bölüşdürülməsinə və yoxsulluq səviyyəsinin aşağı düşməsinə öz töhfəsini verir. 1995-ci il yanvarın 1-dən Milli Sığorta İnstitutu Milli Tibbi Sığorta Qanununa uyğun olaraq tibbi sığorta haqlarının ödənilməsinə də cavabdehdir. Milli Sığorta İnstitutu aldığı sığorta haqlarını tibbi sığorta şirkətlərinə köçürür. Bütün İsrail sakinləri 18 yaşından qanunla Milli Sığorta İnstitutunda sığorta olunmalı, dövlət sığortası və tibbi sığorta üzrə sığorta haqqı ödəməlidir (yalnız ev təsərrüfatında işləyən evli qadınlar və repatriasiya olunmuş şəxslər istisna olmaqla). Milli Sığorta İnstitutu sığorta haqqını qanunla müəyyən edilmiş müddətdə ödəməyən şəxslərə qarşı cərimə şəklində sanksiyalar tətbiq edir. Borc istehlak qiymətləri indeksinə istinadən yığılır.

**Sovet hakimiyyəti illərində icbari tibbi sığorta.** Sovet hakimiyyətinin ilk illərində pulsuz ictimai xidmətlər sistemini tətbiq etməyə və bütün kommersiya fəaliyyətini qadağan etməyə cəhd edildi. Bu şəraitdə kommersiya sığortası institutu fəaliyyətini dayandırdı. 28 noyabr 1918-ci ildə fərmanla ölkədə fəaliyyət göstərən bütün sığorta şirkətləri, 18 noyabr 1919-cu ildə isə həyat sığortası müqavilələri ləğv edildi.

1925-ci ildə dövlət sığorta əməliyyatları ümumittifaq qanunvericiliyi, onun işlənib hazırlanmasında dərc edilmiş ittifaq respublikalarının qanunları, habelə sığortanın ümumi qaydaları və tarifləri əsasında həyata keçirilirdi. SSRİ Dövlət Sığortası ilə yanaşı, kooperativ təşkilatlarının sığorta ilə məşğul olmaq hüququ var idi, onlara Dövlət Sığorta Baş İdarəsinin nəzarəti və rəhbərliyi altında icbari dövlət sığortası əvəzinə öz əmlaklarının qarşılıqlı sığortasını təşkil etməyə icazə verildi.

1930-cu illərin ortalarına qədər dövlət əmlakının sığortalanmasına yenidən baxmaq zərurəti yaranmışdı. Onun ləğvi sığorta hadisələrindən zərər çəkmiş müəssisələrin bərpa tempində də özünü göstərib. 1934-cü ildə Dövlət Sığortası şəxsi sığorta sisteminə keçdi. 1936-cı il dekabrın 5-də SSRİ Konstitusiyası dövlət sığortasını SSRİ dövlət hakimiyyətinin ali orqanlarının məsuliyyət dairəsinə həvalə etdi.

Müharibə şəraitində mövcud mənzil fondunun qorunması xüsusi əhəmiyyət kəsb edirdi. Dövlət mənzil fondunun sığortalanması öhdəliyi yanğınlar və digər təbii fəlakətlərdən sonra binaların vaxtında bərpasına kömək etdi. 1941-1945-ci illər üçün Dövlət Sığortası təbii fəlakətlər nəticəsində dağılmış əmlakın bərpası üçün təxminən 600 milyon rubl, o cümlədən kolxozlara 430 milyon rubl ödəmişdir (Galaguz, 2021: 6).

1942-ci ilin dekabrında kollektiv həyat sığortası ləğv edildikdən sonra ölüm, əlillik və xəstəlik halları üçün fərdi sığorta təbiq edilməyə başladı. Bu məqsədlə Dövlət Sığortasının nəzarəti ilə qarışıq sığorta, pensiyaların əlavə ödənilməsi ilə qarışıq sığorta, sadələşdirilmiş qarışıq sığorta, hər hansı səbəbdən ölüm və bədbəxt hadisə nəticəsində əlillik halında sığorta, qəza sığortası növləri tətbiq edildi. Müharibə illərində fərdi həyat sığortasından geniş istifadə olunmurdu. Bəzi

regionlarda uzunmüddətli həyat sığortası vaxtından əvvəl dayandırıldı. Müharibədən sonrakı illərdə fərdi sığorta əməliyyatlarında xeyli artım olmuşdur.

1948-ci il dekabrın 28-də SSRİ Nazirlər Soveti SSRİ Dövlət Sığorta Baş İdarəsi və onun orqanları haqqında Əsasnaməni təsdiq etdi. Bu Əsasnamə SSRİ Dövlət Sığortasının vəzifə və əməliyyatlarını, habelə hüquqlarını, vəsaitlərin formalaşması və xərclənməsi qaydasını, Dövlət Sığortasının təşkilati strukturunu, əmanətlərin bölüşdürülməsi qaydalarını müəyyən edirdi. 1950-ci illərdə Sov.İKP-nin 20-ci qurultayının qərarları əsasında partiya və hökumət iqtisadiyyatın idarə edilməsində mərkəzləşdirməni azaltmaq, iqtisadi-mədəni inkişafda ittifaq respublikalarının əhəmiyyətini artırmaq üçün bir sıra irimiqyaslı tədbirlər həyata keçirdilər. İttifaq respublikalarının rolunun artırılması və hüquqlarının genişləndirilməsi tədbirlərindən biri də sığorta işinin yenidən təşkili idi. SSRİ Nazirlər Sovetinin 17 aprel 1958-ci ildə SSRİ Dövlət Sığorta Baş İdarəsi ləğv edildi, əvəzində isə SSRİ Maliyyə Nazirliyinin Mərkəzi Aparatının tərkibində dövlət sığorta idarəsi tərəfindən təşkil edilmişdir. İttifaq respublikalarında dövlət sığortasının öz idarələri (baş idarələri) yaradıldı. Bu cür transformasiyalar bütün respublikalarda sığorta birliyinin qorunub saxlanması zərurətini artırdı.

1956-cı il yanvarın 1-dən dövlət mənzil fondunun icbari sığortası, habelə regional idarələrin tabeliyində olan dövlət müəssisələrinin və təşkilatların əmlakının könüllü sığortası üzrə müqavilələrin bağlanmasına xitam verildi. Bu sığorta növlərinin ləğvi sığorta orqanlarına kolxozlara və əhaliyə göstərilən sığorta xidmətlərinin səviyyəsini yüksəltməyə imkan verdi. Təbii fəlakətlər nəticəsində dövlət idarə və müəssisələrinə dəymiş zərərin ödənilməsi üçün dövlət büdcəsinin tərkib hissəsi kimi formalaşmış mərkəzləşdirilmiş pul ehtiyatlarından, habelə maddi və ərzaq ehtiyatlarından istifadə edilmişdir. 1968-ci il yanvarın 1-dən həyata keçirilməyə başlanan uşaq sığortası da daxil olmaqla, fərdi sığortanın yeni növləri tətbiq edildi. Uşaqların sığortası valideynlərə və digər qohumlara 18 yaşları üçün müəyyən əmanət toplamağa imkan verdi. 1974-cü ildə bu sığorta növü üzrə 6 milyon müqavilə bağlanmışdır.

1971-1976-cı illər üçün kinoteatrda, radio və televiziyada könüllü sığorta növlərinin populyarlaşdırılması üçün mühazirə, məruzə və söhbətlərlə reklamlara start verildi. 1972-ci ildən bədbəxt hadisələrdən sığorta üzrə məsuliyyət genişləndirildi, qarışıq sığorta müqavilələrinin icrası sadələşdirildi: hər hansı bir tibbi müayinədən keçmədən müqavilələrin bağlanılmasına qərar verildi, əlillik halında ikiqat sığorta məbləği ilə qarışıq sığorta da tətbiq edildi. 1 yanvar 1977-ci ildə SSRİ Dövlət Sığortası nikah üçün sığorta tətbiq etdi. Yeni növ qarışıq həyat sığortası və uşaq sığortasının xüsusiyyətlərini özündə birləşdirdi. 1981-ci ildə SSRİ-də şəxsi sığortanın doqquz növü mövcud idi. Şəxsi sığorta iki sahəni əhatə edirdi: həyat sığortası və qəza sığortası. Həyat sığortasının növləri qarışıq həyat sığortası, uşaq sığortası, evlənmək, əlillik və pensiya sığortasından ibarət idi. Qəza sığortasına isə fərdi qəza sığortası, işçilərin təşkilatlar hesabına sığortalanması, sərnişin sığortası (yalnız məcburi sığorta növü kimi) daxildir.

1981-ci ilə qədər iqtisadiyyatın müxtəlif sahələrində həyat sığortası ilə sığortalanmış işçilərin xüsusi çəkisi 52 %-i ötmüşdüsə, 1970-ci ildə bu rəqəm 17 %-dən bir qədər aşağı olmuşdur. 1981-ci ildə ödənişlərin həcmi 5 milyard rubl təşkil edirdisə, on il əvvəl bu, 1 milyard rubldan az idi. Ödənişlərin 75 %-dən çoxu müqavilə müddətinin başa çatması, yəni sığortalının həmin ana qədər sağ qalması ilə bağlı olub.

**Semaşko modelinin müsbət və mənfi tərəfləri.** SSRİ-də qəbul edilmiş “Semaşko 1” səhiyyəsinin maliyyələşdirilməsi modeli rayon, şəhər və bölgə tibb müəssisələrinin geniş sistemi əsasında bütün əhalini profilaktik və tibbi yardımla təmin etmək məqsədi daşıyırdı. Tibbi yardımın maliyyələşdirilməsi tamamilə büdcə vəsaiti hesabına həyata keçirilirdi.

Semaşko sistemi milli səhiyyə sisteminin modelidir, bu model çərçivəsində tibbi xidmət Səhiyyə Nazirliyində birləşdirililmiş, dövlət büdcəsindən maliyyələşən dövlət qurumlarının iyerarxik sistemi tərəfindən təmin edilir. Ölkə vətəndaşlarına tibbi xidmətlərin göstərilməsinin universal, bərabər və pulsuz olması nəzərdə tutulur, sosial gigiyena və xəstəliklərin qarşısının alınması üzrə işlərə xüsusi yer ayrılır (Mark, Field, 1990: 144-145). Sistem ilk dəfə Sovet İttifaqında N.A.Semaşkonun rəhbərliyi altında hazırlanaraq, tətbiq edilib və onun adını daşıyır.

Semaşko sisteminin müxtəlif versiyaları bütün dünyada, əsasən sosialist bloku ölkələrində istifadə olunurdu. Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Həftə içi"nə verdiyi müsahibədə qeyd edib ki, "Uzun illər Azərbaycan səhiyyəsi "Semaşko" modeli deyilən sovet səhiyyə sisteminin bir tərkib hissəsi kimi fəaliyyət göstərib" (Quliyev, 2022). Semaşko sisteminin qurulması təcrübəsi diqqətlə öyrənildikdən sonra müvafiq sistem əssında Beveric sistemi hazırlanmışdır. "Hazırda Beveric sistemi Böyük Britaniya, Finlandiya, Portuqaliya, Avstraliya, İspaniya, Sinqapur, İtaliya, İsveç, Yeni Zelandiya, Honq-Konq, Norveç, İrlandiya, Danimarkada istifadə olunur" (Glushanko et al., 2019: 97).

Dünyanın bir çox inkişaf etmiş ölkələri SSRİ-də yaradılmış Semaşko sistemi əsasında meydana çıxan Beveric sisteminin təcrübəsinə əsaslanaraq öz büdcə səhiyyə sistemlərini yaratmışlar. Semaşko sistemi vahid ümummilli tibbi dəstək sisteminin yaradılmasının ilk təcrübəsi oldu və onun tikintisi çərçivəsində dünyada ilk Səhiyyə Nazirliyi yaradıldı. Dünya sosialist sisteminin və SSRİ-nin dağılmasından sonra yeni dövlətlərin milli səhiyyə modellərində mərkəzləşmənin azaldılması və pullu xidmətlərin payının artırılması istiqamətində islahatlar aparıldı.

Semaşkonun yanaşmalarına əsaslanan səhiyyə sistemi 1991-ci ildə tibbi xidmətlərin maliyyələşdirilməsində dövlətin iştirakını məhdudlaşdıran "Rusiya Sovet Federativ Sosialist Respublikası vətəndaşlarının tibbi sığortası haqqında" qanunda dəyişiklik edilməyə başlanıldı. 1993-cü ildə Rusiya Federasiyasının Ali Şurası icbari tibbi sığorta fondlarının (OMİ) yaradılmasını təmin etmək üçün bu qanuna dəyişiklik etdi. Həmin andan etibarən səhiyyə sisteminin maliyyələşdirilməsi iki kanalla - İcbari Tibbi Sığorta Fondu (İSF) və dövlət büdcəsi hesabına həyata keçirilirdi.

**Keçmiş sovet respublikalarında icbari tibbi sığorta.** Semaşko modeli səhiyyənin hər kəs üçün pulsuz olduğu bir ödənişli səhiyyə sistemidir. Milli səhiyyənin əhalinin xüsusi vergiyə cəlb edilməsi hesabına maliyyələşdirildiyi Beveric modelindən fərqli olaraq, Semaşko modelində səhiyyə milli büdcədən maliyyələşdirilir. Model Sovet Xalq Səhiyyə Komissarı Nikolay Semaşkonun adını daşıyır. Model əsasən Rusiyada və digər postsovet ölkələrində (Sheiman, Shishkin, Shevsky, 2018: 209) davam etdirilir və ən nüfuzlu modellərdən biri kimi qəbul edilir. Semaşko modelində tibbi xidmətlər Səhiyyə Nazirliyinin nəzarəti altında olan dövlət qurumlarının iyerarxiyası tərəfindən həyata keçirilir və dövlət büdcəsindən maliyyələşdirilir. Ölkə vətəndaşları üçün tibbi xidmətlər pulsuz və bərabərdir, sosial gigiyena və yoluxucu xəstəliklərin qarşısının alınmasına diqqət yetirilir (Manayev, 2021). Model dövlətə məxsus tibb müəssisələrini, maaşlı tibb işçilərini, ilkin tibbi yardımın böyük təminatçılarını və universal səhiyyəni təmin edən müstəsna dərəcədə yüksək dövlət idarəçiliyini özündə əks etdirir (Sheiman, Shishkin, Shevsky, 2018: 209). Semaşko modelində özəl tibbi xidmətə icazə verilmir, çünki buradakı bütün həkimlər dövlət işçiləridir. Sovet İttifaqında bu modelə əsasən ölkənin bütün ərazisi rayonlara bölünmüş, onların hər birinə ambulator xəstəxanalar və yerli həkimlər ayrılmışdı. Bu həkimlər ən çox yayılmış xəstəlikləri müalicə edə bilirdilər, daha mürəkkəb hallarda isə regional xəstəxanalara göndərilirdi (Manayev, 2021).

Qazaxıstan Respublikasının ərazisində daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə qohumları, qanunla başqa hal nəzərdə tutulmayıbsa, icbari sosial tibbi sığorta sistemində vətəndaşlarla bərabər hüquqlardan istifadə edir və vəzifələri yerinə yetirirlər. Qazaxıstan Respublikasında icbari sosial tibbi sığorta sisteminin maliyyələşmə mənbələri sığorta üçün alınan köçürmələr, töhfələr, cərimələr və investisiya gəlirləri və qanunvericiliklə qadağan olunmayan digər gəlirlərdir. 2023-cü ildən başlayaraq Özbəkistanın iki regionunda tibbi sığortanın tətbiq ediləcək. Daşkənddə Dövlət Tibbi Sığorta Sisteminin tətbiqi üçün bütün imkanlar var. Həmçinin, Nəvai rayonunda tibbi sığorta fəaliyyətə başlayacaq. Bunun üçün bir ay müddətində tibbi sığorta sisteminin tətbiqi ilə bağlı qərar hazırlanacaq, Daşkənddə 72 klinikanın və 40 xəstəxananın kompüter avadanlığı və zəruri tibbi ləvazimatla təmin edilməsi üçün 30 milyard som (təxminən 4456150 Azərbaycan manat) ayrılacaq, 2023-cü il iyulun 1-dən Astanada tibbi sığorta sisteminin mexanizmləri tətbiq ediləcək (Andreas, 2022: 35-46).

Rusiyada icbari tibbi sığorta sistemi aşağıdakı kimi işləyir: yetkin vətəndaşlar (yetkinlik yaşına çatmayan uşaqların valideynləri və ya qanuni nümayəndələri kimi çıxış edənlər də daxil olmaqla) tibbi sığorta təşkilatlarından birinə müraciət edirlər. İcbari tibbi sığortanın əsas proqramı Rusiya Federasiyası Hökuməti tərəfindən təsdiq edilmiş vətəndaşlara pulsuz tibbi xidmət göstərilməsinin dövlət zəmanətləri proqramının tərkib hissəsidir. İcbari tibbi sığorta çərçivəsində poliklinikada və ya digər tibb müəssisəsində alınan bütün xidmətlər uçota alınır. İcbari tibbi sığorta fondlarına ayırmaların ümumi dərəcəsi əmək haqqının 5,1%-ni təşkil edir. MHI sistemi vasitəsilə pulsuz tibbi xidmətlə yanaşı, Rusiyada sığorta şirkətləri vasitəsilə də ödənilə bilən pullu dərman sistemi mövcuddur. İcbari tibbi sığortaya ehtiyacdan azad edilmiş şəxslər istisna olmaqla, Belarus Respublikasında müvəqqəti olan və ya müvəqqəti yaşayan xarici vətəndaşlardan icbari tibbi sığorta müqaviləsi və ya xarici dövlətlə bağlanmış tibbi sığorta müqaviləsi olmalıdır. İcbari tibbi sığortaya cəlb edilən əcnəbi Belarusiya sığorta təşkilatı ilə bağlanmış icbari tibbi sığorta müqaviləsi və ya tibbi sığorta müqaviləsi olmadıqda, Belarus Respublikasına giriş üçün viza verilməsindən imtina edilə bilər. Belarus Respublikası ərazisində qüvvədə olan xarici sığorta təşkilatı ilə bağlanmışdır.

İcbari tibbi sığortanın ölkəmizdə tətbiqini səhiyyəmizin inkişafı sahəsində atılan mühüm addım kimi dəyərləndirmək olar. "Azərbaycanda icbari tibbi sığortanın tətbiqi üzrə pilot rayonlar olaraq əvvəlcə Mingəçevir şəhəri və Yevlax rayonları seçilmişdir. Sonradan pilot rayonların sırasına Ağdaş da əlavə edilmişdir" (İcbari tibbi sığorta, 2020: 33). 24 noyabr 2016-cı ildə Azərbaycanda yaradılan "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" müvafiq məsələləri həll edilməsi sahəsində böyük nailiyyyətlər əldə etmişdir. "Azərbaycanda tətbiq edilən icbari tibbi sığorta sisteminə daxil edilən xidmətlərin siyahısının genişləndirilməsi, icbari sığorta haqları dərəcələrinin dəyişdirilməsi və hüquqi tənzimləmə mexanizminin təkmilləşdirilməsi sistemin effektiv işləməsi üçün zəruri şərtdir" (Mahmudov, 2021: 18).

## Nəticə

Müasir dövrdə icbari tibbi sığortanın həyata keçirilməsi ilə bağlı yaranan münasibətlər, o cümlədən icbari tibbi sığortanın subyektlərinin və icbari tibbi sığorta iştirakçılarının sosial vəziyyəti, onların hüquq və vəzifələrinin yaranmasının əsasları, onların həyata keçirilməsinə təminatları, qarşılıqlı münasibətləri qanun çərçivəsində tənzimlənir. Müasir tibbi sığorta sisteminin əsas və əhəmiyyətli problemlərinə səhiyyənin kifayət qədər maliyyələşdirilməməsi, proqramın smeta dəyərinin maliyyə təminatının olmaması, pullu tibbi xidmətlərin keyfiyyətini yaxşılaşdırmadan artırılması və sığorta haqlarının ödəyiciləri arasında qeyri-mütənasiblik daxildir. Ümumiyyətlə, qeyd etmək olar ki, "tibbi sığortanın məqsədi vətəndaşların sığorta hadisəsi baş verdikdə, yığılmış vəsait hesabına tibbi yardım almasına zəmanət vermək və profilaktik tədbirlərin maliyyələşdirilməsidir" (Shakhov, 2002: 38).

İcbari tibbi sığorta proqramı üzrə tibbi xidmətin ödənilməsi üçün vahid tariflərin orijinal sistemi hazırlanması mühüm problemdir. İcbari tibbi sığorta sisteminin xərclərindən istifadənin mövcud təcrübəsinin retrospektiv təhlili səhiyyə xərclərinin istifadəsi ilə bağlı əsas çatışmazlıqları müəyyən etməyə imkan vermişdir.

İcbari tibbi sığortanın universallığı bütün vətəndaşlara icbari tibbi sığortanın dövlət proqramlarına uyğun olaraq tibbi xidmət almaq üçün bərabər təminatlı imkanların təmin edilməsindən ibarətdir. İcbari tibbi sığorta sisteminin yaxşı işləməsi dövlətin etibarlılığının göstəricisidir.

İcbari tibbi sığorta sistemi əhalinin sosial müdafiəsinin əsasını təşkil edir və bütün vətəndaşlara zəruri minimum tibbi xidmətlər almaq üçün eyni hüquqlar verir. Azərbaycanda icbari tibbi sığortanı tətbiq edərkən dünyanın digər inkişaf etmiş ölkələrinə nəzər yetirməkdən əlavə keçmiş sovet ölkələrinin keçid təcrübələrinə də baxmaq önəmlidir. O ölkələrdə baş verən addımlar, bu addımların üzləşdiyi çətinliklər detallı təhlil edilməlidir. Əhalinin uzun illərdir istifadə etdiyi köhnə modelin GZİT analizi edilməli və yeni tətbiqinə başlanmış icbari tibbi sığortaya həm vətəndaşların, həm də idarəetmənin uyğunlaşdırılmasında istifadə edilməlidir.

## Ədəbiyyat

1. Gina Lagomarsino MBA a, Alice Garabrant AB a, Atikah Adyas PhD b, Prof Richard Muga MD c, Nathaniel Otoo MA d. (2012). "Moving towards universal health coverage: health insurance reforms in nine developing countries in Africa and Asia". The Lancet, p.933-943.
2. Grishin, V., Aldarov, A., Petukhova, V. (1996). Fundamentals of compulsory medical insurance: Methodological guide for policyholders. Ed. Prof. I.V.Polyakova. M.: Federal Fund for CHI, p.13-17.
3. Egorov, V., Naberezhnaya, A. (2007). Health insurance systems in foreign countries. Cover. Science and Education, № 7, p.43-46.
4. Galaguza, N. (2021). Insurance that we have lost. SST, No. 2 April. https://consult-cct.ru/upload/files/auto-pdflink/4-11323-8768.pdf
5. Mark, G., Field. (1990). Noble Purpose, Grand Design, Flawed Execution, Mixed Results: Soviet Socialized Medicine after Seventy Years. American Journal of Public Health February, Vol. 80, № 2, p.144-145.
6. Quliyev, M. Uzun illər səhiyyəmiz "Semaşko" modeli ilə fəaliyyət göstərib. 10.02.2022 Müəllif: Tahirə Qafarlı. https://hafta.az/uzun-iller-sehiyyemiz-semasko-modeli-ile-fealiyyet-gosterib-musa-quliyev-316542-xeber.html
7. Glushanko, V. (2019). Global healthcare systems and drug provision of the population / Bulletin of Pharmacy. № 4 (86), p.96-109.
8. Sheiman, I., Shishkin, Sergey, Shevsky, V. (2018). "The evolving Semashko model of primary health care: the case of the Russian Federation". Risk Management and Healthcare Policy. 11 (11), p.209-220.
9. Manayev? G. (2021-2022). "What did the USSR actually get right?". Russia Beyond. Retrieved, 15 April 7 December.
10. Andreas, H. (2022). "The Emergence of the Socialist Healthcare Model After the First World War". International Impacts on Social Policy. Global Dynamics of Social Policy, 28 february, p.35-46.
11. İcbari tibbi sığorta. (2020). (Kitabça). Elmi redaktor: dos. Rəsmiyyə Abdullayeva. Bakı: “Avropa” nəşriyyatı, 46 s.
12. Mahmudov, S. (2021). Əhalinin sosial müdafiəsinin gücləndirilməsində tibbi siğorta sisteminin rolunun artırılması istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 28 s.
13. Shakhov, V. (2003). Insurance: a textbook for universities. M.: UNITI, 311 p.

Göndərildi: 01.03.2023 Qəbul edildi: 30.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/28-34

**Günel Hacalıyeva**
Azərbaycan Dillər Universiteti
doktorant
dr.gatibe@gmail.com

# ŞAH DÖNƏMİNDƏ İRAN-MİSİR MÜNASİBƏTLƏRİ

**Xülasə**

Məqalədə şah dönəmində İran-Misir münasibətlərindən bəhs olunmuşdur. İran və Misir arasında siyasi və diplomatik münasibətlər 1979-cu il İslam İnqilabının qələbəsindən sonra demək olar ki, kəsilmişdir. İki böyük Şərq ölkəsi arasında iqtisadi, ticari və mədəni əlaqələr məhdudlaşmışdır. Məqalədə Şah dönəmində İran-Misir münasibətləri İslam inqilabından sonrakı və müasir dönəmlə müqayisə edilmiş və ikitərəfli əlaqələrin davamlı və dayanıqlı olmaması onların bir-birinə münasibətinin emosional meyllərin üstünlük təşkil etdiyi millik kimlik aspektindən müəyyən olunması ilə izah edilmişdir. İran və Misir diplomatik əlaqələrinin dayanmasından təxminən 40 ildən çox zaman keçməsinə baxmayaraq, hələ də münasibətləri bərpa etməyiblər. Məqalə tarixi-müqayisə təhlil metodu əsasında yazılmışdır. Şah dönəminin fərqli mərhələlərində İran-Misir münasibətləri xarakterizə olunarkən müəyyən olunmuşdur ki, hər bir ölkənin tələbatlarının məcmusu sayılan və xarici siyasətin əsas motivə edici amili olan milli maraq iki ölkə arasında münasibətlərin inkişafında nəzərə alınmamışdır.

Məqalənin yazılmasında müxtəlif elmi mnbələrdən istifadə olunmuşdur.

***Açar sözlər:*** *İran, Misir, xarici siyasət, Şah Pəhləvi rejimi, Qərbin təsiri, C.Nasir, Ənvər Sədat, Kemp-Devid razılaşması, pan-ərəbizm, Şiə siyasi-məzhəb ideologiyası, İslam inqilabı*

**Gunel Hajaliyeva**
Azerbaijan University of Languages
Ph.D student
dr.gatibe@gmail.com

## Iran-Egypt relations during the rule of the shah

**Abstract**

In the article, Iran-Egypt relations during the Shah period were discussed. Political and diplomatic relations between Iran and Egypt were almost severed after the victory of the 1979 Islamic Revolution. Economic, commercial and cultural relations between the two big Eastern countries are limited. In the article, Iranian-Egyptian relations during the Shah period were compared with the post-Islamic revolution and the modern period, and the lack of continuity and stability of bilateral relations was explained by determining their relationship to each other from the aspect of national identity dominated by emotional tendencies. Although more than 40 years have passed since the end of diplomatic relations, Iran and Egypt have not yet restored relations. The article was written based on the method of historical-comparative analysis. When characterizing Iran-Egypt relations at different stages of the Shah's reign, it was determined that the national interest, which is the sum of the needs of each country and is the main motivating factor of foreign policy, was not taken into account in the development of relations between the two countries.

Various scientific sources were used in writing the article.

***Keywords:*** *Iran, Egypt, foreign policy, Shah Pahlavi regime, Western influence, J.Nasser, Anwar Sadat, Camp David agreement, pan-Arabism, Shia political-sectarian ideology, Islamic revolutio*

## Giriş

İran və Misir arasında siyasi və diplomatik münasibətlər 1979-cu il İslam İnqilabının qələbəsindən sonra kəsilmiş, ikitərəfli iqtisadi, ticari və mədəni əlaqələr kifayət qədər məhdud qalmışdır.

Bu, hər iki tərəfdən iranlı və misirli milli kimliyi ilə bağlı bəzi mənfi emosional cəhətlərin üstünlük təşkil etməsinin nəticəsidir ki, bu da onların bir-birinə münasibətinə kölgə salır. Pan-ərəbizmə qarşı kin İranın Misirlə əlaqələrini bərpa etməyə mane olur (1). İranın anti-Qərb siyasəti və milli kimliyinin aparıcı tərkibi olan şiə ideologiyasına əks olaraq Misirin Qərblə münasibətləri iki ölkə arasında münasibətləri sarsıdır. Münasibətlərin İran və Misirin qarşılıqlı ortaq maddi maraqlar üzərindən deyil, bu kimi mənfi emosional çalarlar üzərində formalaşması səmərəli münasibətlərin bərpa olunmasını ləngidən başlıca amil olaraq izah oluna bilər.

Misir və İran oxşar paralellərə sahib şərq ölkələridir. Strateji yerləşməsi, zəngin tarixi ənənələri və böyüklüyü ilə yanaşı, XX əsrin ikinci yarısında hər iki ölkə özünü regional lider kimi görür və regional təsir uğrunda yarışırdı. Misir və İran müntəzəm olaraq ideologiyanı xarici siyasətin əsas komponenti kimi dəstəkləyib və ondan [bir-birinin] rejimlərinin siyasi sabitliyini pozmaq üçün strateji, ritorik alət kimi istifadə ediblər. Məsələn, 1952-ci il çevrilişi Misirdə ümumərəb, anti-müstəmləkəçi Camal Əbdül Nasirin hakimiyyətə gəlməsindən sonra Misir rejimi İranın ABŞ və İsraillə əməkdaşlığına meydan oxudu və iki ölkə arasında "soyuq müharibə" alovlandı. 1970-ci illərdə münasibətlər xeyli istiləşdi və Misir prezidenti Ənvər Sədat Nasirin ideoloji irsinə əks olaraq, Qərbə açıldı və İsraillə sülhə cəhd etdikcə İran Misirlə güclü strateji ittifaq yaratdılar. Lakin bu səmimiyyət 1979-cu il İran İnqilabından sonra bir gecədə açıq düşmənçiliyə çevrildi. İran İnqilabı dövlətlərarası münasibətləri dəyişdirdiyi və regionda dövlət-cəmiyyət münasibətlərinə təzyiq göstərdiyi üçün müasir Yaxın Şərq tarixində ən mühüm hadisələrdən biri idi. İranın öz inqilabını ixrac etmək cəhdlərinin yaratdığı təhdidlərə cavab olaraq Misir ABŞ-la müttəfiqliyini gücləndirdi. O, 1980-ci ildə başlayan İran-İraq müharibəsi zamanı İraqı dəstəkləyərək və ərəb dünyasının əksəriyyəti ilə anlaşaraq Yaxın Şərqdəki xarici siyasətini kökündən dəyişdi. İran İnqilabı Misirin xarici siyasətinə əhəmiyyətli dərəcədə təsir etdi, beləki Misir ABŞ ilə müttəfiqliyini gücləndirdi, ərəb dünyasına yenidən inteqrasiya etdi və İran-İraq müharibəsi zamanı İraqı dəstəklədi.

***İran İnqilabından əvvəl münasibətlər.***

Pəhləvi sülaləsinin hakimiyyəti dövründə İran-Misir münasibətləri hər zaman sabit olmamış və əhəmiyyətli inkişaf tarixinə malik olmuşdur. Dəyişikliklər əsasən daxili və xarici məsələlərə münasibətdə cavab reaksiyasını təşkil edir. İki ölkə arasında münasibətlər ikitərəfli ortaq maraqlardan daha çox regionda gedən geosiyası proseslər, klient- donor münasibətləri çərçivəsində ABŞ və digər Qərb dövlətləri ilə əlaqələri, həmçinin, liderlərin şəxsi keyfiyyətləri, qavramları və hakim ideologiyalar  üzərində inkişaf etmiş və səciyyələnmişdir. Şah Pəhləvi dönəmində İran-Misir münasibətləri xaraktercə fərqli mərhələləri əhatə edir. Şərti olaraq Şah dönəmində İran- Misir münasibətlərini aşağıdakı kimi fərqləndirmək olar:

- 1939-1950-cı illər-Monarxiyalar dövrü, nigah diplomatiyası;
- 1951-1953-cü illər-Hər iki ölkənin müstəmləkçiliyə qarşı mübarizə dövrü;
- 1953-1970-ci illər-Fərqli rejimlər arasında gərgin və antoqonist dövr;
- 1970-1979-cu illər-Qərblə əməkdaşlığın iki dövlət üçün prioritet olduğu dövr (Pəhləvi ilə Sədat arasında səmimi, dost münasibətlərin ikitərəfli əlaqələrdə ən yüksək səviyyədə ifadə olunduğu onillik).

1979-cu il İranda İslam inqilabının baş verməsi Misir- İran münasibətlərinə yenidən baxılmasını tələb etdi. Beləki, islam inqilabından sonra Yaxın və Orta Şərqdə qüvvələr nisbətində güclü tərəf olmaq uğrunda mübarizə fars-ərəb düşmənçiliyinin artması, şiə siyasi-dini ideologiyasına qarşı ərəblərin həmrəyliyi, Körfəz regionunun İran və ərəb dövlətləri üçün əhəmiyyətinin artması ilə müşaiət olunurdu. İlk dövrlərdə hər iki dövlətin monarxiya quruluşlu olması onların müxtəlif sahələrdə əməkdaşlığı üçün ortaq əhəmiyyət kəsb etmişdir. 1940-cı illərdə, şah Məhəmməd Rza Pəhləvi 1939-cu ildə Misir kralı Fərruxun bacısı Fəvziyə ilə evləndikdən sonra Misirlə İran arasında

münasibətlər yüksək idi (2). İkinci Dünya müharibəsindən sonra hər iki ölkənin Qərb və Böyük Britaniyanın təsirindən azad olmaq sahəsində cəhdləri bu iki ölkəni daha da yaxınlaşdırmışdı. Hər iki ölkə millətçi monarxiyalar idi. 1950-ci illərin əvvəllərində isə Misir və İranda mühüm siyasi dəyişikliklər baş verdi. Misirdə 1952-ci ildə Azad Zabitlər çevrilişi Camal Əbdül Nasiri hakimiyyətə gətirdi. Onun rejimində pan-ərəbizm və anti-müstəmləkəçilik xarakterli vurğulandı. İranın demokratik yolla seçilmiş baş naziri Mosaddeq İngiltərə-İran Neft Şirkətindəki Britaniya holdinqlərini milliləşdirməklə və Nasiri 1956-cı ildə Süveyş kanalını milliləşdirməyə ruhlandırmaqla anti-müstəmləkəçilik mövqeyi tutdu. 1953-cü ildə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin və İngiltərənin dəstəklədiyi çevriliş onu devirdi. Hakimiyyətə qayıdan şah Pəhləvinin dövründə İran Nasirin idarə etdiyi Misir ilə əks istiqamətdə hərəkət edərək, Qərbə yaxınlaşaraq ABŞ və Böyük Britaniya ilə hərbi ittifaqlara girdi. Bu, Misir və İran arasında "soyuq müharibənin" başlanmasından xəbər verirdi. 1958-ci ildə Şah İsrail dövləti ilə gizli razılaşma əsasında İranın Əhvaz şəhərində (Xuzistan əyalətinin mərkəzi) Camal Əbdül Nasirə qarşı əks təbliğat yayımlayan stansiya fəaliyyətə başlamışdır (3). Bundan başqa Şah Məhəmməd Pəhləvi 1958-ci ildə İraqda hakimiyyət çevrilişində Nasirin rolu olduğundan şübhə etmişdi. İraq monarxiyası üzvlərinin qəddarcasına edamı Şahı ciddi narahat etmişdi. Bağdad paktının yaranması və orada İranın iştirakı Misir tərəfindən düşmənçilik kimi qarşılanmışdı (4). 1960-cı ildə Nasir Şahı "Qərbin və Sionizmin oyuncağı" olması ilə ittiham etmişdi. Buna cavab addım kimi İran Xarici İşlər Naziri Aras Aram Nasiri "zəifdüşüncəyə sahib Misir fironu" adlandırmış, onun qanunsuz rejimini tanımayacaqlarını bəyan etmişdir. Bunların ardıca Nasir İranla Misir arasında əlaqələrinin kəsildiyini elan etdi. Həmin il Misir Yəmən vətəndaş müharibəsinə hərbi müdaxilə etdi. Bu hərbi müdaxilə "Misirin Vyetnamı" kimi yadda qaldı. Müdaxilə nəticəsində 5 il ərzində Misir qoşunu10000 itki verdi, Misir böyük maliyyə çətinliyi ilə qarşılaşdı. Misirin Körfəzin cənub sahillərindəki mövcudluğu regional güclərlə yanaşı İran üçün də ciddi narazılıq və narahatlıq doğurdu. Şah Pəhləvi Misirin Yəmənə müdaxiləsini və ərazidə misir qoşunlarının saxlanmasını "təcavüz aktı" kimi qiymətləndirdi. 1964-cü idə C.Ə.Nasir Şahın ünvanına təkrar "ABŞ və İsrailin oyuncağı" deyərək təhqir etdi. 1966-cı ildə İranın Baş Naziri Abbas Hoveyda Fars Körfəzində hökm sürən gərginliyin Tehran üçün qəbuledilməz olduğunu söyləmişdir: "Fars Körfəzi körfəz ölkəlri üçündür, yadların (Misirin) burada yeri yoxdur" (1).

Körfəzdə nüfuz uğrunda rəqabətlə yanaşı, hər iki tərəf digərinə şübhə və tənqidi yanaşırdı: Şah Nasiri "sovet ekspansionizminin aləti" kimi görürdü. Əslində, Misir 1960-cı ildə şahın İsrail dövlətini de-fakto tanımasından sonra İranla əlaqələri kəsdi. Misirin Yəmənin şimalında Vətəndaş müharibəsində iştirakına və onun Körfəzdəki ambisiyalarına qarşı mübarizə aparan mühafizəkar körfəz ölkələri İranın status-kvo gücünə çevrilməsindən narahat olurdular. Lakin 1967-ci ildə İsrailə qarşı acı məğlubiyyətdən sonra Nasir Misirin Körfəzdəki ambisiyalarını yenidən nəzərdən keçirdi və İranla münasibətlər Nasirin ölümündən bir ay əvvəl, 1970-ci ilin avqustunda bərpa olundu.

1967-ci ildə Misir İsraillə müharibədə ağır məğlubiyyətə uğrayır və ərazisinin bir hissəsini itirir. Baxmayaraq Misir müharibələr nəticəsində zəifləmişdi, lakin İranı Körfəzdə narahat etməydə davam edirdi. Nasirin dünyasını dəyişməsi və Ənvər Sədatın hakimiyyətə gəlməsi ilə İran-Misir münasibətləri kökdən dəyişdi. Ənvər Sədatın hakimiyyəti dövründə Misirlə İran arasında münasibətlər xeyli yaxşılaşdı və diplomatik, iqtisadi və siyasi əməkdaşlıq başladı. Misirin ABŞ-la münasibətləri Sadat Sovet İttifaqının hərbi qulluqçularını Misirdən çıxardıqdan sonra yaxşılaşdı. Beləcə, 1970-1980-ci illərdə Misir və İran ABŞ-ın Yaxın Şərqdə təhlükəsizliyinin əsasını təşkil edən "Əkiz sütunlar" siyasətinin iki əsas komponenti oldular (5). Bu onillikdə Misir və İranın ABŞ-la birgə ittifaqı ilə yanaşı ikitərəfli münasibətlər də inkişaf etdi. İran rejimi Misirdə Səid Portunun yenidən qurulması, Süveyş kanalının genişləndirilməsi və bir sıra birgə sənaye və kənd təsərrüfatı layihələri də daxil olmaqla əməkdaşlıq üçün milyardlarla dollar kredit və qrantlar verdi. İran Misirlə İsrail arasında sülh təşəbbüsünü, Kemp Devid razılaşmasını dəstəklədi. Qeyd edək ki, strateji müttəfiqlik Sədat və Məhəmməd Rza Pəhləvinin şəxsi münasibətlərində də əks olunurdu.

1973-cü ildə 1967-cil müharibəsi nəticəsində itirdikləri əraziləri, yəni Misir Sinay yarımadasını və Suriya Colan (Holan) yüksəkliklərini geri qaytarmaq üçün İsrailin üzərinə hücum edir. Müharibə

zamanı İran Misirə neft yardımı göstərir. Bu müharibə Misir üçün uğursuz bitir. 1975-ci ildə Misirlə İran İsraildən Sinay yarımadasının qaytarılmasını tələb edən birgə kommunike ilə çıxış etdilər. Sinayın Misirə geri qaytarılması üçün Şah Pəhləvi ABŞ və İsraillə diplomatik danışıqlar aparır İsrailə torpaq əvəzinə (Abu-Rudeis neft sahələrinin əvəzinə) neftlə təmin edəcəyinə dair söz verir (6).

Beləliklə, Şahın dəstəyi ilə Kemp-Devid sülhü imzalanır. Nəticə olaraq Sinay yarımadası Misirə geri qaytarılır. Bu sülh Ənvər Sədata Nobel Sülh Mükafatını qazandırır, Misir-İran münasibətləri ABŞ-ın ümumi dəstəyi ilə yüksək səviyyəyə qalxır. Lakın çok keçmədən məşhur sülh razılaşması Misir üçün regionda və ikitərəfli əlaqələrində mənfi nəticələr doğurur. Misir "pan-ərəbizm" ideologiyasını əsas tutmadığı üçün ərəb dünyasında təklənir, "İslam dünyasına sadiqsizlik" üzündən İran İslam Respublikası Misirlə diplomatik əlaqələri tamamilə kəsir. Ölkədən qaçan Şaha Misirdə sığınacaq verilməsi, ölümündən sonra burada dəfn edilməsi, ardınca 1981-ci ildə Ənvər Sədat sui-qəsd nəticəsində öldürülməsi, İran İslam Respublikasında sui-qəsdçi Xalid İslambuli adına küçənin adlandırılması ikitərəfli münasibətlərə daha bir zərbə vurur. (2003-cü ildə Xatəminin hakimiyyəti dövründə bu ad dəyişdirilərək "İntifada" küçəsi oldu) (4).

Beləliklə, 1979-cu il İranda İslam İnqilabı Şahın hakimiyyət dönəmini sonlandırdı, həmçinin Yaxın Şərqdə yeni nizam yaratdı və Misir-İran münasibətlərini tamamilə dəyişdi. İran İslam inqilabı bölgədəki geosiyasi mühiti tamamilə dəyişdirdi və Misirin xarici siyasətinə əhəmiyyətli təsir göstərdi.

***İran inqilabından sonra münasibətlər.***

Yeni qurulan İslam Respublikası rejimi bir çox cəhətdən Pəhləvi rejiminin tam əksi idi və xarici siyasətində kökündən fərqli bir yol tutdu. Yeni qurulan İran İslam Respublikası anti-Qərb, anti-sionist, teokratik respublika idi, İran isə qərbyönümlü, dünyəvi, millətçi monarxiya, İsrail və ABŞ ilə sıx əməkdaşlıq edən regional sabitlikdə maraqlı olan status-kvo qüvvəsi idi. İsrailin devrilməsinə, bölgədə monarxiyaların və dünyəvi dövlətlərin devrilməsinə fəal çağırışlar edən yeni rejim fəal, avantürist və bəzi hallarda düşmənçilik siyasəti ilə məşğul olub, öz mesajını bütün dünyada müsəlmanlar arasında yaymaq məqsədi daşımağa başladı. İranın yeni rejimi açıq şəkildə Sədat hökumətinə qarşı çıxdı, onun siyasətini İslama zidd, imperialist və sionist tərəfdarı kimi xarakterizə etdi və İsraillə bağladığı sülh müqaviləsinə görə Misirlə əlaqələri dərhal kəsdi. İranın qəzəbinə baxmayaraq, Sədat İrandan qaçan Şahı hərarətlə qarşıladı və ona siyasi sığınacaq verdi. Ölkənin İranla münasibətləri bir neçə ay ərzində demək olar ki, yaxşı səviyyədən heçə enmiş oldu. ABŞ ilə əməkdaşlığın artması və ərəb dünyası ilə münasibətlərin əhəmiyyətli dərəcədə yaxşılaşması, onun Ərəb Liqasına yenidən qəbul edilməsi ilə nəticələndi. 1970-ci illərdə ABŞ-la münasibətlər xeyli yaxşılaşsa da, Şahın süqutundan sonra Misir rejimi açıq şəkildə regionda ABŞ-ın maraqlarının müdafiəçisi rolunu öz üzərinə götürməyə çalışırdı. 1980-ci illərin əvvəllərində Misir İsraildən sonra ABŞ-ın qeyri-NATO hərbi yardımını alan ikinci ölkə oldu və ölkə 1989-cu ildə ABŞ-ın NATO-dan kənar əsas müttəfiqinə çevrildi (7).

Eyni zamanda, Misir Yaxın Şərqdə beynəlxalq arenada özünü yenidən istiqamətləndirdi və Fars körfəzi ölkələri və İraqla münasibətlərini yaxşılaşdırdı. İsraillə sülhdən sonra bir çox ərəb dövlətləri Misirə düşmən münasibət bəsləsələr də, İranın öz inqilabını ixrac etmək, regionda monarxiyaların və dünyəvi rejimləri devirmək istəyindən qaynaqlanan ortaq təhlükəyə qarşı öz mövqelərini yenidən nəzərdən keçirməyə vadar oldular. Misir rejimi "Kamp Devid" razılaşmasının nəticəsində faktiki olaraq itirilən keçmiş "pan-ərəb rejiminə" qayıtmağa, İranla arasındakı gərginliyi ərəb-fars qarşıdurması kimi təqdim etməyə və ərəb ictimaiyyətini dəstəyini qazanmağa çalışırdı.

İslam Respublikasının özünün Misir üçün yaratdığı birbaşa təhlükə ilə yanaşı, onun uğurlu inqilabi islamçılığı regiona ixrac etmək cəhdləri daha böyük təhlükə yaratmaqla Misirin məyus əhalisinin müxtəlif təbəqələrini ruhlandırıb ölkənin daxili sabitliyinə ciddi zərbə vururdu. İranın hakimiyyətdə olan şiə din xadimləri Sədat rejiminə qarşı "din müharibəsi" başlatdılar və dini simvolizm vasitəsilə onun legitimliyinə zərbə vurdular. İslam Respublikasının Ali Rəhbəri Ayətullah Xomeyni Sədatı firon adlandırdı (qədim Misir fironları İslamda tiran və despot hesab olunur), onu Qərblə əlaqə saxlamaq, sionist dövlətlə sülh bağlamaqla ümmətə qarşı hərəkət etməkdə

ittiham edərək kafir elan etdi və hətta ölümünü tələb etdi (8). Beləliklə, Xomeyninin çıxışı Misir dövlətinin legitimliyini şübhə altına aldı və dini hissləri Sədata qarşı səfərbər etdi. Misir rejiminin bu ideyaların əhalinin böyük təbəqələrini ruhlandıracağından və ölkənin daxili sabitliyinə xələl gətirəcəyindən qorxmağa əsasları var idi. İran İnqilabı Sədatın Nasirizm mirasından qopmasından sonra Misirdə onun populyarlığının ən aşağı həddə olduğu bir vaxtda baş verdi. Sədatın hökumət xərclərini azaltmaq üçün çörək və digər əsas ehtiyaclara ayrılan subsidiyaların kəsməsi, Beynəlxalq Valyuta Fondunun verdiyi kreditlər əvəzində onun şərtlərini yerinə yetirməsi, İsraillə sülh prosesini başlatması və Kemp Devid Sazişini imzalaması Qərbin iqtisadi, siyasi və mədəni təsirinə geniş qapılar açdı. Üstəlik, Sədatın keçmiş müttəfiqləri Sədatın şəriəti vəd etdiyi kimi tətbiq etməməsindən məyus olmuşdu və şübhəsiz ki, bu İranın dini simvolizmi üçün münbit zəmin yaratmışdı.

İran inqilabı islamçılarla yanaşı sadə misir xalqını da ilhamlandırdı. İranın anti-ABŞ və anti-sionist fəaliyyəti ilə Sədatın Kemp Devid Sazişlərini imzalaması arasındakı siyasi ziddiyyət sıradan bir misirli üçün aydın idi və İran İnqilabı “bir çox misirlilər üçün bir müsəlman xalqının imperialist təcavüzə real cavabı kimi görünürdü. Üstəlik, inqilabçı İslamın mesajı Misirin universitetlərinə, sivil cəmiyyətə, məscidlərə və xalq kütlələrinə daxil olur və siyasi islam qrupları İranı nümunə kimi görür, solçu ziyalılar isə İran İnqilabını strukturalist marksist nöqteyi-nəzərdən təhlil edir, onu uğurlu kütləvi səfərbərliyin və hakimiyyətlə xalq qarşıdurmasınının ilham qaynağı kimi görürdü. Bu yolla İranın yeni rejimi Misir ictimaiyyətinin rəğbətini qazandı və ölkənin şəhər və kəndlərində Ayətullah Xomeyninin şəkilləri görünməyə başladı. İran İnqilabı Misirdə islamçılığın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmiş, islamçı fəallığı, müqaviməti və zorakılığı qanuniləşdirmiş və təşviq etmişdir. 6 oktyabr 1981-ci ildə Misir ordusuna sızmış islamçı təşkilatın üzvlərindən biri Xalid əl-İslambuli Sədatı hərbi parada baxarkən öldürür: “Mən Xalid əl-İslambuliyəm, Fironu öldürdüm və mən ölümdən qorxmuram” (7) deyə səslənir. Bunun ardınca Xomeyni Tehranda küçələrdən birini Sədatın qatilinin şərəfinə adlandırması və poçt markası istifadəyə verməsi hücumu açıq şəkildə təsdiqlədi.

Beləliklə, Misirin 1970 və 1980-ci illərdəki “İslam dirçəlişi” şübhəsiz ki, siyasi ölçüyə malik idi və 1980-ci illər boyu İslamçı qruplar dünyəvi millətçi Misir Ərəb Respublikasını Misir İslam Respublikasına çevirmək üçün davamlı cəhdlərində Misir hökumətinə qarşı tez-tez zorakılıq kampaniyası aparmağa davam etdilər. Misirin İran inqilabına ilk rəğbətinə baxmayaraq, 1980-ci illərin əvvəllərində bir neçə inqilabi hərbi məhkəmə edamı, solçu və liberal qüvvələrə qarşı amansız zorakılıqlar və İranda kürd muxtariyyət hərəkatının yatırılmasından sonra misir ictimaiyyəti arasında islam inqilabının populyarlığı azaldı. Eynilə, Misirin əsas islamçı təşkilatı olan və əvvəlcə İran inqilabını islamın siyasi mübarizədə qələbəsinin təzahürü kimi dəstəkləyən və alqışlayan “Müsəlman Qardaşlar” da sonda mövqeyini dəyişdi. Şiə islamından ilham almış və İran rejimi kimi şiə kimliyini vurğulayan Suriyanın hakim BƏƏS rejimi İranla müttəfiqliyi ilə yanaşı, Suriyada “Müsəlman Qardaşlar” hərəkatını qanundankənar elan etməsi və onun üzvlərinə təqib həyata keçirməsi buna səbəb olmuşdur.

Bununla belə, İranın islamçı “yumşaq gücü” Misir rejimi üçün real təhlükə yaratmaqda davam edirdi. İran İnqilabı ilə bağlı ədəbiyyat senzuraya məruz qaldı. Həqiqətən də, Sədat və onun varisi Mübarəkin İran inqilabının təsirini məhdudlaşdırmağa, İran inqilabi islamizmini yad, xaricdən gətirilən bir ideologiya kimi təqdim etməyə, onun mənbələrinin etibarını sarsıtmağa çalışırdı.

Hüsnü Mübarəkin hakimiyyəti illərində İran-Misir münasibətləri Şah dönəmindən kəskin fərqlənir və mənfi məcrada inkişaf edirdi. Bir sıra hadisələr bunun bariz sübutudur. 1980-1988-ci illərdə baş vermis İran ilə İraq arasında müharibədə Misir İraqı dəstəklədi. Həmçinin, ərəb xalqı və İraqda çalışan misirlilər İraqa simpatiya duyurdu. 1983-cü ildə müharibə gedişində Misir İrana ərəb portları ilə bağlı xəbərdarlıq edir ki, onun hər hansı səhv addımına qarşı Misir hərbi addım atacaq.1987-ci il İrana məxsus sərnişin təyyarəsinin vurulması zamanı H.Mübarək İranı ittiham edir və hadisənin səbəbkarı olaraq gərgin müharibə vəziyyəti və Körfəzdə qarmaqarışıqlığın yaranmasında İran hökumətini suçlayır.

28 aprel 1991-ci ildə Hüsni Mübarəkin hakimiyyəti dövründə biznes əməkdaşlığı qarşılıqlı maraqlar çərçivəsində sahəsində ikitərəfli əlaqələr bərpa edildi. 1990-cı ildə İranın şimalında baş vermis zəlzələnin fəsadlarını aradan qaldırmaq üçün Misir İran İslam respublikasına humanitar yardım göstərdi. Buna baxmayaraq münasibətlər gərgin çərçivədən çıxarmaq mümkün olmurdu (8).

2011-ci il ərəb baharı nəticəsində H.Mübarəkin istefası ilə hakimiyyəti sonlanır. İlk dəfə demokratik seçki yolu ilə seçilən Misir Prezidenti M.Mursinin qısa hakimiyyəti dövründə İran-Misir münasibətlərinə müsbət təsir edən hadidələr baş verir. 1979-cu ildən sonra Misirin Tehranda diplomatik nümayənliyi bərpa olunur. İlk dəfə Misir İran dövlətinə məxsus gəmilərin Süveyş boğazından keçməsinə icazə verir. İslam hərəkatının davamçısı olan Mursi beynəlxalq tədbirdə iştirak etmək üçün 2012-ci ilin avqustunda İrana səfər etdi. Bu 1979-cu ildən bəri ilk Misir Prezidentinin İrana səfəri idi. Bu səfər iki ölkə arasında yeni münasibətlərin başlanğıcı kimi dəyərləndirildi. 2013-cü ilin fevralında Mursi İİR-nın Prezidenti Mahmud Əhmədinejadı İslam Əməkdaşlıq Təşkilatının Sammitində iştirak etmək üçün Misirə dəvət etdi. İran Prezidenti təntənəli şəkildə qarşılandı. Lakin bu epizodik dəyişiklik geosiyasi, ideoloji mübarizə fonunda və Mursinin hakimiyyətinin qısa dövründə gözləntiləri doğrultmur və münasibətlər keçmiş mərhələlərdən fərqlənə bilmir.

Misir Prezidenti Abdel Fattah əl-Sisi 2014-cü ilin iyununda hakimiyyətə gələrkən İran Prezidenti Həsən Ruhanini andiçmə mərasiminə dəvət etmişdi və bu dəvəti iki ölkə arasında münasibətlərin normallaşdırılmasına bir işarə kimi dəyərləndirildi. Bütün bu yaxınlaşmalara baxmayaraq, Misirin İranla münasibətləri konstruktiv və möhkəm təməldən daha çox dövri təhlükə qavrayışlara əsaslanır.

Bu iki ölkənin tarixi maraqları və geomədəni reallıqları bir-birinə ziddir. və 1971-ci ilə qədər Misir tarixən pan-ərəbizm- ərəb millətçiliyi çərçivəsində coğrafi mənada ilk növbədə Suriya ilə (1958-ci ildə Misirlə Suriyanın İttifaqı-Birləşmiş Ərəb Respublikası yaradılır və 1971-ci ilə qədər suveren dövlət sayılır.) inteqrasiya siyasəti aparsa da, İranın Suriyadan öz maraqlarının olduğu, məqsədləri üçün şiə ideologiyası və Suriya ərazisindən istifadə etmək niyyətində olduğu şübhəsizdir. Başqa sözlə, hər iki ölkə Suriyadakı islam qruplarından və bu gün Suriya məsələsində demokratiya uğrunda mübarizə aparan qruplardan narahat olsa da, aydındır ki, iki ölkənin prioritetləri fərqlidir (5).

Sisinin İranla yaxınlığı Misirdə bəzi dairələrdə ciddi şübhə doğurur. Ərəb dünyasının əsas aktoru hesab edilən Misirin İranla tarixi münaqişələri olduğu və bu qarşıdurmaların hələ də davam etdiyi vurğulanır və Sisinin addımları onun öz qərarı kimi şərh olunur (2). Bu vəziyyət Misirdəki millətçi, islamçı və liberal qanadlar arasında ciddi narahatlığa səbəb olur.

## Nəticə

Regional reallıqlar və Misirin ərəb məsələsində tutduğu mövqe İran-Misir münasibətlərinin sərhədlərini müəyyən edir. Beləki, Misirdəki çevriliş prosesində Sisi rəhbərliyinə ciddi dəstək verən Səudiyyə Ərəbistanı bu yaxınlaşmadan narahat olmuş və Misirin geosiyasətinə təsir etmək üçün Misir sərhədində Sudanla hərbi təlim keçirmişdir. Mesaj xarakteri daşıyan bu təlimin Misirin İranla münasibətlərinə yenidən baxması üçün həyata keçirildiyi hesab edilir. Bəhreyn kralının Misirə səfəri həm də Misir-İran yaxınlaşmasının regional kontekstdə miqyasının anlaşılması baxımından əhəmiyyətlidir.

İrana qarşı vuruşan, Bəhreyndə rejim dəyişikliyinə nail olmaq istəyən və bunun üzərində ciddi iş aparan kral və müttəfiqlərinin Misirə səfəri zamanı Sisinin "Bəhreyn və Fars körfəzinin təhlükəsizliyi Misirin təhlükəsizliyidir" deməsi münasibətlərin əhatə dairəsini və sərhədlərini açıqlamışdır. 2015-cil ilin noyabrında BBC-yə müsahibəsində Misirin hazırki Prezidenti el-Sisi qeyd etmişdir: "Bizim İranla əlaqələrimiz yoxdur. Misir Ərəb Milli təhlükəsizliyini öz təhlükəsizliyinin tərkib hissəsi hesab edir və bu məsələdə ciddi məsuliyyət daşıyır". İrana gəldikdə, İran İslam Respublikası Misirlə münasibətlərinin sərhədlərini aydın dərk edir. Suriya məsələsi ilə bağlı kritik proses zamanı Misir kimi ərəb dünyasında böyük nüfuz sahibi olan bir ölkənin

müxalifətindən qurtulmaq və bu vəziyyətin mənfi nəticələrini azaltmaq İran üçün böyük qazanc hesab olunur.

Bundan başqa, İran rəsmilərinin Küveyt və Omana səfərləri və Misirlə yaxınlaşma istəyi regionda İrana qarşı mənfi atmosferi azaltmaq istəyi kimi qiymətləndirilə bilər.

Hal-hazırda Misir-İran münasibətləri ziddiyyətli olmaqda davam edir.

## Ədəbiyyat


1. Motaz Salamah, Mohammad Saied Alsayyad. Egyptian Policy toward Iran and the Challenges of Transition. https://rasanah-iiis.org/english/wp--content/uploads/sites/2/2017/12/Egyptian-Policy-toward-Iran.pdf
2. Mahmood Monshipouri, Anthony Zamary. Re-evaluating Iran-Egypt Relations: A Look at the Evolving Geopolitical Context https://www.insightturkey.com/articles/re-evaluating-iran-egypt-relations-a-look-at-the-evolving-geopolitical-context
3. İran-Misir münasibətləri yaxın perspektivdə. https://modern.az/az/news/102188/
4. Alaa Bayoumi. The Saudi Egyptian divide runs deeper than Syria/ https://www.alaraby.co.uk/english/comment/2016/10/21/the-saudi-egyptian-divide-runs-deeper-than-syria
5. Mısır-İran Yakınlaşmasının Boyutları ve Sınırları https:// www.insamer. com/tr/?output=pdf&type=post&id=4423
6. Brenton Clark, Adel Abdel Ghafar. Post-January 25 Iranian-Egyptian Relations: New Dawn?/ https://www.jadaliyya.com/Details/26016
7. Mohammad Soltaninejad. Iran and Egypt: Emotionally Constructed Identities and the Failure to Rebuild Relations. https://www.academia.edu/71480711/Iran_and_Egypt_Emotionally_Constructed_Identities_and_the_Failure_to_Rebuild_Relations
8. Paul Iddon. High points and low points: A history of Iran-Egypt relations// https://english.alaraby.co.uk/analysis/high-points-low-points-history-iran-egypt-relations?amp
9. Tom Leijnse. The Impact of the Iranian Revolution on Egypt’s Foreign Policy. The Impact of the Iranian Revolution on Egypt’s Foreign Policy - International Affairs Forum (ia-forum.org)


Göndərilib: 18.03.2023 Qəbul edilib: 11.05.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/35-39

**Mülkəddin Məmmədov**
Bakı Dövlət Universiteti
doktorant
mulk1996@mail.ru

# AQRAR SAHƏDƏ DÖVLƏTİN SİYASƏT VƏ STRATEGİYASININ MİLLİ İQTİSADİYYATA TƏSİRİ

**Xülasə**

Müasir dünyada ərzaq təminatının kəskinləşərək qlobal problemə çevrilməsi bütün dünyada kənd təsərrüfatı istehsalına diqqəti olduqca artırmış və onun köklü surətdə yenidən qurulmasını ön plana çəkmişdir. Məhz bu problemin bütün dünyada əhəmiyyətini nəzərə alaraq araşdırılan məqalədə Azərbaycanda Aqrar sahənin ölkənin milli iqtisadiyyatında oynadığı rol əks etdirilib. Mövzunun aktuallığı ondan ibarətdir ki, dövlət qarşıya qoyulan müəyyən strategiyaya uyğun olaraq iqtisadi siyasət və islahatlar həyata keçirərək qeyri-neft sektorunun inkişafına nail olmalı, iqtisadiyyatın davamlı inkişafını təmin etməlidir.

***Açar sözlər:*** *milli iqtisadiyyat, dövlət siyasəti, strategiya, aqrar sahə, iqtisadi təhlükəsizlik, qanunvericilik*

**Mulkeddin Mammadov**
Baku State University
Ph.D student
mulk1996@mail.ru

## The impact of the state's policy and strategy on the national economy in the agrarian field

**Abstract**

In today's world, food supply has become a global problem and has greatly increased the attention to agricultural production all over the world and brought its radical reconstruction to the fore. Taking into account the importance of this problem all over the world, the article reflects the role played by the Agrarian sector in the country's national economy in Azerbaijan. The relevance of the topic is that the state should achieve the development of the non-oil sector and ensure the sustainable development of the economy by implementing economic policies and reforms in accordance with a certain strategy.

***Keywords:*** *national economy, public policy, strategy, agricultural area, economic security, legislation*

## Giriş

Bəşəriyyət tarixində ilk dəfə olaraq XX əsrin ortalarından başlayaraq elmi- texniki tərəqqinin bilavasitə təsiri altında aqrar iqtisadiyyatda intensiv modernləşdirmə prosesi gedir ki, bu da öz ifadəsini keyfiyyətcə yeni istehsal üsulunun yaradılmasında tapmışdır. Həmin prosesin mahiyyəti kənd təsərrüfatında ictimai əməyin sənaye formasının tətbiqində və ona uyğun olan sosial təsisat formasının yaranmasında tapmışdır. Çoxtərəfli bir proses kimi modernləşdirmə bazar idarəetmə sisteminin əsas vasitələrindən fəal istifadə olunması şəraitdə uğurla həyata keçirilə bilər (Xəlilov, 2005: 157).

Bu gün ölkəmizdədə yenicə formalaşmağa başlamış, yaşıl inqilab adlanan texniki irıliləyiş,60-cı illərin ikinci yarısından Asiya, Afrika və Latın Amerikası ölkələrində kənd təsərrüfatı, hər şeydən əvvəl ərzaq üzrə yeni hibrid çeşidlərinin yaranmasında taapmışdır. Yaşıl inqilab bütövlükdə kənd təsərrüfatında intensivləşdirmə və səmərəlilik göstəricilərinin görünməmiş bir ssəviyyəyə qaldırmışdır (İbrahimov, 2003: 62).

Dövlətin aqrar siyasətinin reallaşdırması mexanizmlərindən biri də azad sahibkarlıq üçün şəraitin yaradılmasıdır. Bunun üçün dövlət aqrar siyasətə müdaxiləni azaldır və daha çox qiymət və digər məsələlərin həllini sahibkarların öz seçiminə buraxır. Nəzərə almaq lazımdır ki, azad sahibkarlıq o demək deyil ki, dövlət tamamilə geri çəkilir.

Müstəqilliyin ilk illərində 1992-1996 cı illərdə aqrar sektorun inkişafı üçün bir sıra qanun layihələri işlənib hazırlanmış və hüquqi-normativ aktlar qəbul olunmuşdur. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsi (1991)," "Kəndli-fermer təsərüffatları haqqında" (1994), "Müəssisələr haqqında qanun" (1999)" "İcarə haqqında" (1992) və.s qəbul edilmiş bu tipli qərar və qanunlar ölkənin aqrar siyasətini müəyyənləşdirmiş, onun prinsip və metodlarını formalaşdırmışdır.

Aqrar siyasətin tətbiq edilməsinin əsas mexanizmi olan "Aqrar islahatların" özünəməxsus bir sıra prinsipləri vardır:

**1.** Sahibkarlıq və təsərrüfatçılıq üçün sərbəst mühitin yaradılması. Bu o deməkdir ki, hər bir hüquqi şəxs sahibkarlığın özünə uyğun olan forması ilə məşğul ola bilər və dövlət onun fəaliyyətində ona dəstək olmağa hər zaman hazırdır.

**2.** Yenidənqurmanın aparılmasında könüllülük. Müvafiq dövlət orqanları islahatları yuxarıların əmrinə görə yox lazımı vaxta planlı şəkildə və könüllü həyata keçirməlidirlər.

**3.** Yenidənqurma islahatlarının ardıcıllığı. ASK-nin yenidən qurulması zamanı təkcə ümumi hüquqi bazanı dəyişdirmək yox, daxili strukturun da dəyişilməsinə diqqət yetirmək lazımdır. Bundan əlavə yenidənqurma zamanı hər bir regionun öz daxili xüsusiyyətləri nəzərə alınmalıdır.

**4.** Kəndlinin sahibkara çevrilməsi. Əmlakın və torpağın istifadəsi zamanı bu elementlərin istifadəsi müvafiq təsərrüfatçılıq sahəsinə yönəlməlidir.

**5.** Aqrar islahatların aşkarlığı üçün geniş təbliğat işinin aparılması. Dövlət aqrar siyasətini ölkənin hər bir regionunda təbliğ etməli, ümumi vahid mərkəzdən idarə etməli və hər kəsin başa düşəcəyi bir dildə anlatmalıdır (Quliyev, 2015: 62).

Dünya iqtisadiyyatında baş verən qloballaşmaya və qlobal istehlak bazarının konyukturasındakı dəyişmə dinamikasına uyğunlaşmaq üçün aqrar sahə üzrə həm hüquqi-normativ bazanın, həm də istehsal münasibətlərinin beynəlxalq norma və tələblərə uyğunlaşdırılması, beləliklə də milli istehsalın rəqabətə davamlı olmasının təmin edilməsi aqrar siyasətin ən başlıca hədəfi olmalıdır. Qarşıya qoyulan bu məqsədə çatmaq üçün, fikrimcə, aşağıda göstərilən sahələri aqrar siyasətin prioritetləri kimi qəbul edib vahid strategiya halında həyata keçirmək yaxşı nəticələr verə bilər: aqrar sahə üzrə milli qanunvericilik bazasının modernləşdirilməsi; ərzaq təhlükəsizliyi; idxaldan asılılığın azaldılması; qida təhlükəsizliyi (keyfiyyətin müvafiq standartlara uyğun olması) tədbirləri; torpaq və su resurslarından səmərəli istifadə və onların mühafizəsi; elmi tədqiqatların dəstəklənməsi; kənd yerlerində müasir, ixtisaslı kadrlar; müasir kənd; urbanizasiyanın azaldılması; ixrac potensialının genişləndirilməsi. Aqrar siyasətin bu komponentlərinin hər biri olduqca mühüm əhəmiyyətə malikdir və ciddi tədbirlər sisteminin hazırlanıb ardıcıl olaraq həyata keçirilməsini tələb edir.

Qeyd etdiyimiz kimi, müasir istehsal və iqtisadi münasibətlər təsərrüfatçılıq subyektlərinin hansı dərəcədə rəqabətqabiliyyətli olmasından asılıdır. Xüsusən, kənd təsərrüfatı və ərzaq məhsullarına qarşı artan tələblər istehlak bazarlarında rəqabəti daha da yüksəldərək kəskinləşdirmişdir. Bu amil onu göstərir ki, istehsalçılar beynəlxalq qayda və normalara uyğun məhsul istehsal etməli, eyni zamanda müasir texnologiyalardan və standartlardan bəhrələnməlidirlər. Yalnız innovasiyaların, yeni elmi nailiyyətlərin tətbiqi və müasir tələblərə cavab verən texniki normalara uyğun istehsal sahələrinin yaradılması qloballaşan dünya iqtisadiyyatında rəqabətədavamlı məhsulların istehsalına şərait yaratmış olacaq. Bununla da ümumi bazarda yer almağa köməklik göstərəcəkdir (4).

Azərbaycan Respublikasından qlobal bazara çıxarıla biləcək kənd təsərrüfatı və ərzaq məhsullarının həm istehsal potensialı, həm də çeşidi xeyli genişdir. Azərbaycanın aqro-iqlim şəraiti, torpaq və su ehtiyatları bu ərazilərdə müasir tələblərə və beynəlxalq standartlara uyğun məhsulların istehsalı üçün yaxşı göstəricilərdir. Lakin buna nail olmaq üçün, daha doğrusu, bu potensialı həyata keçirmək üçün hüquqi-normativ bazanın əsaslı surətdə yeniləşdirilməsi və qlobal miqyasda qəbul

edilən qanunvericilik və hüquqi-normativ bazaya uyğunlaşdırılması vacib şərtlərdən biridir. Bu məsələ ancaq şərt olaraq, hansısa normativ tələb funksiyasında deyil, məhz qlobal bazarda rəqabətə dayanıqlı məhsul istehsalını şərtləndirən hüquqi-normativ baza yaradılmasına xidmət etməlidir. Qanunvericilik bazasının beynəlxalq miqyasda qəbul olunan hüquqi normalara uyğunlaşdırılması bilavasitə Azərbaycanın aqrar sektoru üçün ona görə vacibdir ki, ölkə bütün imkanlarını hərəkətə gətirə bilsin və bu imkanlardan səmərəli surətdə istifadə edilsin.

Hazırda qloballaşan dünyanın ərzaq bazarında təhlükəsiz və keyfiyyətli ərzaq məhsullarına ciddi ehtiyaclar vardır və bu tələbat getdikcə artmaqdadır. Ölkə əhalisinin ərzaq məhsulları ilə, yüngül və qida sənayesini xammalla səmərəli təmin olunması kənd təsərrüfatından və kənd təsərrüfatı xammallarını emal edən sahələrin inkişaf səviyyəsindən asılıdır. Azərbaycan aqrar sahəyə dair hüquqi-normativ bazasını modernləşdirməklə, milli istehsal səviyyəsini həm keyfiyyətcə, həm də kəmiyyətcə yüksəldərək dünya bazarında həmin boşluğu doldurmaq imkanı qazanmış olur. Müasir dünya artıq ekoloji təmiz ərzaq və kənd təsərrüfatı məhsullarının vacibliyini müəyyənləşdirmiş və belə məhsulların istehlakına üstünlüyü davamlı olaraq artırmaqdadır. Azərbaycan milli istehsalını beynəlxalq standartların tələblərinə uyğunlaşdıraraq qlobal bazarın bu seqmentində geniş yer ala bilər. Hüquqi-normativ bazanın modernləşdirilməsi mövcud xammal potensialından daha səmərəli istifadəni şərtləndirir ki, bu da öz növbəsində aqrar sənaye kompleksinin ümumi inkişafı üçün geniş imkanlar yaradır. Qanunvericilik bazasının inkişaf etmiş dünya ölkələrinin təcrübəsinə harmonizasiyası Azərbaycanın özünün ərzaq təhlükəsizliyi məsələsinin etibarlı həlli üçün də olduqca önəmlidir.

Ərzaq təhlükəsizliyinin əsas məqsədi ölkə əhalisini kənd təsərrüfatı məhsulları, xammal və ərzaqla davamlı olaraq, etibarlı təmin etməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün daxili istehlak bazarında həyat və sağlamlıq üçün təhlükəsiz ərzaq məhsullarının yetərincə fiziki mövcudluğu təmin edilməlidir. Əhali isə həmin ərzağı əldə etmək imkanına malik olmalıdır. Ümumiləşdirilmiş formada desək, ərzaq təhlükəsizliyi ərzağın istehlakçı üçün fiziki və iqtisadi cəhətdən əlyetərli olmasıdır. Bu əsas kriteriyalardan əlavə olaraq, ərzaq təhlükəsizliyi anlayışına ərzaq məhsullarının kalorilik səviyyəsi, keyfiyyəti, təhlükəsizliyi (sağlamlığı) və s. kimi amillər də daxildir (Abbasov, 2017: 44).

Bölgələrdə olduğu kimi qlobal iqtisadiyyatda da son inkişaflar, neft gəlirlərindəki kəskin yavaşlama və mürəkkəb xarici iqtisadi əlaqələr də ölkənin makroiqtisadi və maliyyə sabitliyinə təsirsiz ötməmişdir. Dünyadakı proseslərin yaratdığı yeniliklərə uyğunlaşmağı təmin etmək və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirlərini azaltmaq, qısa, orta və uzun müddətli ictimai və iqtisadi inkişaf dövrlərini əlaqələndirmək və qarşılıqlı əlaqələri davam etdirmək surətiylə, iqtisadi islahatların əsas strateji hədəfləri istiqamətində bir sıra sistematik tədbirlər görərək, keyfiyyət olaraq yeni bir inkişaf modelini yaratmaq və inkişaf etdirmək əsas prioritetlərdən biri olmuşdur. Bu məzmunda, Azərbaycan Respublikasının Prezidenti, iqtisadiyyatın mövcud vəziyyətini analiz etmək və ölkədə tətbiq olunan iqtisadi siyasət və islahatların planlı bir şəkildə yerinə yetirilməsini və davamlılığın təmin edilməsi üçün yeni və uzun müddətli bir iqtisadi inkişaf strategiyasını inkişaf etdirmək üzrə 16 Mart 2016-ci il tarixli 1897 saylı əmri imzalamışdır. "Milli iqtisadiyyat və iqtisadiyyatın kilid sektorları üçün strateji yol xəritəsinin ana istiqamətləri" təsdiq edilmiş və bu sahələrə uyğun olaraq inkişaf planlarının inkişaf etdirilməsini təmin etmək üçün uyğun bir iş qrupu yaradılmışdır.

**Strateji hədəflər:**

● Ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi: Ərzaq təhlükəsizliyinin davamlılığı və əhalinin ərzağa əlyetərliyi ilə əlaqədar monitorinq sisteminin qurulması vacibdir. Əhalinin bütün təbəqələrinin ərzaqla tam təmin olunması üçün qida zəncirini planlı və hərtərəfli şəkildə formalaşdırmaq lazımdır.

● Kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zənciri üzrə artırılması; Həm daxili, həm xarici bazarlarda yüksək keyfiyyətli kənd təsərüffatı məhsulları ilə təmsil olunmaq üçün kompleks layihələri həyata keçirmək və aqrobiznes sektorunun inkişafına dəstəyi artırmaq lazımdır.

● Maliyyəyə çıxışın asanlaşdırılması; Kənd təsərüffatına investisiyaların artırılmasını təşviq etmək və siğorta işinin təkmilləşdirilməsini nəzərdə tutur.

● Kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və xidmətlərlə təminatın yaxşılaşdırılması; Kənd təsərrüfatına yararlı torpaq sahələrinin artırılması və gübrələmə işlərinin yaxşılaşdırılması üçün xarici təcrübədən istifadə etmək və kənd təsərüffatını lazımi texnika və texnologiyalarla təmin etmək aqrar siyasətin başlıca istiqamətlərindəndir.

● Kənd təsərrüfatı sahəsində elm, təhsil və informasiya-məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsi; Kənd təsərrüfatının inkişafı üçün elmi mərkəzlərin yaradılması və elmi-təcrübə işlərinin artırılması üçün yeni işlərin görülməsi nəzərdə tutulur.

● Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və istehsalçıların bazarlara çıxışının asanlaşdırılması; Hazırda Azərbaycan Respublikasının Aqrar siyasətinin əsas məqsədlərindən biri də ölkə ərazisində istehsal olunmuş kənd təsərrüfatı məhsullarının reallaşdırılması üçün bazar infrastrukturunun təkminləşdirilməsidir. Bunun üçün yarmarkaların təşkili alıcıların tapılması və vergidən azad etmək əsas tədbirlər sistemi kimi müəyyənləşdirilmişdir.

● Ətraf mühitin qorunması, təbii resurslardan dayanıqlı istifadə və təbii amillərin kənd təsərrüfatına təsirlərinin idarə olunması; İqlim dəyişmələrinin kənd təsərrüfatı məhsullarına təsirinin azaldılması və ekoloji cəhətdən daha səmərəli məhsulların istehsal olunması.

● Aqrar sahə üzrə dövlət tənzimlənməsinin effektivliyinin yüksəldilməsi və biznes mühitinin təkmilləşdirilməsi; Elektron kənd təsərrüfatı məhsullarının satış portalının yaradılması fermerlərin işini asanlaşdıracaq və azad rəqabətli mühitin formalaşmasına gətirib çıxaracaq.

● Kənd yerlərində məşğulluğun artırılması və əhalinin rifahının yüksəldilməsi.

Qeyd etdiyimiz kimi strateji yol xəritəsi 2016-2020-ci və 2025 ci illəri əhatə edir və əsas məqsədi regionlarda qeyri-neft sektorunu inkişaf etdirmək və işsizliyi minimuma çatdırmaq olmuşdur. Ölkə ərazisində aqrar sektorun inkişafı üçün 9 strateji hədəf müəyyən edilmişdir ki, bu uzunmüddətli hədəflərə çatmaqla ölkənin aqrar sektorunda təkmilləşdirmələr aparılaraq, müəyyən inkişafa nail olunmuşdur (6).

Aqrar sahənin davamlı inkişafına nail olmaq üçün atılan addımlardan biri də Aqroparkların yaradılması olmuşdur. Aqroparklar məhsuldarlığın artırılmasında əsas səmərəli mexanizm hesab edilir. Aqroparkların yaradılmasının məqsədləri;

● innovativ texnologiya və üsullar əsasında rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, qablaşdırılması, aqrar-sənaye komplekslərinin inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi;

● iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi;

● aqrar-sənaye istehsalı sahəsində yerli və xarici investisiyalar üçün əlverişliliyin artırılması;

● əməkqabiliyyətli əhalinin aqrar-sənaye istehsalı sahəsində məşğulluğunun artırılması.

**“Aqroparklar haqqında Nümunəvi Əsasnamə”nin təsdiq edilməsi”** Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 yanvar tarixli 1257 nömrəli Fərmanı ilə əlaqədar olaraq qərara alınmışdır (7).

Hazırda 32 rayon üzrə 240 min hektar ərazidə ümumi layihə dəyəri 2,3 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılır. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-i isə emal sənayesi üzrə ixtisaslaşıb. Artıq 44 aqropark fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə işləri aparılır. İndiyədək 25 aqroparkın yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 184 mln. manat güzəştli kredit, 27 aqroparka isə 1 mlrd. manat dəyərində investisiya təşviqi sənədi verilib. Bu günədək aqroparklara 1,3 mlrd. manat özəl investisiya qoyulub.

Aqroparklar məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. Hazırda aqroparklarda ümumi olaraq 4000-dən çox işçi daimi, 5000-dən çox işçi isə mövsümü işlə təmin olunub. Gələcəkdə əlavə 5000-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Qeyd edək ki, ölkədə mövcud olan aqroparkların idarəedici təşkilatı İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı

Agentliyidir. Agentlik respublikada fəaliyyət göstərən sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının 22 yanvar 2021-ci il tarixli Fərmanı ilə yaradılıb (8).

## Nəticə

Dövlət lazım olduqda, əsasən iqtisadi böhranlar zamanı iqtisadiyyata müəyyən həddə qədər müdaxilə edir ki, nəticədə iqtisadiyyat öz əvvəlki vəziyyətinə qayıdır. Aqrar sahənin, o cümlədən kənd təsərrüfatının davamlı və dayanıqlı inkişafının təmin edilməsi, ölkənin ərzaq təhlükəsizliyi üçün etibarlı əsasların yaradılması, həmçinin milli istehsalçıların dünya bazarlarında güclü rəqabətə tab gətirməsi üçün dövlətin müasir aqrar siyasəti aqrar sektorun regional və qlobal bazarda rəqabətqabiliyyətli olmasına möhkəm baza yaratmalıdır.

## Ədəbiyyat

1. Xəlilov, H. (2005). Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti. Bakı, 228 s.
2. İbrahimov, İ. (2003). Aqrar iqtisadiyyatın əsasları. Bakı, 153 s.
3. Quliyev, E. (2015). Aqrar iqtisadiyyat. Bakı: Kooperasiya nəşriyyatı, 319 s.
4. https://www.e-qanun.az/framework/34254
5. Abbasov, V. (2017). Aqrar iqtisadiyyat. Bakı, 468 s.
6. https://www.e-qanun.az/framework/34254
7. https://e-qanun.az/framework/48697
8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi saytı, https://economy.gov.az/az/post/454/aqroparklar

Göndərilib: 09.03.2023 Qəbul edilib: 19.05.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/40-45

**Elmar Allahverdi**
Azerbaijan State University of Economics
Ph.D student
elmarallahverdi@gmail.com

# SOCIO-ECONOMIC PARADIGM OF HEALTH INSURANCE

## Abstract

Before implementing the reform in their health systems, countries should analyze the health status and needs of their society, the failing aspects of the health system, and whether the health care system works well or badly. Each country in need of reform in their health systems, while creating solution proposals and action plans for the failing aspects of the health system, makes use of the reform processes of the countries that have experienced this process, international knowledge, and experience at the country level to develop a model suitable for the needs of the country both theoretically and practically. In this sense, it is important to implement it. In many countries, especially in developed countries, access to and use of health services are among the main subjects studied. Although it is known that, various behaviors direct the search for and preference for health services, among these behaviors that stand out are; physical, socioeconomic conditions, cultural, and political environments.

***Keywords:*** *socio-economic policies, compulsory health insurance, paradigm of health insurance, health care system, model of health insurance*

**Elmar Allahverdi**
Azərbaycan Dövlət İqtisad Universiteti
doktorant
elmarallahverdi@gmail.com

## Tibbi sığortanın sosial-iqtisadi paradiqması

## Xülasə

Səhiyyə sistemlərində islahatı həyata keçirməzdən əvvəl ölkələr öz cəmiyyətinin sağlamlıq vəziyyətini və ehtiyaclarını, səhiyyə sisteminin uğursuz aspektlərini və səhiyyə sisteminin yaxşı və ya pis işləyən tərəflərini təhlil etməlidirlər. Səhiyyə sahəsində islahatlara ehtiyacı olan hər bir ölkə səhiyyə sistemindəki uğursuz cəhətlərin həlli ilə bağlı təkliflər və fəaliyyət planları hazırlayarkən bu prosesi yaşamış ölkələrin islahat proseslərindən, beynəlxalq və ölkədəki keçmiş təcrübədən istifadə edir və bu istiqamətdə həm nəzəri, həm də praktiki cəhətdən ölkənin ehtiyaclarına uyğun model hazırlamaq səviyyəsində qərar qəbul edilir. Bu mənada onun həyata keçirilməsi vacibdir. Bir çox ölkələrdə, xüsusən də inkişaf etmiş ölkələrdə səhiyyə xidmətlərinə çıxış və onlardan istifadə əsas öyrənilən mövzular sırasındadır. Müxtəlif davranışların səhiyyə xidmətlərinin seçimi və onlara üstünlük verilməsinə istiqamət verdiyi məlum olsa da, bu davranışlar arasında önə çıxan bəndlərə; fiziki, sosial-iqtisadi şərait, mədəni və siyasi mühit kimi faktorlar daxildir.

***Açar sözlər:*** *sosial-iqtisadi siyasətlər, icbari tibbi sığorta, tibbi sığorta paradiqması, səhiyyə sistemi, tibbi sığorta modeli*

## Introduction

The fact that countries can focus on the points we have mentioned above will only be possible if they are fully aware of the past and current practices and policies regarding their health system. "Policy making is a highly analytical and political process involving a complex set of forces. Countries must develop policies that address their level of development and health needs (Ertash, Kirach, 2017: 31). One of the best ways to alleviate critical situations in the event of various

incidents and accidents is to use insurance. Several types of insurance have been designed for different areas of social life, and among these types of insurance, compulsory health insurance has a special role. Compulsory health insurance aims to support the population in a socio-economic sense. The national system of compulsory health insurance includes a complex of economic, legal, and organizational measures as part of the health care system. The reform and improvement of the compulsory health insurance system are of urgent importance in modern times. At the same time, this issue should be the main priority for the health of the country's citizens. It is known that health insurance is a form of social protection for the population insured against loss of health for one reason or another (as a result of illness or accident) (Ronald, Norris, Akhvlediani, 2015: 567). Many countries of the world use the compulsory health insurance system in modern times. Compulsory health insurance is a form of social protection aimed at ensuring the rights of citizens in the health sector. Most of the developed countries have switched to this system a long time ago. The main principle of the compulsory health insurance system is to transform the collected funds into the general welfare of citizens. Compulsory health insurance is one of the forms of social protection for the population; it is a system of legal, economic, and organizational measures created by the state aimed at ensuring the provision of primary medical aid and emergency medical aid in the event of an insured event. The purpose of compulsory health insurance is to improve the existing mechanisms of financing the health care system, guided by the new economic principles, thereby increasing the quality and accessibility of medical services provided to the population.

**Method.** Compulsory health insurance is a special form of social protection in the field of health protection of the population, which is reflected in the provision of payment of medical services at the expense of funds collected by the insurer in the event of an insured event. In the conditions of the market economy, where the concept of "free health care" has already been replaced by the concept of "insurance", the development of health insurance in the country is a necessary condition for the provision of medical services to the population at the required level. In this case, we are talking about medical services provided to the population in the health insurance market. During the transition to the market economy, the creation of a new social insurance system following the world level achieved in this field in our country has become an objective necessity. Compulsory health insurance is one of the forms of social insurance for every citizen, regardless of their socio-economic status, and is designed to provide a state guarantee of free medical care to the entire population. In terms of health protection, the mechanism of social protection of citizens is a stable system of socio-economic behavior of social groups and their interaction with each other, as well as with the state in the market of compulsory medical services. Currently, the transformations carried out in the local healthcare system are mainly organizational and economic. If previously management was mainly carried out by administrative methods, now economic methods are becoming more and more important. Some of these conclusions might be supported by pertinent theoretical underpinnings from the literature review, from which they might be debated in the discussion.

**Literature Review.** Compulsory health insurance is a system of state protection of social interests in the field of health care. Compulsory health insurance provides equal medical assistance to all insured citizens of Azerbaijan, regardless of gender, age, social status, place of residence, and income. Compulsory health insurance is a model of social protection for residents in case of illness, injury, pregnancy, childbirth, disability, and old age. We should not forget the minimum regulatory and legal basis necessary for the creation of a compulsory medical insurance system. In our opinion, the most important of them is the preparation and adoption of the "Concept of the reform of the healthcare financing system in the Republic of Azerbaijan and the introduction of compulsory health insurance" (3). The concept is a set of measures aimed at strengthening the capacity of the health system and strengthening budget processes for strategic planning. The main goal of the concept is to create an opportunity for the entire population to receive quality medical care. For this, it is necessary to optimize the financing system in the field of health insurance and organize the systematic regulation of relations that ensure the purchase of quality medical services. On October

28, 1999, on the initiative of the head of the country, Heydar Aliyev, the Law of the Republic of Azerbaijan "On Medical Insurance" was adopted, on December 28, 2018, the President of the Republic of Azerbaijan Ilham Aliyev approved the amendment to the relevant law "On Medical Insurance" signed the decree (4). In this law, the basic principles of compulsory medical insurance, the insured and the insured under compulsory medical insurance, the rights and duties of the participants of compulsory medical insurance, the financial guarantee of compulsory medical insurance, the calculation and payment of compulsory medical insurance premiums and the submission of reports, etc. such important provisions have been reflected. "The program of state guarantees for the provision of free medical care ensures the increase of its value and the determination of the composition of medical services, as a result of which a compulsory health insurance system is organized for the population within the framework of financing from the state budget" (Rajabli, 2022: 209).

**Discussion.**

When the studies conducted by the nations involved in health reform are analyzed, it becomes clear that the programming that has been implemented in all of these nations has been ongoing for many years, takes patience, effort, struggle, and experiences difficulties. Because of this, health reform studies have been ongoing for years, even in England, which is frequently used as an example of a developed nation (Bashol, 2015: 131). Despite the fact that the system has undergone extremely significant advances, new reform requirements are consistently raised. As a result, it is not possible to reach perfection in health services. It is necessary to meet the needs that arise in the conditions of the day and to solve the problems with limited resources. Again, when health reforms are examined, the most important factors affecting success are whether the current government is stable, whether there is a common view in the government, whether these studies are supported by the prime minister and ministers, the terms of office of governments, and the approach of newly appointed governments to the studies and experiences initiated in the past. It is thought that the steps to be taken to increase the quality of both the public and private health sectors will be beneficial in improving health services and raising healthier generations through the provision of more qualified health services (Chinaroghlu, 2017: 269).

In today's rapidly advancing technological landscape, the transfer of intellectual property (IP) plays a vital role in driving innovation and economic growth. Technology transfer contracts serve as legal instruments that facilitate the sharing and commercialization of intellectual property rights between different parties. These contracts not only enable the efficient exchange of knowledge and technologies but also safeguard the interests of the innovators and ensure the protection of intellectual property. Protecting IP from infringement is a critical and complex aspect that requires careful consideration within technology transfer contracts. Infringement occurs when unauthorized parties use, reproduce, or distribute protected IP without the permission of the IP owner. To effectively safeguard IP rights, technology transfer contracts should incorporate comprehensive provisions that aim to prevent infringement and adress any instances that may arise. This article explores the importance of intellectual property protection in technology transfer contracts and highlights key considerations for effective implementation.

***Keywords:*** *technology transfer contracts, transfer, infringement, intellectual property, protection, safeguard, intellectual property rights, implementation*

**Raul Xəlilov**
Bakı Dövlət Universiteti
magistrant
raulxlilov@gmail.com

## Texnologiya transferi müqavilələrində əqli mülkiyyətin qorunması

## Xülasə

Bugünkü sürətlə inkişaf edən texnoloji mənzərədə əqli mülkiyyətin (ƏM) ötürülməsi innovasiyaların və iqtisadi inkişafın təkan verməsində mühüm rol oynayır. Texnologiyaların ötürülməsi müqavilələri müxtəlif tərəflər arasında əqli mülkiyyət hüquqlarının paylaşılmasını və kommersiyalaşdırılmasını asanlaşdıran hüquqi alətlər kimi xidmət edir. Bu müqavilələr təkcə bilik və texnologiyaların səmərəli mübadiləsinə imkan vermir, həm də innovatorların maraqlarını qoruyur və əqli mülkiyyətin qorunmasını təmin edir. ƏM-in hüquq pozuntusundan qorunması texnologiya transferi müqavilələri çərçivəsində diqqətlə nəzərdən keçirilməsini tələb edən kritik və mürəkkəb aspektdir. İcazəsiz şəxslər ƏM sahibinin icazəsi olmadan qorunan ƏM-dən istifadə etdikdə, təkrar istehsal etdikdə və ya yaydıqda pozuntu baş verir. ƏM hüquqlarını effektiv şəkildə qorumaq üçün texnologiya ötürmə müqavilələri pozuntunun qarşısını almağa və yarana biləcək hər hansı halları aradan qaldırmağa yönəlmiş hərtərəfli müddəaları özündə birləşdirməlidir. Bu məqalə texnologiya transferi müqavilələrində əqli mülkiyyətin qorunmasının əhəmiyyətini araşdırır və effektiv həyata keçirilməsi üçün əsas mülahizələri vurğulayır.

***Açar sözlər:*** *texnologiya transferi müqavilələri, transfer, pozuntu, əqli mülkiyyət, qorunma, qorunma, əqli mülkiyyət hüquqları, həyata keçirilməsi*

## Introduction

I. Understanding Intellectual Property:

To comprehend the significance of intellectual property protection in technology transfer contracts, it is crucial to have a clear understanding of intellectual property itself. Intellectual property encompasses a wide range of intangible assets, including patents, trademarks, copyrights, trade secrets, and industrial designs. These rights grant exclusive ownership to the creators or inventors and prevent unauthorized use, reproduction, or distribution of their creations.

II. Technology Transfer Contracts and Intellectual Property Protection:

Technology transfer contracts serve as a framework for negotiating and defining the terms of transferring intellectual property from one party to another. These contracts often involve collaborative research and development, licensing agreements, or the sale of intellectual property rights. Intellectual property protection within technology transfer contracts is essential to (Pugatch, 2006: 315-318).

Encourage Innovation: By protecting the intellectual property rights of innovators, technology transfer contracts provide an incentive for further research and development. This promotes a culture of innovation by ensuring that inventors can reap the benefits of their creations, fostering economic growth and technological advancement.

Define Ownership and Usage Rights: Technology transfer contracts establish clear ownership rights and define the scope of usage for the intellectual property being transferred. This helps avoid disputes and confusion regarding ownership and ensures that both parties understand their respective rights and obligations. One crucial element of protecting IP from infringement is clearly defining the ownership of the intellectual property within the contract. By explicitly stating the ownership rights, the contract establishes a legal basis for enforcing those rights and defending against potential infringements. This clarity helps deter unauthorized parties from using or misappropriating the IP, as they are aware of the legal consequences and potential liabilities associated with infringement.

Safeguard Confidential Information: In technology transfer, confidential information and trade secrets are often shared between parties. Intellectual property protection provisions within contracts safeguard this sensitive information, ensuring that it remains confidential and is not misused or disclosed to unauthorized parties.

Enable Commercialization: Technology transfer contracts provide a legal framework for the commercialization of intellectual property. They allow inventors to license or sell their creations to third parties, enabling wider dissemination and application of innovative technologies, which can drive economic growth and benefit society as a whole (Park, 2008: 761-766).

III. Key Considerations for Intellectual Property Protection:

To effectively protect intellectual property in technology transfer contracts, several key considerations should be taken into account:

Clearly Defined Rights and Obligations: The contract should explicitly define the rights and obligations of each party regarding the intellectual property being transferred. This includes ownership rights, usage rights, and any limitations or restrictions on the use of the intellectual property.

Confidentiality and Non-Disclosure Provisions: Robust confidentiality and non-disclosure provisions should be included in the contract to protect sensitive information shared during the technology transfer process. This ensures that confidential information remains secure and is not disclosed to unauthorized parties. Ensuring confidentiality and non-disclosure is a fundamental aspect of technology transfer contracts to protect sensitive information and maintain the integrity of intellectual property (IP). Confidentiality provisions within these contracts serve to safeguard proprietary knowledge, trade secrets, research data, and other confidential information shared between the parties involved. By including robust measures for confidentiality and non-disclosure, technology transfer contracts create a trusted environment that encourages open collaboration while mitigating the risk of unauthorized disclosure or misuse.

One key element of ensuring confidentiality is clearly defining what information is considered confidential within the contract. This includes specifying the types of data, documentation, or knowledge that should be treated as confidential (World Intellectual Property Organization, 2019). The contract should outline the obligations of both parties to maintain the confidentiality of the information exchanged during the technology transfer process, extending beyond the duration of the contract itself. To reinforce confidentiality, technology transfer contracts often impose restrictions on the use and disclosure of confidential information. These restrictions can include limiting the dissemination of confidential information to only authorized individuals within the recipient party, prohibiting the disclosure of such information to third parties, and outlining the permitted purposes for which the information may be used. These provisions help prevent the unauthorized distribution or exploitation of sensitive information, reducing the risk of potential infringement or misappropriation.

Dispute Resolution Mechanisms: The contract should include mechanisms for resolving disputes related to intellectual property, such as arbitration or mediation. This helps address any conflicts that may arise and ensures a fair and efficient resolution process (Merges, Lemley, 2007). Addressing dispute resolution is a critical aspect within technology transfer contracts to ensure that any conflicts or disagreements related to intellectual property (IP) are resolved in a fair and efficient manner. Disputes can arise due to various reasons, such as ownership disputes, breaches of contract, or alleged infringements. By including provisions for dispute resolution, technology transfer contracts provide a framework to handle such issues and maintain the integrity of the contractual relationship between the parties involved.

One common approach to addressing dispute resolution is the inclusion of alternative dispute resolution (ADR) mechanisms within the contract. ADR methods, such as mediation or arbitration, offer a more flexible and collaborative approach compared to traditional litigation. Mediation involves a neutral third party assisting the parties in reaching a mutually satisfactory resolution, while arbitration entails submitting the dispute to an arbitrator or panel who will make a binding decision. These ADR methods often provide faster and more cost-effective resolution processes, reducing the strain on the parties involved and allowing for creative solutions that preserve their relationship. Technology transfer contracts should specify the procedures and rules to be followed in the chosen ADR method. This includes outlining the selection process for mediators or arbitrators, determining the venue and language for the proceedings, and establishing the timeline for resolving the dispute (Maskus, 2000). By clearly defining these procedures, the contract ensures that the resolution process is structured and transparent, minimizing any potential uncertainties or delays.

Compliance with Applicable Laws and Regulations: Technology transfer contracts must comply with relevant laws and regulations governing intellectual property rights. It is crucial to consider local and international legal frameworks to ensure that the transfer of intellectual property is conducted legally and ethically.

Assigning the ownership of intellectual property (IP) is a critical aspect within technology transfer contracts as it establishes clear rights and responsibilities for the parties involved. The process of assigning ownership requires careful consideration to ensure that the transfer of IP rights is conducted in a transparent and legally sound manner (Langford, 1997: 1576-1583). Technology transfer contracts should include provisions that outline the conditions under which ownership of the IP is transferred from the innovator to the recipient party.

The assignment of IP ownership should be based on a thorough analysis of the existing rights and obligations associated with the intellectual property. This includes identifying the original creator or inventor of the IP and any existing agreements, licenses, or restrictions on its use. It is essential to ensure that the IP being transferred is free from any encumbrances or conflicts that could hinder its effective utilization or commercialization. In assigning ownership, technology transfer contracts should specify the scope and extent of the transferred IP rights. This includes determining whether the transfer encompasses all rights associated with the IP, such as patents,

copyrights, trademarks, or trade secrets, or if it is limited to specific rights within the IP framework. By clearly defining the extent of the transfer, potential disputes or ambiguities regarding ownership can be avoided.

Furthermore, technology transfer contracts should address the obligations and responsibilities of the parties concerning the assigned IP. This includes outlining the recipient's duties to protect the transferred IP, maintain its confidentiality, and ensure compliance with applicable laws and regulations. Conversely, the contract should establish the obligations of the innovator to accurately disclose and transfer the IP rights and provide any necessary support or documentation to facilitate the recipient's use of the IP.

In some cases, technology transfer contracts may also incorporate provisions for future modifications or improvements to the assigned IP (Lai, 1998: 133-153). These provisions can address issues such as joint ownership, royalty sharing, or the establishment of mechanisms for reviewing and updating the contract as technological advancements occur. By accounting for potential future developments, the contract ensures that the assigned IP remains adaptable and capable of supporting ongoing innovation and collaboration. It is important to note that assigning the ownership of IP within technology transfer contracts must comply with relevant legal requirements and regulations (WIPO, 1994). Different jurisdictions may have specific rules governing the transfer of IP rights, and it is crucial to adhere to these guidelines to ensure the validity and enforceability of the contract.

## Conclusion

Intellectual property protection is of paramount importance in technology transfer contracts. Thanks to intellectual property protection, inventors can easily transfer their products. It not only fosters innovation but also safeguards the rights and interests of inventors and facilitates the commercialization of intellectual property. By clearly defining rights, ensuring confidentiality, and complying with legal requirements, technology transfer contracts can serve as effective tools for promoting collaboration, driving economic growth, and advancing technological development in a rapidly evolving world. Many international organizations and conventions regulate the protection of intellectual property in technology transfer.

## References

1. Pugatch, M. (2006). The international legal framework for the protection of intellectual property in biotechnology, p.315-318.
2. Park, W. (2008). International patent protection: Research Policy, p.761-766.
3. World Intellectual Property Organization. (2019). Technology transfer and intellectual property.
4. Merges, R., Lemley, M. (2007). Intellectual property in the new technological age. Aspen Publishers.
5. Maskus, K. (2000). Intellectual property rights in the global economy. Washington, DC: Institute for International Economics.
6. Langford, J. (1997). Intellectual property rights: Technology transfer and resource implications, p.1576-1583.
7. Lai, E. (1998). International Intellectual Property Rights Protection and the Rate of Product Innovation, Journal of Development Economics, p.133-153.
8. WIPO. (1994). Agreement on Trade Related Aspects of Intellectual Property Rights, WIPO Publication.

Received: 04.03.2023 Accepted: 30.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/59-64

**Aytac Alməmmədova**
Bakı Dövlət Universiteti
magistrant
almmmdovaaytac@gmail.com

# DÜNYA TİCARƏT TƏŞKİLATINDA MÜBAHİSƏLƏRİN HƏLLİ SİSTEMİ

**Xülasə**

Geniş şəkildə qəbul edilir ki, DTT Sazişinin çoxtərəfli ticarət sisteminin gücləndirilməsinə verdiyi töhfə Mübahisələrin Həlli Anlaşması (Razılaşma) vasitəsilə mübahisələrin həlli üçün effektiv mexanizmin yaradılması ilə əhəmiyyətli dərəcədə artırılıb. Razılaşma əvvəlcədən mövcud olan GATT 1947 sistemində mexanizmin kvazi məhkəmə xarakterini gücləndirən bir neçə yeni xüsusiyyət təqdim etdi. Bunlara mübahisələrin həlli üçün açıq vaxt çərçivələri, şikayət edən tərəfin tələbi ilə panelin demək olar ki, avtomatik olaraq yaradılması hüququ, konsensusla qəbul edilməməsi barədə qərar qəbul edilmədikdə panel hesabatlarının avtomatik qəbulu ("mənfi konsensus qaydası") daxildir. Panel hesabatlarından şikayətləri dinləmək üçün daimi Apellyasiya Qurumunun yaradılması və panel və Apellyasiya Hesabatlarının həyata keçirilməsi üçün daha güclü prosedurlar, o cümlədən qisas hüququ və müəyyən hallarda çarpaz cavab tədbirləri ilə bağlı xüsusi qaydalar. Bu xüsusiyyətlərə görə Razılaşma istənilən beynəlxalq təşkilatda mövcud olan ən sürətli və effektiv mübahisələrin həlli sistemini təmin etmişdir. Yeni çərçivədə, təxminən səkkiz il ərzində çox məhdud müddət ərzində panellər və Apellyasiya orqanı tərəfindən təsirli miqdarda hüquqşünaslıq işlənib hazırlanmışdır.

Bu araşdırmada Dünya Ticarət Təşkilatında mübahisələrə baxılmasının mərhələləri ayrı-ayrılıqda təhlil edilmiş, mübahisələrə baxılmasının normativ əsasını təşkil edən sənədlər, sazişlər və müqavilələr təfsir edilmiş, mübahisə predmeti olan bir neçə iş araşdırılmış və qərarların icra edilməsi prosesi ətraflı şəkildə öz əksini tapmışdır.

***Açar sözlər:*** *Dünya Ticarət Təşkilatı, GATT, DTT, Mübahisələrin Həlli Orqanı, Panel, Apellyasiya Orqanı*

**Aytaj Almammadova**
Baku State University
master student
almmmdovaaytac@gmail.com

## The dispute settlement system of the wto

**Abstract**

It is widely recognized that the contribution of the DTT Agreement to strengthening the multilateral trading system has been greatly enhanced by the establishment of an effective mechanism for the settlement of disputes through the Dispute Settlement Understanding (the Agreement). The agreement introduced several new features in the pre-existing GATT 1947 system that strengthened the quasi-judicial nature of the mechanism. These include open time frames for dispute resolution, the right to establish a panel almost automatically at the request of a complaining party, and the automatic adoption of panel reports unless a consensus decision is reached (the "negative consensus rule"), the establishment of a permanent Appellate Body to hear appeals from panel reports, and stronger procedures for the implementation of panel and Appeal Reports, including specific rules regarding the right to retaliation and cross-replies in certain cases. Because of these features, the Agreement has provided the fastest and most effective dispute settlement system available in any international organization. Under the new framework, an impressive

amount of jurisprudence has been developed by panels and the Appellate Body in a very limited time span of about eight years.

In this study, the stages of handling disputes at the World Trade Organization were analyzed separately, the documents, agreements and contracts that constitute the normative basis for handling disputes were interpreted, several cases that were the subject of disputes were examined, and the process of implementing decisions was reflected in detail.

***Keywords:*** *World Trade Organization, GATT, WTO, Dispute Settlement Body, Panel, Appellate Body*

## Giriş

Dünya Ticarət Təşkilatının mübahisələrin həlli sistemi qaydalara əsaslanan çoxtərəfli ticarət sisteminin ən mühüm elementlərindən biridir. DTT-nin digər beynəlxalq sistemlərdən əsas fərqi onun tərəfindən qəbul edilmiş qərarların məcburi xarakter daşımasından ibarətdir. Dünya Ticarət Təşkilatının mübahisələrin həlli sistemi uzun tarixi inkişaf yolu keçmişdir. Bu inkişaf yolu öz başlanğıcını GATT-ın yaranmasından götürmüşdür. GATT özünəməxsus şəratidə yaradılmışdır. Belə ki, XX əsrin 30-cu illərinin əvvəllərində baş vermiş iqtisadi böhran və eləcə də, ikinci dünya müharibəsinin dövlətlərin iqtisadiyyatına ağır təsir edən dağıdıcı nəticələri, dövlətləri bu sahədə danışıqlara getməyə və iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədi ilə beynəlxalq mexanizm formalaşdırmağa bir növ məcbur etdi. Müvafiq şəraiti nəzərə alan dövlətlər bu sahədə münasibətləri tənzim etmək üçün Beynəlxalq Ticarət Təşkilatı yaratmaq qərarına gəldilər. Beynəlxalq Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı kimi iki mühüm strukturdan ibarət olan dünya iqtisadi sisteminin üçüncü həlqəsini təşkil etməli idi. Xüsusilə vurğulamaq lazımdır ki, Beynəlxalq Ticarət Təşkilatı Dünya Ticarət Təşkilatı ilə eyniyyət təşkil etmir (Key issues in WTO: Dispute Settlement, 2000). Beynəlxalq Ticarət Təşkilatının yaradılması məsələsi 1946-1947-ci illərdə London və Cenevredə keçirilən konfransların müzakirə predmeti olmuş və ECOSOC-un rəhbərliyi ilə keçirilən 1947-ci il Cenevre konfrasında isə Beynəlxalq Ticarət Təşkilatının Nizamnaməsi hazırlanır və Havana konfransında (1948) yekunlaşdırılır. Beynəlxalq Ticarət Təşkilatının Nizamnaməsi (Havana Xartiyası) 50-dən çox dövlət tərəfindən imzalanır. Lakin Havana Xartiyası ABŞ-da çox şiddətli hücuma məruz qaldı və Senatdan keçmək imkanı yox idi. Bu səbəbdən, baxmayaraq ki, Havana Xartiyası 50-dən çox dövlət tərəfindən imzalanır, lakin Amerikanın bu mövqeyinə görə çox dövlət tərəfindən ratfikasiya olunmur. Amerika Birləşmiş Ştatları müvafiq nizamnamədən mal ticarəti ilə bağlı bəzi qaydaları çıxardı və onunla ticarət müqavilələri olan bütün ölkələri Tariflər və Ticarət üzrə Baş Saziş (GATT) başlığı altında müvəqqəti tədbir kimi bu qaydaları qəbul etməyə dəvət etdi. Havana konfransda təmsil olunan 23 dövlət, o cümlədən ABŞ, Kanada Böyük Britaniya, Fransa ilə yanaşı, Hindistan, Braziliya və digər inkişafda olan dövlətlər beynəlxalq iqtisadi əlaqələrin qarşısında ciddi maneə olan müharibəyə qədərki dövrün tarif dərəcələrinin qarşılıqlı olaraq aşağı salınması haqqında razılığa gəldilər. Bütün razılaşdırılmış tarif güzəştləri ilə birlikdə ticarətin liberallaşdırılması üzrə qaydalar Tarif və Ticarət üzrə Baş Saziş adı ilə (General Agreement on Tarifs and Trade-GATT) müvəqqəti əsasda 1948-ci il yanvarından qüvvəyə minir (Marceau, 2000). GATT ilkin variantda Beynəlxalq Ticarət Təşkilatının yaradılmasına qədər müvəqqəti razılaşma kimi nəzərdə tutulsa da Beynəlxalq Ticarət Təşkilatını yaratmaq mümkün olmadığı üçün Dünya Ticarət Təşkilatı təsis edilənə kimi beynəlxalq ticarət münasibətlərini tənzimləyən əsas normativ-institusional sistem olaraq qalır və 1948-ci ildən 1994-cü ilə kimi beynəlxalq ticarətin əsas beynəlxalq hüquqi tənzimetmə vasitəsi kimi çıxış etmişdir. GATT çoxtərəfli ticarət sazişi funksiyasına malik olaraq yeni əlavələri ilə birlikdə beynəlxalq ticarət məcəlləsi funksiyasını yerinə yetirmişdir. GATT-ın iştirakçısı olan dövlətlərlə yanaşı qeyri-üzv dövlətlər də əksər halda daxili qanunvericilik normalarını beynəlxalq ticarət hüququnun (GATT) normalarına uyğunlaşdırmaq məcburiyyətində qalmışlar ki, bu da GATT-ın tənzi- metmə sistemindəki əhəmiyyətindən xəbər verir. GATT-1947-nin əsas mətni 1964-ci il dəyişikliyi ilə 4 hissədə təsbit edilən 38 maddədən ibarət olaraq (GATT-ın tətbiq edilməsi haqqında Protokol istisna) olmaqla GATT 1994-ü formalaşdırmışdır (Sadıqov, 2008: 389).

GATT-1947 sadəcə razılaşma funksiyasını daşıyırdı və hər hansı mexanizmə, instituta malik deyildi. Əks halda, yəni GATT-1947 instituta malik olsa idi, beynəlxalq təşkilata çevrilər və bu zaman Amerika Senatının təsdiqini əldə edə bilməzdi. GATT-1994 GATT-1947-dən fərqli sənəddir. GATT-1994 GATT-1947-nin təkmilləşdirilmiş, dəqiqləşdirilmiş variantıdır. Uruqvay raundunda GATT-1994-ün meydana gəlməsi GATT-1947-nin zəif tərəflərini aradan qaldırmaq zərurəti ilə bağlı olmuşdur. Belə ki, GATT-1947-nin yalnız bir hissəsi məcburi xarakteri daşıyırdı və üzv dövlətlərin qanunvericiliyi GATT-1947-nin normaları qarşısında üstünlüyə malik idi; GATT-1947-nin müxtəlif maddələri mətnin başa düşülməsi baxımından müxtəlif qaydada təfsir oluna bilərdi və buna görə də. nümunəvi təfsirə zərurət yaranırdı; GATT- 1947 vahid hüquqi rejim formalaşdıra bilməmişdi; kifayət qədər struktura malik olmadığı üçün beynəlxalq ticarətin «tənzimləyici» funksiyalarını da təmin edə bilməmişdi; GATT-1947 çərçivəsində mübahisənin həlli mexanizmi kifayət qədər mükəmməl deyildi və qərar təsdiq olunan zaman, məğlub olan tərəf konsensusdan istifadə etməklə onun əleyhinə çıxarılmış qərardan imtina edə bilərdi.

GATT-ın tarixində köklü dəyişiklik, şübhəsiz ki, Uruqvay raunduna (1986-1994) təsadüf edir. Uruqvay raundu GATT çərçivəsində həyata keçirilən çoxtərəfli ticarət danışıqlarının 8-ci raundu olaraq Dünya Ticarət Təşkilatının 1995-ci il yanvarın 1-dən fəaliyyətinin başlanğıcını qoyur. Uruqvay raundunun sazişlər paketi təqribən 50 çoxtərəfli sazişi və Dünya Ticarət Təşkilatının təsisi haqqında sazişləri əhatə edir. Bununla da, dünyada iqtisadi təhlükəsizliyin təminatlarından başlıcası olan Dünya Ticarət Təşkilatının əsası qoyulmuşdur (Bello, 90).

DTT-nin mantrası ondan ibarətdir ki, o, "üzv tərəfindən idarə olunan təşkilatdır". Bunun mənası odur ki, qərarvermə prosesində təşkilatın orqanlarının orda olmasından və ya muxtar səlahiyyətlərinin olmasından aslı olmayaraq bütün qərarlar müstəsna olaraq "Razılığa gələn Tərəflərin" əlində idi. Bu, mübahisələrin həlli sisteminə necə təsir edirdi? Yuxarıda qeyd etdiyimiz kimi başlanğıcda mübahisələrin vahid həlli sistemi mövcud deyildi (Yerxa, 2000: 20).

DTT çərçivəsində mübahisələrin həlli sisteminin başlanğıcı "Tədqiqat qrupunun" yaradılması ilə qoyulmuşdur deyə bilərik. Belə ki, GATT çərçivəsində Razılığa gələn Tərəflər mübahisə olduqda "tədqiqat qrupu" yaratmaqla mübahisəni həll etməyə səy göstərmişlər. Zaman keçdikcə bu "xüsusi qrup", daha sonra isə "panel" adını daşımışdır.

"Tədqiqat qrupu" danışıqlar vasitəsilə mübahisənin həll edilməsinin ən yumşaq formasını təşkil edirdi, "xüsusi qrup" özündə mediasiyanın, "panel" isə bir növ arbitrajın xüsusiyyətlərini daşıyırdı, lakin o arbitraj deyildi. Sözügedən panelin qərarları (hesabatları) arbitrajın qərarları kimi məcburi deyildi və yalnız "Müqavilə tərəflərinin" müsbət konsensusu olduqda qəbuledilən hesab edilirdi. Həmin dövrdə panel bir növ razılaşdırıcı orqan idi və o, arbitraj deyil, ən yaxşı halda "barışdırıcı orqan" (conciliation) sayıla bilərdi. Panel də, barışdırıcı orqan kimi mübahisəyə baxır və qüvvədə olan qanunvericiliyə əsasən tövsiyələr hazırlayırdı. Lakin müvafiq tövsiyələr məcburi xarakter daşımırdı və mübahisə tərəfləri öz iradələrinə uyğun olaraq onları qəbul və ya rədd edə bilərdilər (Abi-Saab, 2000: 20).

1994-cü ildə Mərakeş Nazirlər Konfransında DTT-nin yaradılması ilə bağlı baş verənlər çox mühüm keyfiyyət dəyişikliyinə səbəb oldu. Belə ki, əgər bu dövrə qədər panelin tövsiyələrinin qəbul edilməsi üçün tərəflərin müsbət konsensusu tələb olunurdusa, müvafiq konfransdan sonra isə panelin hesabları avtomotik olaraq qüvvətə minirdi və yalnız həmin qərarının icrasının dayandırılması üçün tərəflərin mənfi konsensusu tələb olunurdu. Başqa sözlə desək, artıq panelin qərarlarının qüvvəyə minməsi ilə tərəflərin razılığa gəlməsi arasındakı aslılıq nisbətən azalmışdı (Peter Van Den Bossche, 2000: 20).

Mübahisələrin həlli çoxtərəfli ticarət sisteminin mərkəzi sütunudur və DTT-nin qlobal iqtisadiyyatının sabitliyinə unikal töhfəsidir. Mübahisələrin həlli vasitəsi olmadan qaydalara əsaslanan sistem daha az təsirli olardı, çünki bu halda qaydaların icrası mümkün olmazdı. DTT-nin proseduru qanuna uyğundur və bu, ticarət sistemini daha təhlükəsiz və proqnozlaşdırıla bilən edir.

DTT mübahisələrin həlli sisteminin əsas məqsədi mühakimə yürütməkdən ibarət deyildir, müvafiq sistemdə prioritet məsələ mübahisləri danışıqlar əsasında həll etməkdən ibarətdir. DTT tərəfindən elan olunmuş 2008-ci ilin yanvar ayına qədər olan statistikaya əsasən 369 işdən yalnız

136-sı tam panel prosesinə çatmışdır. Qalanların əksəriyyəti ya "məhkəmədən kənar" qaydada həll olunmuş, ya da 1995-ci ildən bəri uzunmüddətli məsləhətləşmə mərhələsində qalmışlar (Yerxa, 2000: 20).

DTT-də mübahisələrə baxılması ədalətlilik, çeviklik, effektivlik və qarşılıqlı qəbul edilənlilik prinsiplərinə söykənir. DTT-də mübahisələr mahiyyətcə yerinə yetirilməmiş öhdəliklərlə bağlıdır. DTT üzvləri razılaşırlar ki, əgər onlar üzv ölkələrin DTT-nin ticarət qaydalarını pozduqlarına inanırlarsa, birtərəfli tədbirlər görmək əvəzinə, mübahisələrin həlli üçün çoxtərəfli sistemdən istifadə edəcəklər. Bu, razılaşdırılmış prosedurlara riayət etmək və qərarlara hörmət etmək deməkdir (Brodies, 2000: 20).

Köhnə GATT çərçivəsində mübahisələrin həlli proseduru mövcud idi, lakin onun müəyyən qrafikləri yox idi, qərarların qarşısını almaq daha asan idi və bir çox işlər uzun müddət nəticəsiz olaraq davam edirdi. Uruqvay Raundu prosedurda daha aydın müəyyən edilmiş mərhələlərlə daha strukturlaşdırılmış bir proses təqdim etdi. Prosedurun müxtəlif mərhələlərində müəyyən edilmiş çevik son tarixlərlə, işin həlli üçün lazım olan müddət üçün daha çox nizam-intizam tətbiq etdi. Mübahisələrin həlli üzrə prosedur və qaydalar haqqında Razılaşmada (Understan- ding on Rule and Prosedures Governing Settlement of Disputes) vurğulanır ki, DTT-nin səmərəli fəaliyyət göstərməsi üçün təcili nizamlanma vacibdir. O, mübahisələrin həlli zamanı əməl edilməli olan prosedurları və cədvəli kifayət qədər təfərrüatlı şəkildə müəyyən edir. Bir halda birinci qərardadın çıxarılmasına qədər bütün hüquqi vasitələrdən istifadə olunur və bütün mərhələlərdən keçirsə, o, adətən təxminən bir ildən çox çəkməməlidir - işdən şikayət verildiyi təqdirdə 15 ay. Razılaşdırılmış vaxt məhdudiyyətləri çevikdir və əgər iş təcili hesab edilirsə (məsələn, tez xarab olan mallar iştirak edirsə) o, mümkün qədər sürətləndirilir (Jackson, 2000: 20).

Uruqvay raundu razılaşması məğlub olan ölkənin qərarın qəbuluna mane olmasını qeyri-mümkün etdi. Əvvəlki GATT proseduruna əsasən, qərarlar yalnız konsensus yolu ilə qəbul edilə bilərdi, yəni bir etiraz qərara mane ola bilər. İndi konsensus olmadığı təqdirdə qərarlar avtomatik olaraq qəbul edilir və qərarı rədd etmək – qərarı bloklamaq istəyən hər bir ölkə bütün digər DTT üzvlərini (işdəki rəqibi də daxil olmaqla) öz mövqeyinin haqlı olduğuna inandırmalıdır (Prost, 2000: 20).

Tənzimetmə prosedurlarının müxtəlifliyinə baxmayaraq, bütün mübahisələrə Mübahisələrin həlli üzrə Orqanda baxılır. Mübahisələrə baxılması mexanizmi iki mərhələdə Mübahisələrin həlli üzrə Orqan tərəfindən yaradılan panel çərçivəsində və Apellyasiya üzrə Orqan səviyyəsində həyata keçirilir. Mübahisələrin həlli orqanı işə baxılması üçün ekspertlərdən ibarət "panel" yaratmaq və panellərin nəticələrini və ya apellyasiya şikayətinin nəticələrini qəbul etmək və ya rədd etmək səlahiyyətinə malikdir. O, qərarların və tövsiyələrin icrasına nəzarət edir və bir ölkə qərara əməl etmədikdə "qisas almağa" icazə vermək səlahiyyətinə malikdir (Gabrielle Marceau, 2000: 20).

Birinci mərhələ: konsultasiya (60 günə qədər). Hər hansı digər hərəkətə keçməzdən əvvəl mübahisəli t ərəflər bir-biri ilə danışmalıdırlar ki, fikir ayrılıqlarını özləri həll edə bilsinlər. Əgər bu uğursuz olarsa, onlar DTT-nin baş direktorundan vasitəçilik etməsini və ya hər hansı başqa yolla kömək göstərməsini xahiş edə bilərlər.

İkinci mərhələ: panel (bir panelin təyin edilməsi üçün 45 günə qədər, üstəgəl panelin yekunlaşması üçün 6 ay). Konsultasiya mərhələsi uğursuz olarsa, iddiaçı ölkə panelin təyin edilməsini xahiş edə bilər. "Müttəhimlər kürsüsündə olan" ölkə panelin yaradılmasına bir dəfə mane ola bilər, lakin əgər panelin təyin edilməsinə qarşı konsensus yoxdursa Mübahisələrin Həlli Orqanının bununla bağlı təşkil etdiyi ikinci iclasda panelin təyin edilməsinə cavabdeh dövlət tərəfindən etiraz edilə bilməz.

Rəsmi olaraq, panel Mübahisələrin Həlli Orqanına qərarlar və ya tövsiyələr verməkdə kömək edir. Lakin panelin hesabatı yalnız Mübahisələrin Həlli Orqanında konsensusla rədd edilə bildiyi üçün onun nəticələrini ləğv etmək çətindir. Panelin nəticələri istinad edilən razılaşmalara əsaslanmalıdır.

Panelin yekun hesabatı adətən altı ay ərzində mübahisə tərəflərinə təqdim edilməlidir. Təcili hallarda, o cümlədənmübahisə predmeti tez xarab olan mallara aid olduqda, bu müddət üç aya qədər qısaldılır.

Paneldə mübahisələrə baxılması əsasən 9 mərhələdən ibarətdir. Müvafiq mərhələləri qısaca olaraq aşağıdakı formada təsvir etmək olar.

- İlk iclasdan əvvəl: mübahisədə iştirak edən iddiaçı tərəf öz iddiasını, cavab tərəf isə idddianı təkzib edən etirazını yazılı şəkildə panelə təqdim edir.
- Birinci dinləmə: iddiaçı və cavabdeh ölkə (və ya ölkələr) və eləcə də mübahisədə maraqlı olduqlarını elan edən üçüncü tərəflər panelin ilk iclasında öz mövqelərini iddialarını bildirirlər.
- Təkziblər: iştirakçı ölkələr panelin ikinci iclasında yazılı təkzibləri və şifahi arqumentlər təqdim edirlər.
- Ekspertlər: əgər bir tərəf elmi və ya digər texniki məsələləri qaldırarsa, panel məsləhətçi hesabat hazırlamaq üçün ekspertlərlə məsləhətləşə və ya ekspert qrupu təyin edə bilər.
- Birinci layihə: panel öz hesabatının təsviri (fakt və arqument) hissələrini iki tərəfə təqdim edir və onlara şərh vermək üçün iki həftə vaxt verir. Bu hesabat panelin gəldiyi nəticələri özündə ehtiva etmir.
- Aralıq hesabat: Bundan sonra panel öz nəticələri də daxil olmaqla aralıq hesabatı hər iki tərəfə təqdim edir və onlara araıq hesabatı nəzərdən keçirmək üçün bir həftə vaxt verir.
- Baxış: Baxış müddəti iki həftədən çox olmamalıdır. Həmin müddət ərzində panel hər iki tərəflə əlavə görüşlər keçirə bilər.
- Yekun hesabat: Yekun hesabat iki tərəfə təqdim edilir və üç həftə sonra bütün DTT üzvlərinə paylanır. Panel mübahisəli ticarət tədbirinin DTT razılaşmasını və ya öhdəliyini pozduğuna qərar verərsə, o, tədbirin DTT qaydalarına uyğun aparılmasını tövsiyə edir. Panel bunun necə edilə biləcəyi barədə öz təklifini irəli sürə bilər.
- Hesabatın qərara çevrilməsi: Konsensus onu rədd etmədiyi halda, hesabat 60 gün ərzində Mübahisələrin Həlli Orqanının qərarı və ya tövsiyəsi olur. Hər iki tərəf hesabatdan apellyasiya şikayəti edə bilər (bəzi hallarda isə hər iki tərəf şikayət edir) (Matthias Oesch, 2000: 20).

Mübahisənin hər iki tərəfi panelin qərarından şikayət edə bilər. Tərflərin apellyasiya şikayətləri qaydaların müvafiq bəndinə əsaslanmalıdır. Apellyasiya şikayəti mövcud sübutların yenidən nəzərdən keçirilməsi və ya yeni məsələlərin araşdırılması ilə bağlı ola bilməz.

Hər bir müraciət Mübahisələrin Həlli Orqanı tərəfindən yaradılan və DTT-yə üzvlük dairəsini geniş şəkildə təmsil edən daimi yeddi üzvdən ibarət Apellyasiya Orqanının üç üzvü tərəfindən dinlənilir. Apellyasiya orqanının üzvlərinin səlahiyyət müddəti dörd ildir. Onlar hüquq və beynəlxalq ticarət sahəsində tanınmış, heç bir hökumətlə əlaqəsi olmayan şəxslər olmalıdırlar. Apellyasiya panelin qərarın qüvvədə saxlanılması, dəyişdirilməsi və ya ləğv edilməsi barədə hesabat çıxara bilər. Normalda apellasiya mərhələsində müraciətlərə baxılma müddəti 60 gündür, istisna hallarda bu müddət 90 günə qədər uzadıla bilər (Oesch, 2000).

Dünya Ticarət Təşkilatı çərçivəsində Mübahisələrin həlli üzrə Orqanın qərar və tövsiyələrinin dərhal və tez bir zamanda yerinə yetirilməsi Təşkilatın bütün üzvlərinin xeyrinə beynəlxalq iqtisadi mübahisənin effektiv həllinin tənzim edilməsinə yönəlib. Mübahisələrin həlli üzrə Orqan beynəlxalq iqtisadi mübahisələrin tənzimlənməsi üzrə qəbul edilən qərarın icrasına nəzarət funksiyasını da həyata keçirir. İstər jüri. istərsə də Apellyasiya Orqanı tərəfindən məruzənin qəbul edilməsindən sonra 30 gün ərzində Mübahisələrin həlli üzrə Orqan müşavirə çağırır. Əgər qərarın dərhal icra olunmasının mümkünsüzlüyü müəyyən edilərsə, Mübahisələrin həlli üzrə Orqan qərarın icra edilməsi üçün «ağlabatan müddət» müəyyən edir. Əgər müvafiq tərəf «ağlabatan müddət» rejiminə əməl etməzsə, onda həmin tərəflər qarşılıqlı qəbul edilən kompensasiyaları, məsələn, iddiaçı üçün xüsusi maraq kəsb edən tarif güzəştlərinin tətbiq edilməsini müəyyən etmək üçün iddiaçı ilə danışıqlara getməlidir. Əgər 20 gün ərzində kompensasiyaların tətbiq edilməsi barədə razılıq əldə edilməzsə, iddiaçı tərəf Mübahisələrin həlli üzrə Orqandan Dünya Ticarət Təşkilatı sazişləri ilə cavabdehə münasibətdə təqdim edilmiş güzəştlərin və ya öhdəliklərin icra edilməsinin dayandırılmasını tələb edə bilər. Əgər iddiaçının tələbləri konsensus əsasında Mübahisələrin həlli

üzrə Orqan tərəfindən rədd edilməzsə, müəyyən olunmuş «ağlabatan müddət» bitdikdən sonra müvafiq orqan iddiaçı tərəfindən müvafiq tədbirlərin görülməsini sanksiyalaşdırmalıdır.
Göründüyü kimi DTT-nin Mübahisələrin Həlli Orqanı təşkilat çərçivəsində mübahislərin həlli üzrə icraedici və nəzarətedici orqan rolunu oynayır.

## Nəticə

Dünya Ticarət Təşkilatının mübahisələrin həlli sistemi qaydalara əsaslanan çoxtərəfli ticarət sisteminin ən mühüm elementlərindən biridir. DTT-nin digər beynəlxalq sistemlərdən əsas fərqi onun tərəfindən qəbul edilmiş qərarların məcburi xarakter daşımasından ibarətdir. Müvafiq araşdırmanın nəticələri Azərbaycanın DTT-na üzv olmaq yolunda atdığı addımlara böyük töhfə olacaqdır. Belə ki, araşdırma nəticəsində mübahisələrə baxılması prosesi, xüsusilə də, qərarların məcburi icra edilməsi mexanizmi, edilmədiyi təqdirdə DTT üzvü olacaq Azərbaycanı gözləyən sanksiyalar öncədən müəyyənləşdirilərək, qanunvericiliyin DTT sazişlər paketinə uyğunlaşdırılması prosesləri sürətləndirilə bilər.

## Ədəbiyyat

1. Key issues in WTO: Dispute Settlement. (2000). The first ten years. Edited by Yerxa and Bruce Wilson. Cambridge.
2. Marceau, G. (2000). "Consultations and the panel process in the WTO dispute settlement system". Cambridge.
3. Sadıqov, Ə. (2008). Beynəlxalq İqtisadi Hüquq, 389 s.
4. Bello, J. The WTO Dispute Settlement Understanding: Less is more (American Journal of International Law), 90 p.
5. Yerxa, R. (2000). "The power of the WTO dispute settlement system". Cambridge.
6. Abi-Saab, G. (2000). "The WTO dispute settlement and general international law". Cambridge.
7. Peter Van Den Bossche. (2000). "The making of the 'World Trade Court": the origins and development of the Appellate Body of the World Trade Organization". Cambridge.
8. Brodies, A. (1984). The Convention on the Settlement of Insestment Disputes Between States and Nationals of Other States V ICSID Review. Vol 2. № 7, p.66-73.
9. Jackson, J. The WTO Dispute Settlement Understanding; Misunderstandings on the Nature of the Legal Obligation /American Journal of International Law. v.90
10. Prost, O. (2000). "Confidentiality issues under the DSU: fact-finding process versus confidentiality". Cambridge.
11. Oesch, M. (2000). "Standards of review in WTO panel proceedings". Cambridge.

Göndərilib: 13.02.2023 Qəbul edilib: 22.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/65-70

**Mircamal Abbasov**
Bakı Dövlət Universiteti
magistrant
abbasov4242@gmail.com

# BAYDENİN YAXIN ŞƏRQ SİYASƏTİ: TRAMPIN YAXIN ŞƏRQ SİYASƏTİNDƏKİ MİRAS VƏ DƏYİŞİKLİKLƏR

**Xülasə**

Prezident Bayden 2020-ci il Amerika prezident seçkilərində Tramp administrasiyasından fərqli Yaxın Şərq siyasəti təklif etdi. Bayden öz növbəsində seçki kampaniyasının mətbuat buraxılışında Trampın səhvlərini düzəldəcəyini bəyan etmişdi. Şübhəsiz ki, Trampın Yaxın Şərqdən Asiya və Çinə apardığı xarici siyasət Yaxın Şərqdə siyasi boşluqların və regionun nüfuzlu dövlətlərinin Yaxın Şərqdə aktiv rol oynamasına səbəb olub. Baydenin müəyyən edilmiş nizamın reflekslərinə uyğun olaraq formalaşan əsas siyasətlərin icrasında fərq yaradacaq yanaşmaları, metodları və üstünlükləri var. Baydenin prioritetləri arasında Suriya, kürdlər, S-400 və NATO ilə əlaqələr kontekstində Türkiyə; Trampın pozduğu nüvə sazişinə qayıtmaq məqsədinə görə İran. Buna əsaslanaraq, bu məqalədə Bayden administrasiyasının Yaxın Şərq siyasəti ilə Tramp administrasiyasının İranın nüvə problemi ilə bağlı siyasəti, ABŞ-ın Yaxın Şərqdəki hərbi mövcudluğu və müttəfiqlərin münasibətləri arasındakı oxşarlıq və fərqləri təhlil etmək üçün müqayisəli araşdırma metodundan istifadə olunacaq. Bayden administrasiyası Trampın bəzi siyasətlərini miras alsa da, ABŞ-dakı daxili vəziyyətə, demokratiya və insan haqları dəyərlərinə əsaslanaraq dəyişikliklər etsə də, Baydenin Yaxın Şərq siyasətində daha böyük irəliləyiş əldə etmək hələ də çətindir.

***Açar sözlər:*** *Baydenin Yaxın Şərq Siyasəti, Trampın Yaxın Şərq Siyasəti, İranın nüvə problemi, ABŞ-ın hərbi mövcudluğu, insan hüquqları*

**Mircamal Abbasov**
Baku State University
master student
abbasov4242@gmail.com

## Biden's Middle East policy: Legacy and changes in Trump's Middle East policy

**Abstract**

President Biden has proposed a different Middle East policy than the Trump administration in the 2020 US presidential election. Biden, in turn, declared in the press release of the election campaign that he would correct Trump's mistakes. Undoubtedly, Trump's foreign policy from the Middle East to Asia and China has caused political gaps in the Middle East and influential states of the region to play an active role in the Middle East. Biden has approaches, methods, and preferences that will make a difference in implementing key policies shaped by the reflexes of the established order. Biden's priorities include Syria, the Kurds, S-400 and Turkey in the context of relations with NATO; Iran for its goal of returning to the nuclear deal that Trump violated. Based on this, this article will use a comparative research method to analyze the similarities and differences between the Biden administration's Middle East policy and the Trump administration's policy on Iran's nuclear issue, the US military presence in the Middle East, and the relations of allies. Although the Biden administration inherited some of Trump's policies and made changes based on the domestic situation in the United States, the values of democracy and human rights, it is still difficult to make greater progress on Biden's Middle East policy.

***Keywords:*** *Biden's Middle East Policy, Trump's Middle East Policy, Iran's nuclear problem, US military presence, human rights*

## Giriş

ABŞ Dövlət Katibi Hillari Klinton 2011-ci ildə "Foreign Policy" jurnalında "Amerikanın Sakit Okean Əsri" adlı imzalı məqalə dərc etdikdən sonra Obama administrasiyası Asiya-Sakit Okean regionunda yenidən balanslaşdırma strategiyası həyata keçirib. 5 ildən sonra Trampın hakimiyyətə gəlməsi və Çin ilə ABŞ arasında strateji rəqabətin güclənməsi ilə ABŞ Yaxın Şərqdə strateji daralma siyasəti aparır. Bayden administrasiyası hakimiyyətə gəldikdən sonra Trampın yürütdüyü Yaxın Şərq siyasəti Trampın Yaxın Şərq siyasəti ilə müqayisədə müəyyən dəyişikliklərə məruz qalıb, lakin miras qalan hissələr də var. Bayden administrasiyasının Yaxın Şərqdəki siyasəti əsasən Baydenin manifestinə əsaslanır. Baydenin seçki manifestində ilk diqqət İranın nüvə məsələsi olan nüvə silahının yayılması məsələsidir. Bayden İranın nüvə sazişinə qayıtmağı təklif edir (Zhichao, 2021: 30-37). İkinci diqqət müharibə və ABŞ-ın Yaxın Şərqdəki hərbi gücü məsələsidir. ABŞ Yəməndəki vətəndaş müharibəsini dayandıracaq. Üçüncüsü, müttəfiqlərlə münasibətdir. Bayden ABŞ və regional müttəfiqləri arasında ABŞ-ın insan haqlarına və digər demokratik dəyərlərə vurğunu ehtiva edən münasibətləri yenidən qurmağa çalışır (The American Presidency Project, 2020). Bu məqalə Trampın Yaxın Şərq siyasəti ilə Baydenin Yaxın Şərq siyasətini bu üç aspektdə ardıcıllıqla müqayisə edəcək. Bu məqalə Tramp və Baydenin Yaxın Şərq siyasətinin əsas xüsusiyyətlərini və dəyişikliklərini göstərəcək və ABŞ-ın Yaxın Şərq siyasəti ilə bağlı gələcək araşdırmalara kömək edəcək.

**Trampın İranın nüvə problemi ilə bağlı siyasəti.**

8 may 2018-ci ildə Prezident Tramp ABŞ-ın "İran nüvə sazişi (White House, 2018) kimi xatırlanan Birgə Hərtərəfli Fəaliyyət Planından, JCPOA-dan çıxacağını açıqladı. Tramp administrasiyasının İrana qarşı müttəfiqlərlə çalışacağını, İrana qarşı əlavə sanksiyaların tətbiqi və rejimin qonşularını təhdid edən raket və silahların yayılmasına, qlobal ticarətə və naviqasiya azadlığına toxunulmalıdır (National Public Radio, 2017). Bu, Obama administrasiyası dövründə ABŞ-İran münasibətlərinin sona çatması idi. Qeyd edək ki, Trampın Obamanın siyasətinə uyğunlaşması ABŞ-ın İran məsələsində əsas maraqlarının dəyişməsi demək deyil.Trampın açıqlamasına görə, ABŞ-ın İranın nüvə silahı əldə etməsinin qarşısını almaq öhdəliyinə sadiq qaldığını anlamaq açıq-aydın görünür. O, həmçinin Hörmüz boğazında naviqasiya azadlığını təmin etməli və İranın və ya onun Yaxın Şərqdəki bəzi ölkələrindəki vəkillərinin ABŞ-ın Yaxın Şərqdəki müttəfiqlərini birbaşa təhdid etməsinin qarşısını almalıdır (Alken, 2020). ABŞ-ın İran məsələsində əsas maraqları dəyişməyib, lakin Tramp administrasiyasının diplomatik strategiyası əhəmiyyətli dəyişikliklərə məruz qalıb. Ənənəvi Amerika xarici siyasəti ümumiyyətlə ondan ibarətdir ki, Birləşmiş Ştatlar beynəlxalq nizamı çoxtərəfli əməkdaşlıq çərçivəsində idarə etməyə çalışır. Trampın İranın nüvə problemi ilə bağlı xarici siyasətində dəyişikliyə səbəb olan iki amil var. Birincisi, Tramp administrasiyası daxilində ideoloji münaqişədir. Tramp administrasiyasını üç fraksiyaya bölmək olar: Millətçilər, Libertarist olmayan qeyri-müdaxiləçilər və beynəlmiləlçilər, o cümlədən neokonservatorlar və iqtisadi beynəlmiləlçilər (Leverett, Leverett, Zhinan, 2018: 185-198). Tramp administrasiyasının ikinci ilində millətçilər tədricən üstünlüyü ələ keçirdilər. Bu dəyişiklik Tramp administrasiyasının İran siyasətində dəyişikliyə səbəb oldu və nəticədə ABŞ-ın İranın nüvə sazişindən çıxmasına səbəb oldu. İkincisi, Tramp təbliğatda radikal İslamı və İslam terrorizmini İranla bağlayır ki, bu da Vaşinqton və Tehranın əməkdaşlıq imkanlarını daha da azaldır. Nəhayət, İranın nüvə sazişindən çıxmasından sonra İranın regional varlığını cilovlamaq üçün Tramp administrasiyası Səudiyyə Ərəbistanı və İsraili tam dəstəkləməyi, o cümlədən bir çox xarici siyasətdə və silah satışında iki ölkəyə üstünlük verməyi və regional koalisiya qurmağı seçdi. 2018-ci ilin sentyabrında Pompeo 6 Körfəz Əməkdaşlıq Şurası ölkəsinin və Misir və İordaniyanın xarici işlər nazirləri ilə kollektiv şəkildə görüşdü və bu 8 ölkə ilə "Yaxın Şərq Strateji Alyansı"nın yaradılmasını rəsmən elan etdi (Chang, 2019).

**Baydenin nüvə problemi ilə bağli siyasəti.**

Vyananın 30 iyul 2021-ci ilə qədər ABŞ-ın rəhbərlik etdiyi qərb ölkələri ilə İran arasında İranın nüvə proqramı ilə bağlı altı raund danışıqlar apardığını nəzərə alaraq, Bayden İranın nüvə sazişinə qayıtmağa çalışıb. Tramp kimi Baydenin İrana qayıdışının da daxili siyasi mühitdə ictimai rəy əsası

var. Qlobal Məsələlər üzrə Çikaqo Şurasının və İran Sorğusunun bu yaxınlarda apardığı sorğunun təhlili göstərir ki, zaman keçdikcə sazişə dəstək azalsa da, Amerika və İran ictimaiyyətinin böyük bir hissəsi hələ də JCPOA-nı dəstəkləyir. Təxminən on amerikalıdan altısı (57%) ABŞ-ın nüvə silahlarına qarşı sərt məhdudiyyətlər müqabilində İrana qarşı bəzi beynəlxalq iqtisadi sanksiyaları ləğv edən sazişdə iştirakının tərəfdarıdır. Bununla belə, dəstək partiya mənsubiyyəti ilə müəyyən edilir (Witzig, 2021). Demokratların əksəriyyəti (74%), respublikaçıların azlığı (39%) ilə müqayisədə sazişi dəstəklədiyini bildirir. Qeyd edək ki, hər on amerikalıdan dördü (39%), o cümlədən respublikaçı respondentlərin əksəriyyəti (58%) ABŞ-ın iştirakına qarşı olduğunu bildirib. Daxili siyasətin dəstək dərəcəsi ilə yanaşı, Baydenin İran nüvə sazişinə qayıtmasının başqa bir açıq xüsusiyyəti "gecikmə strategiyasıdır". Bayden administrasiyası İranın nüvə sazişi üzrə effektiv irəliləyiş əldə etməyə tələsmir (Aljazeera, 2020). Vyana Konfransı altı raunddan sonra dalana dirəndi, İran nümayəndəsi konfrans zamanı yeddi ziddiyyəti qeyd etdi, o cümlədən Bayden administrasiyası gələcək regional vəziyyətin bəzi məsələlərini İranın nüvə sazişinə bağlamağa ümid edirdi və Bayden administrasiyası bu barədə yazılı sənədləri İranın nüvə sazişindən çıxmayacağına əmin olmaq ucun imzalamaqdan imtina etdi.Ola bilər ki, Bayden administrasiyası İranla danışıqlarda üstünlük və təşəbbüs əldə etmək üçün bilərəkdən gecikdirmə strategiyasından istifadə edib. ABŞ sanksiyaları və Covid 19 pandemiyasından təsirlənən İranın milli iqtisadiyyatı uzunmüddətli tənəzzülə uğrayıb, baxmayaraq ki, iranlılar pandemiya və xarici sanksiyaları İranın zəif iqtisadi göstəricilərini müəyyən edən ən mühüm amil kimi görmürlər (Kafura, 2021).

**Trampın regional münaqişələr və ABŞ-ın hərbi mövcudluğu ilə bağlı siyasəti.**

Yaxın Şərqdə genişmiqyaslı münaqişələrin və ABŞ-ın hərbi mövcudluğunun mövcud olduğu iki yer var: Suriya və İraq.

**Suriya.**

Obama administrasiyasının ilk günlərində Bəşər rejimini devirmək ABŞ-ın Suriyadakı vətəndaş müharibəsinə qarışmasının ən mühüm səbəblərindən biri idi. Bununla belə, zaman keçdikcə Tramp administrasiyası güclənən Çin-ABŞ strateji rəqabətinin və Yaxın Şərqin daralma strategiyasının təsiri altında, Tramp administrasiyası diqqətini İranın Suriyadakı gücünü azaltmağa və İŞİD-i məhv etməyə yönəltdi. İran və ona bağlı şiə milisləri ilə müqavilə bağlamaq ABŞ-ın Yaxın Şərqdəki mühüm geosiyasi planlarından biridir. Tramp administrasiyası ümid edirdi ki, İranın yaratdığı "Şiə Ayparası" cilovlanacaq və İran ittifaqını parçalayacaq, bu da əlaqəni çətinləşdirəcək və təcrid olunmuş nöqtələrə çevriləcək (Brandon, Weichert, 2017). Bu əsas məqsədlə müqayisədə İslam Dövləti ilə mübarizə Amerikanın dəyər ənənələrinə və müttəfiqlərinin təhlükəsizliyinə və regional vəziyyətin tarazlığına dair mülahizələrə əsaslanır, ABŞ-ın Yaxin Şərqdə öz maraqlarını qorumaq üçün yekun akta deyil.Bu iki məqsədlə yanaşı, Tramp administrasiyası Rusiyanın Suriya bölgəsindəki güclü təsirini də cilovlamaq istəyirdi. Lakin Suriya hökumət qüvvələrinin döyüş meydanında qazandığı qələbələrlə Rusiya və İranın Suriyada təsiri günü-gündən artır. Nəticədə ABŞ-ın Suriyanın siyasi vəziyyətinə təsiri getdikcə azalır və Rusiyanı cilovlamaq ümidi getdikcə xəyala çevrilir (Dongchao, 2020). İŞİD-in məğlubiyyəti ilə Trampın ABŞ-ın Suriyadakı hərbi varlığı ilə bağlı siyasəti dilemma ilə üzləşdi. Bir tərəfdən, daxili Yaxın Şərqdə yüksək investisiyalı hərbi mövcudluğa son qoymağı tələb etdi; digər tərəfdən ABŞ-ın regional təsirini və geosiyasi maraqlarını qoruyub saxlamaq zərurəti idi. Geri çəkilmə dalğasından sonra (18), ABŞ hələ də Suriyada 400-ə yaxın əsgəri qaldı.

**İraq.**

Tramp administrasiyasının İraq siyasəti açıq-aşkar mərhələ xüsusiyyətlərinə malikdir. 2019-cu ildən əvvəl Tramp administrasiyası açıq-aydın Obama administrasiyasının İraq siyasətinin bəzi hissələrini miras almışdı ki, bu da İranın İŞİD-ə qarşı müharibədə müttəfiq olmasa da, tərəfdaş ola biləcəyi anlayışına əsaslanırdı. Tramp administrasiyası hələ də İranın İraqdakı hadisələrini izləsə də, İranın bəzi hərəkətlərinə, məsələn, İraqda güclənən Xalq Səfərbərlik Birliklərinə (XQB) göz yumdu. 2019-cu ildən sonra, xüsusən də Bağdadi ABŞ qüvvələri tərəfindən öldürüldükdən sonra, İraqdakı ABŞ qüvvələrinin əsas vəzifəsi İranı izləməyə dəyişdi (Chicago Council Surveys, 2021). CBS telekanalına müsahibəsində Tramp bəyan edib ki, ABŞ hərbi qüvvələri İraqda təkcə İŞİD-ə

hücumu davam etdirməməli, həm də İranı müşahidə etmək üçün qalmalıdır. Tramp bildirib ki, ABŞ-ın İraqdakı bazası İranda nüvə silahı və ya digər şeylərlə bağlı fəaliyyətlər üçün monitorinq mərkəzi rolunu oynayacaq. Hər halda, Tramp administrasiyası İraqdakı hərbi mövcudluğunun azaldılmasını dəstəkləyib. 2020-ci ilin sentyabr ayından etibarən Tramp administrasiyası İraqdakı hərbçilərin sayını 5200-dən 3000-ə endirmək planlarını açıqlayıb (Mann Leverett, 2017).

**Baydenin regional münaqişələr və ABŞ-ın hərbi mövcudluğu ilə bağlı siyasəti.**

**Suriya.**

Bu günə qədər ABŞ-ın Suriyada hələ də 900-ə yaxın əsgəri var, o cümlədən bir sıra Yaşıl Berelilər. Birləşmiş Ştatlar Suriyadakı qüvvələrini artırıb artırmayacağına aydınlıq gətirməyib, lakin Pentaqon və ABŞ-ın rəhbərlik etdiyi İŞİD-ə qalib gəlmək üçün Qlobal Koalisiya ABŞ-ın İŞİD-lə mübarizə üçün Suriyada daha kiçik hərbi varlığını saxlamağa davam edəcəyini açıqlayıb. Bayden administrasiyası üçün ABŞ Suriya məsələsinə o qədər də qarışmayacaq, lakin Suriyadakı təsirini hələ də saxlamalıdır (Rehmanpour, 2021). 2020-ci il seçkilərində Baydenin manifestində. Bayden elan etdi ki, o, vətəndaş cəmiyyəti və demokratiya tərəfdarları ilə yerdə dayanmağı və daha çox suriyalının səsini çıxarmaq üçün siyasi nizamlamanın formalaşmasına kömək etməyi öhdəsinə götürəcək. Bayden administrasiyası Suriyadakı insan hüququndan hərbi müdaxilədən başqa qeyri-dövlət müttəfiqlərini dəstəkləmək üçün istifadə edir və İraqda başlamış daha geniş yardım kanalını yenidən açan BMT qətnaməsini qəbul etmək şansı axtarır (Aljazeera, 2021). Çin və Rusiyanın nəzərində bu təklif Suriya üsyançılarına maskalanmış yardım idi, ona görə də təklif Çin və Rusiya tərəfindən rədd edildi. Çin və Rusiyanın veto qoymasına baxmayaraq, 2021-ci il martın 30-da ABŞ "Suriya böhranına cavab vermək üçün 596 milyon dollardan çox yeni humanitar yardım" təqdim etdi (Aljazeera, 2021).

**İraq.**

Əfqanıstandakı qoşunların çıxarılması ilə müqayisədə, Bayden administrasiyası üçün İraqda eyni şeyi etmək çətindir. Ötən ilin dekabrında Bağdadda Yaşıl Zona hücumundan sonra Birləşmiş Ştatlar İranın dəstəklədiyi şiə silahlı qruplaşmalarını sıxışdırmaq üçün səylərini artırıb. 25 fevral 2021-ci ildə ABŞ qüvvələri Suriyanın şərqində İranın dəstəklədiyi qeyri-dövlət milis qruplarının istifadə etdiyi infrastruktura hədəfli hərbi zərbə endirdi (The American Presidency Project, 2021). İraqın baş naziri Mustafa Kadiminin Ağ Evdə prezident Co Baydenlə görüşündən sonra ABŞ ilin sonuna qədər ABŞ-ın İraqdakı hərbi missiyasını sırf məsləhət roluna çevirmək qərarına gəlib ki, bu da ABŞ-ın döyüş missiyasının rəsmi başa çatması deməkdir. İraqda, Birləşmiş Ştatlar hələ də İraq rejiminin sabitliyini qorumaq və İranın İraqdakı hərəkətlərini cilovlamaqla bağlı iki əsas problemlə üz-üzədir.Buna görə də, dəyişiklik nə olursa olsun, İraqda yerləşdirilən ABŞ qoşunlarının sayı həmişə əhəmiyyətli sayda olacaq və ABŞ-ın Yaxın Şərqdəki maraqlarını təmin etmək üçün İraq hökuməti ilə uzunmüddətli hərbi əməkdaşlıq əlaqələri qorunub saxlanılacaq (Brandon, Weichert, 2017).

## Nəticə

Asiyanın getdikcə daha vacib strateji mövqeyi ilə ABŞ-ın Yaxın Şərq strategiyasının dəyişməsi üçün çox yer yoxdur. Bayden administrasiyası qismən Tramp administrasiyasının Yaxın Şərq strategiyasını və həyata keçirməyə ümid etdiyi məsələləri miras aldı. Bayden administrasiyası Tramp administrasiyasının Yaxın Şərqdə daralma strategiyasını miras aldı. Bu strategiyanın rəhbərliyi altında Bayden administrasiyası, Tramp administrasiyası kimi, Yaxın Şərqdə hərbi xərcləri azaltmağa sadiqdir. Bayden administrasiyasının Yaxın Şərqdəki əsas problemləri dəyişməyib. Məsələ İranın nüvə problemi və İranın İraq və Suriyada genişlənməsi məsələsi olaraq qalır. Əsas məsələ müəyyən edildikdə, Bayden administrasiyası da əvvəlki administrasiya kimi terrorizmi ABŞ-ın hədəfi hesab edir. Bayden administrasiyasının Trampın Yaxın Şərq siyasətinə etdiyi dəyişikliklərin gələcəyi qeyri-müəyyəndir. ABŞ-ın Yaxın Şərq siyasətinin əsas məsələsi ondan ibarətdir ki, ABŞ daralma strategiyasını rəhbər tutaraq Yaxın Şərqdə sabitlik axtarır. Bununla belə, Yaxın Şərqdəki nisbətən sabit vəziyyət ABŞ-ın hərbi gücünün söz sahibi olmaqda

effektivliyinin aşağı düşdüyü və ABŞ-ın söz gücünə sahib olmaq üçün Yaxın Şərqin tikintisinə, xüsusən də onun inkişaf vizyonuna sərmayə qoyması deməkdir.

Baxmayaraq ki, Bayden administrasiyası İranın nüvə problemini həll etmək və ABŞ-ın mövcud milli şərtləri ilə məhdudlaşan regional insan hüquqları məsələlərinə diqqət yetirmək üçün çoxtərəfli əməkdaşlıq çərçivəsini yenidən müdafiə etsə də, Bayden administrasiyasının sərmayəsi hələ də kifayət deyil. Bundan əlavə, Bayden administrasiyası İrana qarşı sanksiyalardan əl çəkmədiyi üçün İranın nüvə problemi hələ də ciddi problemlərlə üzləşir. Baydenin Yaxın Şərqdəki insan haqları siyasəti Yəmən və Suriyaya yardımdan əlavə, Səudiyyə Ərəbistanına təzyiq və Tramp dövründən bəri ABŞ-Səudiyyə münasibətlərinin yenidən qurulmasına bənzəyir. Bu siyasət Yaxın Şərqdəki amerikalı tədqiqatçılar tərəfindən tənqid edilib və ABŞ-Səudiyyə münasibətlərinin pisləşməsinə səbəb ola bilər.

Xülasə, Baydenin Yaxın Şərq siyasəti Tramp administrasiyasının Yaxın Şərq siyasətini miras alıb, lakin bu, daha çox dəyişiklikdir. Mövcud məlumatlara əsasən, Birləşmiş Ştatlar üçün Yaxın Şərqi tərk etmək çətindir, həmçinin Birləşmiş Ştatlar üçün Yaxın Şərqdə daha böyük nailiyyətlər əldə etmək və irəliləyiş əldə etmək çətindir.

## Ədəbiyyat


1. Zhichao, T. (2021). The development trend of the Biden administration's Middle East policy. Contemporary World (04), p.30-37. doi:10.19422/j.cnki.ddsj.2021.04.005.
2. The American Presidency Project. (2020). Campaign Press Release-Fact Sheet: Joe Biden and the Arab American Community: A Plan for Partnership. August 29. https://www.presidency.ucsb.edu/documents/camp aign-press- release-fact-sheet-joe-biden-and-the- arab-american-community-plan-for
3. White House. (2018). Remarks by President Trump on the Joint Comprehensive Plan of Action, 8 may. https://trumpwhitehouse.archives.gov/briefings-statements/remarks-president-trump-joint-comprehensive-plan-action/
4. National Public Radio. (2017). Transcript: Trump's Remarks On Iran Nuclear Deal. October 13. https://www.npr.org/2017/10/13/557622096/transcr ipt-trump-s-remarks-on-iran-nuclear-deal
5. Alken, A. (2020). The Trump administration's adjustment to Iran's foreign policy (Master's thesis, Diplomatic Academy). https://kns-cnki-net-443.webvpn.sysu.edu.cn/KCMS/detail/detail.aspx?dbname=CMFD202002&filename=1020734161.nh
6. Leverett, F., Leverett, H., Zhinan, C. (2018). Trump's turn in US Iran policy: understanding its motivations and strategic consequences. China International Strategic Review (02), p.185-198. doi:CNKI:SUN:LZJG.0.2018-02-014.
7. Chang, L. (2019). An analysis of the Trump administration's Iran policy. Also on its counter-movements in the Middle East. Peace and Development (06), 39-52+131-132. doi:CNKI:SUN:HPFZ.0.2019-06-003.
8. Witzig, L. (2021). As Iran and the United States Negotiate, Both Publics Support Original JCPOA, 8 april. https://www.thechicagocouncil.org/commentary-and-analysis/blogs/iran-and-united-states- negotiate-both-publics-support-original-jcpoa
9. Aljazeera. (2020). Frustrated by delays in arms sales to Saudi Arabia, Trump administration considers ending congressional reviews. June 26. https://www.aljazeera.net/news/politics/2020/6/26
10. Kafura, C. (2021). Despite Early Outbreak and Heavy Toll, Iranians are Proud of Iran's COVID-19 Response. April 2. https://www.thechicagocouncil.org/commentary-and-analysis/blogs/despite-early-outbreak-and- heavy-toll-iranians-are-proud-irans-covid
11. Brandon, J., Weichert. (2017). Trump's Syria Policy is About Containing Iran. September 27. https://amgreatness.com/2017/09/22/trumps-syria- policy-is-about-containing-iran/
12. Dongchao, Z. (2020). Research on the Syrian Policy of the Trump Administration of the United States. Regional and Global Development (01), 77-87+156-157. 007.doi:CNKI:SUN:QYQQ.0.2020-01-007.

13. In December 2018, Trump suddenly announced the withdrawal of troops from Syria, which caused a great backlash in the United States, and the opposition to the withdrawal was loud. The chairman of the US Senate Foreign Relations Committee, Bob Corke, said that Trump made serious mistakes without sufficient discussion before making major decisions.
14. Chicago Council Surveys. (2021). [Graph illustration the US public opinion on participating in JCPOA January 29, 2021]. Democrats and Republican Diverge on Iran Agreement. Retrieved from.https://www.thechicagocouncil.org/commentary-and-analysis/blogs/iran-and-united-states-negotiate-both-publics-support-original-jcpoa
15. Mann Leverett, H. (2017). Why Trump’s Foreign Policy Is Dangerous, 9 july. https://www.aljazeera.com/indepth/opinion/2017/07/trump-foreign-policy-dangerous-170708093805747.html.
16. Rehmanpour, M. (2021). Nuclear negotiations. Iranian remarks on the US position and Tehran intends to exploit new pressure tools. July 30. https://www.aljazeera.net/news/2021/7/30
17. Aljazeera. (2021). He sent a security delegation to Washington. Netanyahu: Returning to the nuclear agreement with Iran is a threat to Israel. April 23. https://www.aljazeera.net/news/politics/2021/4/23
18. Aljazeera. (2021). Amid Iranian optimism for a breakthrough within weeks.. Mossad quotes Biden: Washington is not about to return to the nuclear agreement. April 23. https://www.aljazeera.net/news/politics/2021/5/3
19. The American Presidency Project. (2021). Press Release - Readout of President Joseph R. Biden, Jr. Meeting with President Reuven Rivlin of Israel. June 28. https://www.presidency.ucsb.edu/documents/press-release-readout-president-joseph-r-biden-jr-meeting-with-president-reuven-rivlin

Göndərilib: 06.04.2023 Qəbul edilib: 16.05.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/71-75

**Anar Kərimov**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
magistrant
anarkarimov00@mail.ru

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ÇAR RUSİYASININ ŞİMALİ AZƏRBAYCANDA HƏYATA KEÇİRDİYİ AQRAR İSLAHATLAR (1912-1913-CÜ İLLƏRDƏ VERİLMİŞ QANUNLAR)

**Xülasə**

Çar Rusiyasının Şimali Azərbaycanda yeritdiyi və müstəmləkəçilik kimi səciyyələndirdiyi aqrar siyasət bu bölgədə imperiyanın ictimai-siyasi dayaqlarını gücləndirməyə yönəlmişdi. 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində aparılan kəndli islahatları kəndlilərin iqtisadi vəziyyətinin yaxşılaşmasına deyil, çar hakimiyyətinin mövqelərinin möhkəmlənməsinə töhfə verməklə, müvəqqəti məsul kəndlilərin vəziyyətini aradan qaldırmadı. Təqdim olunan məqalədə 20-ci əsrin əvvəllərində Cənubi Qafqazda aparılan aqrar islahatlar problemi araşdırılır, onların mahiyyəti və xarakterik xüsusiyyətləri aşkarlanır.

***Açar sözlər:*** *Şimali Azərbaycan, çar Rusiyası, aqrar qanunlar, islahat, pay torpağı, sahibkar kəndliləri, xəzinə torpaqları*

**Anar Karimov**
ANAS Institute of History named after A.A.Bakikhanov
master student
anarkarimov00@mail.ru

## Agrarian reforms implemented by Tsarist Russia in Northern Azerbaijan at the beginning of the twentieth century (laws of 1912-1913)

**Abstract**

The agrarian policy pursued by tsarist Russia in Northern Azerbaijan and characterized as colonial was aimed at strengthening the socio-political support of the empire in this region. The peasant reforms carried out in the late 19th and early 20th centuries did not eliminate the position of temporarily liable peasants, while contributing not to improving the economic situation of the peasants, but to strengthening the positions of the tsarist authorities. The presented article examines the problem of agrarian reforms carried out in the South Caucasus at the beginning of the 20th century, reveals their essential and characteristic features of them.

***Keywords:*** *Northern Azerbaijan, tsarist Russia, agrarian laws, reforms, allotments, landowning peasants, state lands*

## Giriş

XX əsrin əvvəllərində aqrar sahədə verilmiş qanunlar dövlət kəndlilərinə aid edildiyi üçün sahibkar kəndlilərinin torpaq-mülkiyyət münasibətləri məsələsi tənzimlənməmiş olaraq qalmışdı. Bu səbəbdən də yaranmış vəziyyət sahibkar kəndlilərinin arasında da mükəlləfiyyətli münasibətlərin ləğv edilməsi məsələsini actual etmişdi. Qeyd etmək lazımdır ki, XIX-XX əsrin əvvəllərində çarizmin Cənubi Qafqazda apardığı islahatlar G.İ.Antelava, İ.M.Həsənov, M.A.İsmayılov, H.N.Həsənov, F.Baxşəliyev, M.Gülmalıyev, M.Abdullayev və başqalarının əsərlərində geniş işıqlandırılmışdır.

XX əsrin əvvəllərində Cənubi Qafqaz diyarında bütün kəndli əhalisinin 1/3-i, təxminən həmin vaxta kimi 706.622 hektar torpağı ala bilməyən 118.295 təsərrüfatın durumu acınacaqlı vəziyyətdə idi. Qafqaz canişini vəzifəsində Q.S. Qolitsını əvəz edən İ.İ.Vorontsov-Daşkov 1905-ci il oktyabrın 12-də çara təqdim etdiyi “Qafqaz diyarının idarəçiliyinə dair qeydlər”ində bölgədəki qeyri-sabit

vəziyyətin başlıca səbəbini əvvəlki rəhbərliyinin zamanında aqrar məsələdə buraxdığı nöqsanlarla izah edirdi. O, əhali arasında narazılıqların səbəbi kimi onların bəylərdən olan asılı münasibətlərinin dərhal ləğv edilməsininin tərəfdarı olduğunu bildirirdi (Vsepoddanneyshaya zapiska po upravleniyu Kavkazskim krayem general-adyutanta grafa Vorontsova-Dashkova, 1907: 40-41-48). Eyni zamanda, bəylərə kompensasiya ödənilməsini tamamilə zəruri hesab edə Qafqaz canişini 1905-ci il noyabrın 22-də Nazirlər Sovetinə dövlət xəzinəsindən sahibkarlara kompensasiya verilməsi şərti ilə torpaq mülkiyyətçilərinin torpaqlarının kəndlilərə pulsuz verilməsini nəzərdə tutan qanun layihəsini təqdim etdi (Bakhshaliyev, 2013: 185).

İmperiyanın əkinçilik naziri N.Kutler və maliyyə naziri İ.P.Şipovun qeydləri nəzərə alınaraq layihədə müəyyən düzəlişlər edilərək altı bənddən ibarət yeni layihə hazırlanır. Burada məcburi və ya asılı münasibətdə qalan kəndlilərə və dövlət köçkünlərinə sərəncam verildiyi gündən istifadələrində olan torpaqlara sənədlərlə müəyyən edilmiş hüdudlarda, belə sənədlərin olmaması və ya qeyri-dəqiqliyi şəraitində isə onların faktiki istifadəsində olan torpaqlarda mülkiyyət hüququ vermək nəzərdə tutulmuşdu. Fərman verildiyi gündən onların bütün məcburi və ya asılı münasibətləri dayandırılır, kəndlilər yuxarıda qeyd olunan torpaqlar üçün müəyyən olunmuş dövlət və zemstvo vergilərini ödəməli idilər. Qanun layihəsində bu məsələ ilə bağlı xüsusi sərəncam verilənə qədər kəndlilərin göstərilən kateqoriyaları üçün torpaq mülkiyyətçilərinin torpaqlarında yerləşən otlaqlardan və meşələrdən, habelə torpaq mülkiyyətçilərinin kəndli torpaqlarında yerləşən otlaq və meşələrdən istifadə hüququnun saxlanılması nəzərdə tutulurdu. Layihəyə görə torpaq sahiblərinə təzminat olaraq təxminən 30 milyon rubl ödənməli idi. Qanun layihəsi 1906-cı il aprelin 4-də Nazirlər Şurasının iclasında müzakirə edilsə də, islahatın həyata keçirilməsi üçün ayrılacaq məbləğin Dövlət Dumasında müzakirə olunmasının zəruriliyi səbəbindən layihə dumanın müzakirəsinə verilir (Agadzhanyan, 1912: 270-273).

Cənubi Qafqazda aqrar məsələnin həllinin vacibliyini dərk edən deputatlar N.S.Çxeidze, İ.Heydərov və E.P.Qeqeçkorinin təşəbbüsü ilə Dumanın 34 deputatı Zaqafqaziya kəndlilərinin müvəqqəti mükəlləfiyyətli vəziyyətinin ləğv edilməsini nəzərdə tutan layihə irəli sürdülər. Canişinlik tərəfindən 1909-cu ilin əvvəlində hazırlanan qanun layihəsinin son variantı müzakirələrdən sonra Nazirlər Kabinetinin təsdiqinə təqdim edildi və 1911-ci ildə təsdiq olundu. Dövlət Duması və Dövlət Şurası tərəfindən də təsdiqlənən qanun layihəsini 1912-ci il dekabrın 20-də çar II Nikolay imzaladı. Qanun “Hökumətin yardımı ilə İrəvan, Yeıizavetpol, Bakı, Tiflis və Kutaisi quberniyalarında pay torpaqların satın alınması yolu ilə kəndlilərin mülkədarlar və sahibkarlardan olan müvəqqəti mükəlləfiyyətli münasibətlərinin ləğv edilməsi haqqında əsasnamə” adlanırdı (O prekrashchenii vremenno-obyazatelnykh i zavisimykh otnosheniy krestyan i poselyan k pomeshchikam i zemlevladeltsam v Tiflisskoy, Yelizavetpolskoy, Bakinskoy, Erivanskoy guberniyakh posredstvom vykupa nadelov v sobstvennost posredstvom pravitelstva, 1912: 1687).

Qaydalara görə qanunla müəyyən edilmiş öhdəlikləri olmayan aşağıdakı torpaqlar sahibkarlara heç bir ödənc ödənmədən kəndlilərin xüsusi mülkiyyətinə verilirdi: həyətyanı sahələr; yuxarı təbəqəyə mənsub olmayanların bütün əmlakları; İrəvan quberniyası və Bakı quberniyasının Quba qəzasındakı bəy mülkləri; Yelizavetpol, Bakı və Tiflis quberniyalarındakı xan, bəy, ağalar və məliklərin qeyri-münasib ərazilərdə yerləşən və sahibkarın xeyrinə vergi ödənməyən mülklər; yuxarı təbəqəyə mənsub olmayanların mülklərində salınmış bütün bağlar; yuxarı təbəqəyə mənsub olmayanların mülklərində 18 oktyabr 1879-cu ilə kimi salınmış bağlar; eləcə də kəndli mülklərində yerləşən, sahibkarların istifadəsində olmayan əkinə yararsız bataqlıq, qumluq, qayalıq, gilli yerlər (O prekrashchenii vremenno-obyazatelnykh i zavisimykh otnosheniy krestyan i poselyan k pomeshchikam i zemlevladeltsam v Tiflisskoy, Yelizavetpolskoy, Bakinskoy, Erivanskoy guberniyakh posredstvom vykupa nadelov v sobstvennost posredstvom pravitelstva, 1912: 1689).

20 dekabr 1912-ci il və 1 yanvar 1913-cü ildə IV Dövlət Dumasının verdiyi qanuna görə, kəndlilərin daimi istifadələrində olan torpaqları satın almalı idilər. Mülkədar kəndlilərə verilən pay torpaqları müqabilində dövlət xəzinəsindən pul almalı, kəndlilər isə həmin pulu müəyyən müddətdə xəzinəyə verməli idilər. Cənubi Qafqaz quberniyalarında feodal-asılılıq münasibətləri ləğv edilməli, torpaqlar kəndlilərin xüsusi mülkiyyətinə keçməli idi. 1913-cü il yanvar qanuni feodal

mükəlləfiyyətlərini ləğv etmişdir. Kəndlilər pay torpaqlarının xüsusi mülkiyyətçilərinə çevrildilər. Bakı və Yelizavetpol quberniyalarında pay torpaqları müqabilində xəzinə mülkədarlara 10,3 milyon manat pul verməli idi. Kəndlilər həmin pulu faizi ilə (21 milyon manat) 28-56 il ərzində ödəməli idilər. Bu qanunlar kəndlilərin vəziyyətində əsaslı dönüş yaratmasa da Azərbaycan kəndlilərində sinfi təbəqələşməni və kapitalist münasibətlərinin inkişafını sürətləndirmişdir.

1912-ci il 20 dekabr qanunu Cənubi Qafqazın digər yerlərində olduğu kimi, Azərbaycanda da 1913-cü il yanvarın 1-dən həyata keçirilməyə başlandı. Bakı və Yelizavetpol quberniyaları üzrə ödənc 1163 mülkə aid edilmişdi. 1913-cü il yanvarın 1-dən etibarən 403,4 min desyatin. pay torpağı sahibkar kəndlilərin xüsusi mülkiyyəti elan edildi, kəndlilər xüsusi mülkiyyəti olan pay torpağı üçün xəzinəyə faizlə birlikdə 20755376 rubl pul ödəməli idilər. Zaqatala dairəsində isə ödəncə aid edilmiş 47 kənd 20 il müddətində dövlət xəzinəsinə 284969 rubl ödənc verməli idi (Azərbaycan tarixi, 2008: 50).

20 dekabr 1912-ci il qanunu əslində Stolıpin aqrar siyasətinin Cənubi Qafqazda həyata keçirilməsi idi. Bu siyasət torpaq sahibkarlarının hüquqları və feodal istehsal münasibətlərini saxlamağa yönəldilmişdi. Stolıpin aqrar siyasətinin Cənubi Qafqazda, o cümlədən Azərbaycanda tətbiq edilməsinin tərəfdarlarının səylərinə baxmayaraq, onların arzusu həyata keçmədi. Çünki çarizm həmin vaxta kimi həyata keçirilən islahatlarla Stolıpinin aqrar islahatının müddəalarının bütün kəndlilərin 20 faizini təşkil edən sahibkar kəndinə tətbiq olunmasına razılıq vermişdi.

Azərbaycanın şimal-qərb bölgəsində, Zaqatala dairəsində isə rəiyyətlərin bəylərdən və keşkəl sahiblərindən olan asılılığının ləğv edilməsi isə xüsusi qanunla tənzimlənmişdir. Burada kəndlilər üç qrupa bölünürdülər: heç kimə vergi ödəməyən kəndlilər – 8700 tüstü; keşkəl kənd sakinləri – 3000 tüstü; bəy kəndlərinin sakinləri – 900 tüstü (Avaliani, 1914: 126). Zaqatala dairəsində torpaq mülkiyyət münasibətlərini tənzimləmək məqsədilə hələ 1869-cu ildə təşkil olunmuş silki-torpaq komissiyası 1874-cü ilin mayında özünün islahat layihəsini təqdim etsə də təşkil olunsa da bu islahat həyata keçirilməmiş qalmışdı (Avaliani, 1914: 134-148).

Belə vəziyyət XX əsrin əvvəllərinə kimi davam etmiş, məhz həmin vaxtı dairədə torpaq-mülkiyyət münasibətlərinin nizamlanması məqsədilə işlərə başlanılmışdır. Bu məqsədlə 1908-ci ildə Qafqaz canişini tərəfindən kəndlilərlə bəylər arasındakı münibətləri tezliklə həll etmək məqsədilə Tiflisdə inzibati və vergi müfəttişliyinin tərkibində mülki hissə üzrə köməkçisi E.Vatanatsinin başçılığı ilə idarənin və vergi müfəttişliyinin məmurları, eləcə də bəylərin nümayəndələrinin iştirakı ilə“Xüsusi şura” təşkil etdi. Toplanan müşavirə islahat planını işləyib hazırladı və qərara aldı ki, “mükəlləfiyyətlərin ödənilərək alınması” yolu ilə asılı münasibətləri aradan qaldırmaq olar. Lakin qeyd olundu ki, bunun üçün onların növlərini, ölçülərini və pul ifadəsində dəyərini müəyyən etmək lazımdır. Bu işləri həyata keçirmək üçün Teymur-Xan-Şurada vilayətin hərbi qubernatoru S.Volskinin başçılığı ilə bütün dairələrin rəisləri, vergi müfəttişləri və maraqlı tərəflərin nümayəndələrindən (bəylər və kəndlilər) ibarət “Müvəqqəti vilayət komissiyası” yaradıldı (Khalifayeva, 2004: 86).

Bu komissiya, kəndlilərlə bəylər arasındakı asılı münasibətlərin mənşəyi və hazırkı vəziyyəti barədə, habelə hər bir kənd üçün ödədikləri mükəlləfiyyətləri pula çevirməklə miqdarı və onu alan bəylər haqqında müfəssəl nəticə hazırlayır. Bəylərə ödəniləcək ödəncin hesablanması zamanı 1908-ci ildən əvvəlki son beş ilin orta qiymətlərindən istifadə edilmişdir. Komissiyanın tərtib etdiyi cədvəldə ödəncin yerinə yetirildiyi bölgənin hər bir kəndi üzrə onun pulla dəyəri, rüsumların illik məbləğinin 10 mislini təşkil edən ödənilmə miqdarı, habelə rüsumların ödənilməsi zamanı ayrı-ayrı təsərrüfatların xəzinəyə ödəyəcəkləri ödənişlərin orta ölçüsü göstərilmişdi. Uzunsürən müzakirələrin nəticəsi olaraq canişin dəftərxanası tərəfindən iki qanun layihəsi hazırlandı - “Dağıstan vilayəti və Zaqatala dairəsinin kəndlilərinin bəylər və keşkəl sahiblərindən olan asılı münasibətlərinin ləğv edilməsi haqqında” və “Dağıstan vilayəti və Zaqatala dairəsinin əhalisinin torpaq idarəçiliyi haqqında” (Khalifayeva, 2004: 87).

Hər iki layihə Dövlət Dumasına təqdim olunsa da uzun müzakirələrdən sonra mahiyyəti kənd icmaları, ayrı-ayrı sahibkarlar və məscidlərin faktiki istifadəsində olan torpaqların onların mülkiyyətində saxlanmasından ibarət olan “Dağıstan vilayəti və Zaqatala dairəsinin əhalisinin

torpaq idarəçiliyi haqqında" layihə təsdiq olunmur. "Dağıstan vilayəti və Zaqatala dairəsinin kəndlilərinin bəylər və keşkəl sahiblərindən olan asılı münasibətlərinin ləğv edilməsi haqqında" layihə 1913-cü il iyunun 21-də Dövlət Dumasının iclasında müzakirə olundu. Duma komissiyasının məruzəçisi Xarlamov deputatları Rusiya hakimiyyətinin təqsiri səbəbindən Qafqazda bu günə qədər davam etmiş təhkimçiliyin qalıqlarına son qoymağa və qanun layihəsini tələsik qaydada qəbul etməyə çağırdı (Khalifayeva, 2004: 87).

Qanun layihəsi Dumada 1913-cü il iyunun 22-də son variantda təsdiq edildi. 1913-cü il iyulun 7-də IV Dövlət Duması tərəfindən təsdiq olunmuş "Dağıstan vilayəti və Zaqatala dairəsinin kəndlilərinin bəylər və keşkəl sahiblərindən olan asılı münasibətlərinin ləğv edilməsi və bu yerlərdə kəndli işlərinin qurulması haqqında" qanun imperator II Nikolay tərəfindən təsdiq edildi (O prekrashchenii zavisimykh otnosheniy poselyan Dagestanskoy oblasti i Zakatalskogo okruga k bekam i keshkelevladeltsam i ob uchrezhdenii v sikh mestnostyakh ustanovleniy po krestyanskim delam, 1913: 733-735).

Qaydalarla (1-ci maddə) müəyyən edilirdi ki, 1913-cü il yanvarın 1-dən bütün tabeliyində olan kəndlilər bəylərin və keşkəl sahiblərinin xeyrinə vergi ödəməkdən azad edilirlər. Ləğv edilmiş mükəlləfiyyətlərə görə bəylərə xəzinədən birdəfəlik müavinət verilirdi ki, kəndlilər onu 20 il ərzində dövlətə qaytarmalı idilər. Zaqatala dairəsi üzrə bəylərə və keşkəl sahiblərinə ödəniləcək ödəncin məbləği 284968 rubl müəyyən olunmuşdu (Pravila o prekrashchenii zavisimykh otnosheniy poselyan Dagestanskoy obl. i Zakatalskogo okr. kbekam i keshkelevladltsam, 1913: 148).

1913-cü ilin sentyabrın 1-dən yerlərdə qanunun icrası zamanı baş verə biləcək müxtəlif xarakterli narazılıqların baxılması funksiyası həvalə edilmiş 20-i Dağıstan vilayətində, 3-ü isə Zaqatala dairəsində olmaqla ümumilikdə 23 barışdırıcı münsif vəzifəsi təsis olunurdu. Onların hər birinə də bir tərcüməçi müəyyən olunurdu. Xəzinədən münsiflərin saxlanması üçün ildə 46 min rubl, tərcüməçilərin axlanması üçün isə ildə 13080 rubl vəsait ayrılırdı. Zaqatala dairəsi üzrə barışdırıcı münsiflərin qərarından olan narazılığa Tiflis quberniya kəndli məsələləri üzrə idarədə baxılırdı (Pravila o prekrashchenii zavisimykh otnosheniy poselyan Dagestanskoy obl. i Zakatalskogo okr. kbekam i keshkelevladltsam, 1913: 144).

1912-ci ildə, Bakı və Yelizavetpol quberniyalarında yaradılmış 12 münsif şöbəsinin sayı 1913-cü ildə 32-yə çatdırılmışdı. Zaqatala dairəsində isə ödənc əməliyyatını aparmaq üçün üç münsif vəzifəsi təsis edildi, bununla əlaqədar olaraq inzibati dairənin ərazisi 3 barışdırıcı şöbəyə bölündü. Hər barışdıncı şöbənin işinə bir münsif rəhbərlik edirdi (Avaliani, 1914: 51).

1912-1913-cü illərdə verilmiş aqrar islahatları isə bu istiqamətdə edilmiş sonuncu cəhd idi. Həmin qanunlara görə xüsusi mülkiyyətdə olan kəndlilər torpaq mülkiyyətçilərinin xeyrinə rüsumlardan azad edilirdi və onlar öz paylarını ödənc ödəməklə almağa borclu idilər. Dövlət torpaq mülkiyyətçilərinə pay torpaqlarının kəndlilərin mülkiyyətinə keçməsi üçün haqq ödəməli, kəndlilər də müəyyən müddət ərzində dövlətə olan borclarını ödəməli idilər. Əvvəllər qəbul edilmiş aqrar qanunlara 1912-1913-cü illərin qaydalarında nəzərdə tutulmuş əlavələr Azərbaycan kəndlərində sosial gərginliyin yumşaldılmasında müəyyən rol oynasa da, son dərəcə kəskinləşmiş problemlərin yükünü aradan qaldıra bilmədi.

1912-1913-cü illər qanunları aqrar məsələni həll edə bilmədi. Çünki mülkədarlar yenə də öz torpaqlarını zor tətbiq etməklə kəndlilərə satır, onları bu torpaq üçün külli miqdarda pul verməyə məcbur edirdilər. Həmin qanun aktları kəndliləri qarət edir, onları yenə də torpaq sahiblərinin əsarətində saxlayırdı. Lakin kəndlilərin pay torpaqlarını ödənclə alması faktı burjua xarakterli hadisə olmaqla öz məzmununa görə islahatlar burjua xarakteri daşıyırdı. Məhsul mülkiyyətinin ləğv edilməsi, kəndlinin ödənc ödəməyə başlaması sahibkar kəndində kapitalist münasibətlərinin inkişafını, təbəqələşməni daha da sürətləndirirdi, yoxsullaşmış və əmlakdan məhrum olmuş kəndlilərin sayını artırırdı, tavanalı və tavanasız kəndli qrupları özünü daha aydın göstərməyə başlayırdı.

## Nəticə

Qeyd etmək lazımdır ki, çar Rusiyasının Şimali Azərbaycandakı aqrar siyasəti qeyri ardıcıllığı ilə seçilmiş və bu siyasət çarizmin bu bölgədəki mövqelərinin sabitliyindən asılı olataq dəyişmişdir. Belə ki, 1861-ci il aqrar islahatı ilə Rusiyanın mərkəzi əyalətlərində kəndlilərin müvəqqəti mükəlləfiyyətli vəziyyətinə son qoyulsa da, XIX əsrin sonu – XX əsrin əvvəlləri boyu Cənubi Qafqazla bağlı bu istiqamətdə müxtəlif aqrar qanunların qəbul edilməsinə baxmayaraq Şimali Azərbaycanda kəndlilərin müvəqqəti mükəlləfiyyətli vəziyyəti davam etmişdir. Bütün bu müddətdə Rusiyanın buradakı aqrar siyasətinin vasitə və üsulları bu diyardakı kəndlilərin durumunun yaxşılaşdırılmasına deyil, çarizmin Cənubi Qafqazda möhkəmlənməsinə xidmət etmişdir. Yalnız XX əsrin əvvəllərindən etibarən imperiyanın daxili sosial-iqtisadi və siyasi həyatında baş vermiş təlatümlü hadisələr çarizmi Cənubi Qafqazda həyata keçirdiyi aqrar siyasətinə yenidən baxmağa, bu istiqamətdə ciddi dəyişikliklər etməyə vadar edir ki, 1912-1913-cü illər aqrar qanunlarının verilməsi də məhz bununla bağlı idi.

## Ədəbiyyat

1. Vsepoddanneyshaya zapiska po upravleniyu Kavkazskim krayem general-adyutanta grafa Vorontsova-Dashkova. (1907). Sankt-Peterburg, Gos. tip., 164 s.
2. Bakhshaliyev, F. (2013). Agrarnaya politika Rossiyskoy imperii v Zakavkaze v kontse XIX-nachale XX veka. Kavkaz i globalizatsiya. Tom 7, vyp. 3-4, s.183-192.
3. Agadzhanyan, S. (1912). Likvidatsiya vremennoobyazannogo sostoyaniya krestyanstva v Zakavkazye: zakon ot 20 dekabrya, s.259-290. Likvidatsiya-vremennoobyazannogo-sostoyaniya-krestyanstva-v-zakavkazie-zakon-ot-20-dekabrya-1912-g.pdf
4. O prekrashchenii vremenno-obyazatelnykh i zavisimykh otnosheniy krestyan i poselyan k pomeshchikam i zemlevladeltsam v Tiflisskoy, Yelizavetpolskoy, Bakinskoy, Erivanskoy guberniyakh posredstvom vykupa nadelov v sobstvennost posredstvom pravitelstva. (1912). Polnoye sobraniye zakonov Rossiyskoy imperii. Tretye sobraniye (1881-1913). T. XXXII, chast 1-ya, zakon 38539, s.1687-1692.
5. Azərbaycan tarixi. (2008). 7 cilddə, cild V. Bakı: Elm, 696 s.
6. Avaliani, S. (1914). Krestyanskiy vopros v Zakavkazye. tom 3, Poselyanskaya reforma i reforma soslovno-pozemelnykh otnosheniy v musulmanskikh provintsiyakh. Odessa, 180 s.
7. Khalifayeva, A. (2004). Agrarnaya reforma v Dagestana vo vtoroy polovine XIX v. Izvestiya vuzov. Severo-Kavkazskiy region. Obshchestvennyye nauki. № 4, s.82-89. agrarnaya-reforma-v-dagestane-vo-vtoroy-polovine-xix-v.pdf
8. O prekrashchenii zavisimykh otnosheniy poselyan Dagestanskoy oblasti i Zakatalskogo okruga k bekam i keshkelevladeltsam i ob uchrezhdenii v sikh mestnostyakh ustanovleniy po krestyanskim delam. (1913). Polnoye sobraniye zakonov Rossiyskoy imperii. Tretye sobraniye (1881-1913). T. XXXIII, chast 1-ya, zakon 39734, s.733-735.
9. Pravila o prekrashchenii zavisimykh otnosheniy poselyan Dagestanskoy obl. i Zakatalskogo okr. kbekam i keshkelevladltsam. (1913). Kavkazskiy kalendar' na 1914 g. Tiflis. Spravochnyy otdel, s.144-148.

Göndərilib: 11.03.2023 Qəbul edilib: 01.05.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/76-79

**Şövqiyyə İsmayılzadə**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
magistrant
ishovqiyye@bk.ru

# ÇOX KONFESSİYALI CƏMİYYƏTİN İDARƏSİNDƏ HEYDƏR ƏLİYEV RƏHBƏRLİYİ, SOSİAL MÜXTƏLİFLİYİN TƏKAMÜL MƏRHƏLƏSİ, ETNİK DEMOQRAFİK PROSESLƏRİN GEDİŞATI VƏ MİQRASİYA CƏMİYYƏTİNİN FORMALAŞMASI

**Xülasə**

Başlanğıcını Azərbaycan Respublikasının 1991-ci ildə müstəqilliyini elan etdiyi vaxta aid olan Azərbaycan mədəniyyətinin inkişafının müasir mərhələsində “Azərbaycan multikulturalizmi” modeli formalaşdırılır və xarici təsir obyekti kimi dövlət siyasəti nəzdində həyata keçirilirdi. Multikulturalizmlə bağlı müzakirə Heydər Əliyev dövründə sosial-mədəni inteqrasiyanın dinamikası və dövlətin sosial siyasətinin aktual istiqamətləri ilə bağlı bir çox mühüm məsələləri dərk etməyə imkan verir. Azərbaycan yalnız Azərbaycan mədəniyyətinin ənənələrini daşımır, bu da özlüyündə Azərbaycan etnik birliyində multikulturalizm fenomeninin reflektiv dərk edilməsinə ehtiyac yaradır. Tədqiqatın əsas məqsədi Heydər Əliyev irsində multikulturalizmin onun ərazi-tarixi amillərindən, etnomədəni xüsusiyyətlərindən və formalarından asılı olaraq təsnifat məsələlərini tarixən xüsusiyyətləri və müasir sosial-mədəni məkanda multikulturalizmin praktiki təcəssümünü müəyyən etməkdir. Multikulturalizm hər hansı təsadüfi elementlərdən uzaq, tamamilə ümumbəşəri dəyərlərə söykənən, qanunauyğun təlimdir.

***Açar sözlər:*** *multikulturalizm, tolerantlıq, etnik müxtəliflik, demoqrafiq göstəricilər, miqrasiya*

**Shovqiyya Ismayilzadeh**
ANAS Institute of History named after A.A.Bakikhanov
master student
ishovqiyye@bk.ru

## The leadership of Heydar Aliyev in the management of a multi-confessional society, the evolutionary stage of social diversity, the progress of ethnic demographic processes and the formation of a migration society

**Abstract**

At the modern stage of the development of Azerbaijani culture, which began when the Republic of Azerbaijan declared its independence in 1991, the model of "Azerbaijani multiculturalism" was formed and implemented as an object of foreign influence under state policy. The discussion on multiculturalism allows us to understand many important issues related to the dynamics of socio-cultural integration and the current directions of the state's social policy during the Heydar Aliyev era. Azerbaijan does not only carry the traditions of Azerbaijani culture, which in itself creates a need for a reflective understanding of the phenomenon of multiculturalism in the Azerbaijani ethnic community. The main purpose of the research is to determine the historical characteristics of the multiculturalism in Heydar Aliyev's legacy, depending on its territorial-historical factors, ethnocultural characteristics and forms, and the practical embodiment of multiculturalism in the modern socio-cultural space. Multiculturalism is a legitimate teaching, completely based on universal values, without any random elements.

***Keywords:*** *multiculturalism, tolerance, ethnic diversity, demographic indicators, migration*

## Giriş

Müasir Azərbaycan cəmiyyətinin mədəni və sosial müxtəlifliyinin artması ümumbəşər dəyər kontekstində multikulturalizm probleminin mədəni və fundamental fəlsəfi təhlilinin zəruriliyi ilə müəyyən edilir. Müxtəlif mədəniyyətləri özündə birləşdirən çoxkonfessiyalı cəmiyyəti idarə etmənin dünyanın siyasi səhnəsində ideal nümunəsi məhz Ulu öndər Heydər Əliyev olmuşdur. Vahid məkanda mövcud olan müxtəlif mədəniyyətlərin birləşdirən Heydər Əliyev mədəni müxtəlifliyin qızğın tərəfdarı və əsl bilicisi kimi sivilizasiyalararası dialoq, insanların uca qardaşlıq ideallarına inamını canlandırdı.İstənilən mədəniyyət siyasətinin əsaslarını dəstəkləyən ideyalar təşkil edir (Yunusov, 1999). Heydər Əliyevin banisi olduğu Azərbaycan multikulturalizminin fəlsəfi konsepsiyaları milli-mənəvi, ümumbəşəri və humanist dəyərlərə uyğun tolerantlıq və multikulturalizm modeli bütün dünyada böyük rəğbətlə qəbul edilir və bu multikultural dəyərlər əsrlər boyu mövcud olan və mövcud dəyərlər məcmuəsi kimi formalaşan qədim tarixi köklərə malikdir.Postsovet məkanının çoxmillətlərindən əldə edilmiş demokratik dövlət quruculuğunun əsas təzahürlərindən biri də öz vətəndaşlarının ictimai-siyasi fəaliyyətinin bütün sahələrində layiqli tutulmasını təmin etmək üçün düzgün düşünülmüş və səmərəli siyasət hesab etmək olar. Bir fakt kimi qeyd etmək lazımdır ki, bugünkü Azərbaycanda milli azlıqların assimilyasiya prinsipləri əsasında onların qurulma prinsiplərindən üstündür, siyasi elitanın millətçi əhval-ruhiyyəsi xalqa xitab edir, ərazi prinsipinin dərman kimi qəbul edilməsi, milli azlıqlarla bağlı normalar hüquqi-siyasi söhbətə çevrilmək, qorunub saxlanmayanda, əvəzində heç bir şeyə məcbur etmədən təbliğat ritorikası ilə əvəzlənəndə daha effektiv hal alır.İqtisadi, siyasi, sosial, diplomatik və digər fəaliyyətlərdən ibarət olan ölkənin obyektiv “portreti” müəyyən təzahürlər toplusu Azərbaycan mədəniyyətinin sabit bir səviyyəyə endirilə bilməyən mürəkkəb vahid fenomen kimi müsbət qəbul edilməsinə təkan verirdi (2). Azərbaycan Respublikasının mədəniyyəti Heydər Əliyev dövründə ənənəvi dəyərlərin əsasını dinamik şəkildə inkişaf etdirən və modernləşmənin gətirdiyi bütün müsbət cəhətləri, eləcə də digər xalqlar və mədəniyyətlərlə təmasları qoruyub saxlayan ziddiyyətli meyllərin üzvi sintezi kimi görünürdü. Müstəqilliyin ilk illərində Azərbaycan prezidentləri A.Mütəllibov (prezidentlik dövrü: 1990-1992) və Ə.Elçibəy (prezidentlik dövrü: 1992-1993) öz xarici siyasətini obyektiv reallıq, idarəçilik vəziyyəti və dövlətin müstəqilliyinə imkan vermədən həyata keçirirdilər (3).

Hər kəsə məlum olduğu kimi 1980-ci illərin sonlarından başlamış başlamış erməni quldur təcavüzü nəticəsində Ermənistan ərazisində yaşayan azərbaycanlıların öz doğma Azərbaycan torpaqlarına deportasiya edildi. 1994-cü ilə kimi davam edən bu erməni təcavüzünün sonunda Dağlıq Qarabağ və Dağlıq Qarabağ ətrafındakı 7 rayon (Kəlbəcər, Laçın, Cəbrayıl, Ağdam, Zəngilan, Qubadlı və Füzuli) işğal edilmiş və təqribən 1 milyona yaxın insan qaçqın və ya öz doğma vətənində köçkün vəziyyətinə düşmüş; təxminən 20 min Azərbaycanlı vətəndaş həlak olmuş; 50 min insan müxtəlif xəsarətlər almış və minlərlə insan əsir və ya girov götürülmüş, Bütün bunların nəticəsində ölkənin etnik demoqrafik proseslər gedişatı dinamik dəyişikliklərə məruz qalmışdı. Eyni zamanda Azərbaycan üçün əhali resursunun bu qədər dəyişilməsi, iqtisadi yükə çevrilməsi və ərazisinin işğal altına düşməsi ölkənin bütün sahələrdəki potensialına olduqca mənfi təsirlərə səbəb olmuşdu. Bir digər tərəfdən SSRİ kimi nəhəng dövlətin dağılması və sosialist sistemin bazar iqtisadiyyatına keçidlə bağlı, əvvəlki iqtisadi və ticari münasibətlərin pozulması, siyasi hakimiyyət uğrunda daxili çaxnaşmalar iqtisadiyyatın çökməsi və inflyasiyanın sıçrayışla artması nəticələndi (4). 1990-ci illərin ortalarına kimi davam edən geriləmənin nəticəsi idi ki, minlərlə Azərbaycanlı qazanc üçün bir başqa ölkələrə emiqrasiya etdilər. Ancaq 1999-cu ildə aparılan əhali sayımının nəticəsində statistik materiallarda əhali azalması öz əksini tapmamışdır. Bunun əsas səbəbi emiqrasiyada olan insanların böyük bir əksəriyyəti Azərbaycanın daimi vətəndaşı kimi qeydə alınması olmuşdur. 1989-1999-cu illərdə aparılan siyahıya almaya nəzər salsaq, əhalinin nəinki azalmasının, tam əksinə 932,2 min insanın və ya 13,3% göstərici ilə artdığını görərik. Hərçənd, emiqrasiyada yaşayan azərbaycanlı vətəndaşların əksəriyyəti yaşadıqları ölkənin vətəndaşı olmuşdular. Qeyd edim ki, 2002-ci ilin sonunda qeyri-rəsmi məlumatlara görə Rusiyada keçirilmiş əhali sayımı ölkə sakinləri kimi qeydiyyata alınmış azərbaycanlı vətəndaşların sayını

təxminən 2.160 min adam olmuşdur (Əlizadə, 2016). 2002-ci il göstəricilərində əhali sayımı haqqında Rusiyanın Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarında azərbaycanlı vətəndaşların sayı 621 min olduğu göstərilmişdi. Ancaq nəzərdən qaçırmaq olmaz ki, bu əhali sayımı ilk dəfə öz milliyətini göstərməkdə hamıya tam sərbəstlik hüququ vermişdir. Azərbaycanlılar milli müstəqillik əldə etdikdən sonra Ermənistandan qovulan kürdlərin, rusların, ukraynalıların Azərbaycana getməsi heç də təsadüfi deyildi. Zənnimcə, Azərbaycan rəhbərliyinin istər dini, istərsə də etnik müstəvidə böyük tolerantlıq nümayiş etdirməsi Azərbaycan etnosunun son dərəcə monolit quruluşa malik olmasını şərtləndirən əsas amillərdən biri hesab edilməlidir. Etnosiyasi münasibətlərin xüsusiyyətlərini müəyyən edən amillərdən biri də əhalinin miqrasiyası idi.Azərbaycan üçün miqrasiya prosesləri ölkə Sovet İttifaqından çıxdıqdan sonra xüsusilə aktuallaşdı. Miqrasiya cəmiyyətin demək olar ki, bütün təbəqələrini əhatə etməklə yanaşı, sosial-iqtisadi və siyasi proseslərin inkişafına da öz təsirini göstərmişdir. Hələ 1980-ci illərdə azərbaycanlı əmək miqrantlarının sayı çox idi və onlar tikinti və ticarət üçün əsasən Rusiyaya gedirdi (Iunusov, 2003: 41). Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə, 2000-ci ilin əvvəlində onların sayı 830 mindən çox idi. Bu isə yerliəhalinin təxminən 10%-ni təşkil edirdi. Digər tərəfdən, SSRİ-nin dağılması ilə nəticələnən sarsılmış daxili siyasi vəziyyət, keçmiş iqtisadi əlaqələrin qopması Azərbaycanda ağır iqtisadi böhrana səbəb oldu. Bütün bu mənfi mühit birbaşa miqrasiya prosesinə təsir edirdi. 1992-ci ildə başlayan işaxtaranların ölkədən xaricə axını 1994-cü ildə tam miqyaslı xarakter almışdır. Heydər Əliyevin tətbiq etdiyi multikulturalizm siyasəti tarixinə nəzər yetirdikdə, insanların hər gün fərqli dinlərə, dillərə və etnik mənsubiyyətlərə sahib olduqlarına şahid oluruq. 1999-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasına görə, etnik azlıqlar Azərbaycan əhalisinin 10 faizini təşkil edirdi. Onların arasında ən böyük qrup Ləzgilər (2,2%); ruslar (1,8%); ermənilər (1,5%); rutullar, saxurlar, talışlar, tatlar, dağ yəhudiləri, avarlar, gürcülər və ümumilikdə Aşkenazi yəhudiləri mürəkkəbliyi 3,9% təşkil etmişdir (Iunusov, 2003: 3). 1989-cu il siyahıyaalınmasına görə ruslar azərbaycanlılardan sonra ikinci yerdə idi. 1999-cu il siyahıyaalınması göstərildi ki, bu on il ərzində rusların sayı üç dəfə azalıb və bu da respublikanın cəmi 1,8%-ni təşkil edir (Fearon, Laitin, 54). Azərbaycan ərazisinin 20%-dən çoxunun Ermənistan tərəfindən işğal olunmasına baxmayaraq, həmin illərdən Azərbaycanda da təxminən 30 min etnik erməni yaşayır. Bu, Azərbaycan xalqının etnik və dini azlıqlara, müxtəlif mədəniyyətlərə tolerantlığını əyani şəkildə nümayişi idi. Bu, həm də azərbaycanlıların və ermənilərin dinc yanaşı yaşamaq iqtidarında olmadığına dair saxta erməni təbliğatını təkzib edirdi. Əliyevin Azərbaycanda əbədi milli və dini harmoniya iddiasına zidd olan nümunələri asanlıqla tapmaq olar. Eyni zamanda bu dövr siyasi çalxantılar, sosial-iqtisadi böhranlar, qanlı faciələr yerini multikultural dəyərlərin yaranması, tolerantlığın hökm sürdüyü sosial rifahla əvəzləyən şərəflə xatırlanan bir dövr oldu. Rəsmi sənədlərdəki, şübhəsiz ki, əhali sayım materiallarında qeyd olunmayan və ənənəvi olaraq, azərbaycan vətəndaşı kimi göstərilən etnik xalqları da göz önünə alsaq, milli və regional azlıqların əslində daha çox mozaik tərkibli olduğunun şahidi olarıq (Mehdiyev, 2003: 30). Yeni yaranmış dövlətin etnik tərkibinin formalaşması mürəkkəb tarixi proses kimi məhz etnik və demoqrafik faktorların dəyişməsinin təsiri altında özünü göstərmişdir. Həmin faktorların xarakterik xüsusiyyətləri və təsir gücləri həlledici və öz növbəsində istiqamətləndirici təsir göstərən sosial-iqtisadi, siyasi və digər vacib faktorlardan asılı olmuşdur. Burada müəyyən edilən əhali konvensionaldır. İnanılmaz dərəcədə çətin proseslərlə yadda qalan 1993-1995-ci illərdə Heydər Əliyev müxtəlif xalqların və etnik qrupların nümayəndələri ilə canlı əlaqə saxlamışdır. Heydər Əliyev çıxışlarının birində vurğulamışdı: “Dövlət nə qədər çox xalqı birləşdirməyə çalışsa, bir o qədər zəngin olar hər bir vətəndaş dünya mədəniyyətinə və sivilizasiyasına töhfə verir”. Azərbaycan etnomühit cəmiyyəti bütün zamanlarda sabit olub. Bu, həm yuxarıların, həm də aşağıların bir-birlərinə olan ünsiyyətlərinin birmənalı davam etməsinin göstəricisidir. Yəni, topluma daxil olan - həm Azərbaycan türkünə, həm də qeyri-Azərbaycan türkünə ictimai mühitdə yanaşma tərzi eyni olub, etniklə qeyri-etnik arasında fərq qoyulmayıb. Bu nüans istər ölkə qanunvericiliyində, istərsə də Azərbaycanın qoşulduğu beynəlxalq Konvensiyalarda əsas prinsip kimi götürülüb. Azərbaycan rəhbərliyinin istər dini, istərsə də etnik müstəvidə böyük tolerantlıq nümayiş etdirməsi bir dövlət

kimi yüksək qiymətləndirilməlidir. Multikulturalizm həm tarixi faktdır (Fearon, Laitin, 54), həm də “ideoloji məqsəddir (Fearon, Laitin)”. Məhz Heydər Əliyev dövrü üçün spesifik olan Azərbaycan multikulturalizmi həm də Avropa multikultural modellərinin böyük ölçüdə uğursuzluğa düçar olduğu bir nümunə yaratmağı hədəfləyən idarəetmə modelidir (Azərbaycan multikultural ədəbiyyatında diqqəti cəlb etdiyi kimi (Fearon, Laitin, 121).

Azərbaycanın yürütdüyü multikultural siyasət paradoksal olaraq milli azlıqların daha dərin assimilyasiyası ilə birləşir. *Bütövlükdə, bu dövr üçün xarakterik olan azərbaycançılığın* formalaşmasına, bununla da ölkə üçün müəyyən milli ahəngdarlığın qorunmasına imkan verən kifayət qədər səmərəli siyasətdən danışmaq olar. Bəzi insanlar hörmət sahəsinin genişləndirilməsini tələb etsələr də (Fearon, Laitin) Azərbaycan bu məsələdə Yaxın Şərq daxilində pis nümunə olmamışdır. (Ermənistanla münaqişəyə məhəl qoymamaq şərti ilə) (8). Multikulturalizmi bütün dünyaya tolerantlığın möhkəm modelini göstərən, multikulturalizmi həyat normasına çevirən Azərbaycanın həyat tərzi və dövlət siyasətidir. Dünyada dini və milli zəmində mövcud olan problemlər, müharibələr bir daha təsdiqləyir ki, mehriban qonşuluq, dinc yanaşı yaşamaq xalqlar, ölkələr, bizim hər birimiz üçün ən böyük nemət, əvəzsiz sərvətdir. Azərbaycançılıq terminoloji olaraq mahiyyət etibarilə müxtəlif xalqların, fərqli mədəniyyətlərin, konfessiyaların, ənənələrin vəhdətidir (9). Ölkə Prezidenti Heydər Əliyevin başçılıq etdiyi Azərbaycan rəhbərliyinin müdrik siyasəti bütün mədəniyyətlərin daşıyıcıları arasında qarşıdurmanı gücləndirməyə çalışanlara cavab idi.

## Nəticə

Məqaləm Azərbaycanda yaşayan bütün xalqların - qrupların hamısının tarixi və etnoqrafiyasını əhatə etməsə də, onlar haqqında ümumi təsəvvür yarada bildiyimi düşünürəm. Təbii ki, ilk növbədə milli birliyimizin təmin olunmasında azərbaycançılığın yeri və rolu haqqında məlumat verilmişdir. Azərbaycançılıq milli birliyimizin təməl prinsipi olaraq milli azlıqlar arasında da geniş yayılmış və qəbul olunmuş ideologiyadır. Bu ideya Azərbaycanda yaşayan və onu özlərinin ümumi Vətəni hesab edən azsaylı xalqların ideyası kimi də çıxış edir. Bütün təfərrüatları ilə bir-birini tamamlayan bu ideyanı ölkə ərazisində yaşayan milli azlıqların birlik tələbi kimi də dəyərləndirmək olar. “Hansı partiyaya, hansı dinə, hansı dilə mənsub olmağın, yaşının və vəziyyətinin necəliyinin fərqi yoxdur”. sözlərinin müəllifi Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycanın sosial dövlət konsepsiyası tarixi sferada uğurların qazanılmasında ciddi rol oynamışdır. Ona görə ki, yerli əhali və milli azlıqların sosial rifahı təmin olunmasaydı, Respublikada sabitliyin təmin olunması böyük çətinliklə üzləşə bilərdi.

## Ədəbiyyat


1. Yunusov, A. (1999). Etnicheskiy sostav Azerbaydzhana.
2. URL: http://www.demoscope.ru/ weekly/2004/0183/analit05.php
3. Dil, Azərbaycan Respublikası Prezidentinin Aparatı. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu 30 sentyabr 2002-ci il tarixli, № 5247. Prezident Kitabxanası. Giriş rejimi: (elektron kitab), 54 s.
4. Əlizadə, A. (2016). “Dəqiq ideoloji hədəf”s.121:http://www.science.gov.az/news/open/3455.
5. Iunusov, A. (2003). Migration in Post-Soviet Azerbaijan, Russian Politics and Law. Vol. 41, № 3.
6. Fearon, J., Laitin, D. Azerbaijan. URL: http://www.stanford.edu/group/ethnic/Random Narratives/ AzerbaijanRN1.2.pdf
7. Mehdiyev, R. (2003). XX əsrdə milli dövlətçilik. Bakı.: XXI YNE, 30 s.
8. İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyində etdiyi nitq. https://president.az/articles/16703
9. https://www.bbc.com/news/uk-politics-12371994/


Göndərilib: 25.02.2023 Qəbul edilib: 23.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/80-83

**Gülşən Atakişiyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
a_gulsen00@mail.ru
https://orcid.org/0000-0003-2488-6478

# RİSK QRUPLARI İLƏ SOSİAL İŞİN TƏŞKİLİNDƏ SOSİAL İŞ TEXNOLOGİYALARI

**Xülasə**

Məqalədə "risk qrupları"na daxil olan əhali kateqoriyaları ilə sosial işin təşkilində texnologiyaların rolu və növləri haqqında geniş məlumat verilmişdir. Nəzərə alınmışdır ki, texnologiya seçərkən və onun tətbiqi zamanı "risk qrupları"na daxil olan əhali kateqoriyalarının hər birinə xüsusi olaraq yanaşmaq lazımdır. Çünki, "risk qrupları"na daxil olan əhali kateqoriyaları dedikdə geniş kateqoriya nəzərdə tutulur və onların hər biri müxtəlif xüsusiyyətlərə malikdir.

***Açar sözlər:*** *risk qrupları, texnologiya, metod, fərdi, qrup, müdaxilə*

**Gulshan Atakishiyeva**
Azerbaijan State Pedagogical University
master student
a_gulsen00@mail.ru
https://orcid.org/0000-0003-2488-6478

## Content and directions of social work with refugees

**Abstract**

The article provides extensive information on the role and types of technologies in the organization of social work with population categories included in "risk groups". It is considered that each of the population categories included in the "risk groups" should be approached specially when choosing the technology and during its application. Because the population categories included in the "risk groups" mean a wide category, and each of them has different characteristics.

***Keywords:*** *risk groups, technology, method, individual, group, intervention*

## Giriş

"Sosial" sözünün mənasını yəqin ki, hamımız bilirik. Bəs "sosial iş" nədir? Onun ən qısa və sadə izahı belədir: sosial iş cəmiyyətlə işdir. Birinci sosial işçi cəmiyyətdə qarşılaşa biləcəyimiz hər bir fərdlə işləmək imkanına malikdir. Bu fərd hər hansı problemi olan şəxslər, kimsəsiz uşaqlar, zorakılığa məruz qalmış qadınlar, problemli ailələr, işsizlər, evsizlər və ya sadəcə hüquqi, sosial dəstəyə ehtiyacı olan şəxslərdir (Məmmədova, 2019).

Sosial iş bir peşə kimi müəyyən vaxt ərzində praktikadan keçirilmiş metod və texnologiyalara əsaslanır.

Sosial işçilərin texnologiyadan istifadəsi günü-gündən çoxalır və müxtəlif texnologiyalar sosial iş prosesində istifadə olunur. Texnologiyalar sosial iş təcrübəsinin xüsusiyyətlərini dəyişdirdi. Hansı ki, sosial işçilərin ehtiyacı olan insanlara kömək etmək qabiliyyətini bu xeyli genişləndirdi. Müasir sosial işçilər bir sıra müasir texnologiyalar olan onlayn məsləhət, telefon məsləhəti, videokonfrans, özünü idarə edən veb-əsaslı müdaxilələr, elektron sosial şəbəkələr, mobil proqramlar, avtomatlaşdırılmış dərsliklər, e-poçt, mətn mesajları və bir sıra digər xidmətlərdən istifadə etməklə fərdi müştərilərə xidmətlər göstərə bilər.

Sosial işçilərin texnologiyadan istifadəsi müştərilərlə qarşılıqlı əlaqə və ünsiyyət qurmağın yeni yollarını yaratdı və sosial işçi-kliyent münasibətlərinin mənası ilə bağlı prinsipcə yeni suallar doğurdu.

Həmçinin, sosial işçilər kliyentlər haqqında məlumat əldə etmək, onu toplamaq və başqa üsullarla idarə etməkdən ötrü texnologiyanın müxtəlif formalarından istifadə edirlər. Sosial işçilər bu zaman şifrələnmiş formada elektron qeydləri saxlayır və həssas məlumatları öz smartfonlarında və öz sistemlərində saxlayırlar. Sosial işçilər sosial ədalət problemlərini həll etmək, icmaları təşkil etmək, təşkilatları idarə etmək və sosial siyasət hazırlamaq üçün texnologiyadan yaradıcı şəkildə istifadə edirlər. Sosial işçilər həmçinin təcrübə üçün yeni texnologiyalar araşdırır və inkişaf etdirir və onları həmkarları ilə yayırlar.

Sosial işçilərin texnologiyalara müraciət etməsinə aşağıdakı dörd əsas amil təsir edir.

1. ictimaiyyətə məlumat vermək üçün sosial işçilərin elektron texnologiyadan istifadəsinə müraciət edir;
2. xidmətlərin layihələndirilməsi və çatdırılması;
3. müştərilər haqqında məlumat toplamaq, idarə etmək, saxlamaq və əldə etmək; və
4. sosial işçiləri öyrətmək və onlara nəzarət etmək (2).

Texnologiya sosial işçinin müdaxilə prosesində istifadə etdiyi prosedurdur. Sosial işçiyə məqsədə çatmaqdan ötrü müəyyən texnologiya lazımdır. Sosial iş texnologiyalarını qruplaşdırmaq çətindir. Bu səbəb ilə, sosial işçinin daha çox müraciət etdiyi texnologiyalar haqqında danışacağıq. Sosial iş texnologiyalarının xüsusiyyətləri aşağıdakılardır (3).

- Sosial işçi müdaxiləni həyata keçirən zaman perspektiv müəyyənləşdirərək texnologiya müəyyən edir.
- Müdaxilə prosesinin xüsusi mərhələləri hansı texnologiyanın tətbiq olunmasına təsir edir.
- Qarşıya qoyulmuş məqsədə görə müdaxilə texnologiyası müəyyən edilir.
- Müdaxilə texnologiyaları həmişə fərdə və onun davranışına, həmçinin mühitə görə tətbiq edilir.
- Sosial işdə istifadə olunan texnologiyaların oxşar xüsusiyyəti ünsiyyətin bütün müdaxilə texnologiyalarına tətbiq olunmasıdır.
- Müdaxilə texnologiyaları sosial işin bütün metodlarına tətbiq edilir
- Texnologiyaların böyük əksəriyyəti birlikdə və bir-birinə dəstəkləyərək tətbiq edilir.
- Texnologiyanın biri digər texnologiyanın bir hissəsi də ola bilər.

Sosial iş texnologiyalarının tətbiqi fərdlərlə işlənən texnologiyalar və qruplarla işlənən texnologiyalar olaraq 2 yerə bölünür.

**Fərdlərlə sosial iş prosesində istifadə olunan texnologiyalar**

Fərdlərlə sosial iş zamanı digər metodlar kimi kömək, problem həll etmək, əlaqələr qurmaq və ünsiyyət üsullarından istifadə edir. Fərdlə iş metodunda sosial işçi müsahibə texnologiyasından istifadə edərək məlumat almağa çalışır. Bu məlumat sosial CV adlanır. Müsahibə texnologiyası zamanı empatiya, səmimi olmaq, qəbul etmək, kimi xüsusiyyətlərə malik olmaq lazımdı.. Fərdlə iş metodunda tez-tez istifadə edilən üsullardan biri də sosiallaşma üsullarıdır. Sosial işçi bu texnologiya ilə fərdlərin və ailələrin sosial funksionallığını artırmağı hədəfləyir.

**Qrupla sosial iş prosesində istifadə olunan texnologiyalar**

Qrupla sosial iş metodunda kliyent sisteminin ehtiyaclarına uyğun olaraq müxtəlif növ qruplar formalaşdırılır. Bu qrup növlərinin hər biri müxtəlif texnologiyaların istifadəsinə səbəb olur. Yaradılan qruplarda istifadə olunan nəzəriyyələrin hər birində müxtəlif üsullardan istifadə edilir. Bu səbəbdən qrupla iş metodunun texnologiyaları qrup tipinə görə dəyişir. Bəzi qruplar psixodinamik işdən faydalanır. Bu çərçivədə psixodinamik işdə istifadə edilən bəzi müdaxilə üsulları; şərh, empatik cavab, bədii üsullar, psixotərbiyə, rəvayət və s istifadə olunur. Psixodinamik yönümlü sosial işçi dinləmə, sual vermək, qarşıdurma və izahat kimi əlavə üsullardan da istifadə edə bilər. Bəzi qruplar "Koqnitiv Davranış" müdaxiləsində istifadə olunan üsullardan istifadə edirlər. Yararsız düşüncələri faydalı fikirlərlə əvəz etmək, faydasız davranışları faydalı olanlarla əvəz etmək, münaqişələrin həlli və digər problemlərin həlli bacarıqlarının inkişaf etdirilməsi, terapevtik manevrlərin həyata keçirilməsi; yenidən çərçivələmə, yumordan istifadə, paradoksal iş (məntiqə qarşı), bilik və həyat bacarıqlarının psixo-təhsil üsullarından istifadə olunur. Qrupla işləmək

fərdlərə funksionallıq qazanmağa kömək edir. Bu səbəbdən fərdlə iş metodunda istifadə olunan bütün üsullardan qrupla iş metodunda da istifadə olunur (4).

**Qəbul:** Qəbul etmək texnologiyası sosial işçinin fərdlər ilə sosial işin təşkili zamanı istifadə etdiyi ilk texnologiyadır. Bu zaman fərd və sosial işçi arasında ilk görüş baş verir. Sosial işçinin fərdə olan münasibəti, onun problemlərinə qarşı olan həssaslığı, səsinin tonu, geyimi, nəzakəti və mehribanlığı atmosferin qurulmasında vacib amillərdəndir.

**Hisslərinin ifadəsinin asanlaşdırılması:** İnsanlara fikirlərini daha asan ifadə edə bilməkdən ötrü onlara hisslər verilmişdir. Sosial işçi ona müraciət edən kliyentə elə bir şərait yaratmalıdır ki, kliyent öz daxili emosiyaları boşalda bilsin. Bu zaman sosial işçi prosesi idarə etməkdən ötrü müəyyən suallar verir, mühakiməedici ifadələrdən istifadə edir (5).

**Özünə inamın yaradılması:** Sosial işçi kilyentin problemini dinlədikdən sonra bütün üsul və texnologiyaları problemin həllinə yönləndirməlidir Bu zaman önəmli olan texnologiyalardan biri də fərdin öz içində problemin həll olunacağına unamın olmasıdır. Sosial işçi bu inamı yaratmağa çalışmalıdır. Sosial işçi kliyentin güclü tərəflərini qiymətləndirərək bu prosesi idarə edə bilər.

**Fiziki mühitin dəyişməsi:** Sosial işçini istifadə etdiyi texnologiyalardan biri də fərdin fiziki olaraq olduğu mühitin dəyişdirilməsinə nail olmaqdır. Bəzən kliyentin olduğu mühiti dəyişmək onun probleminin həll olmasını asanlaşdırır və yaxud aradan qaldırır. Məsələn, zərərli vərdişlərə yiyələnmiş bir fərd olduğu mühitdə daha çox sosial təsirə məruz qalacaqdır. Bu da onun probleminin həllinə mənfi təsir göstərəcəkdir. Bu zaman o yaşamaq üçün başqa bir yerə köçsə onun probleminin həll edilməsi asanlaşacaqdır.

**İnformasiyanın təkmilləşdirilməsi:** Bu texnologiyanın tətbiqi zamanı sosial işçi sanki müəllim rolunu oynayır. O fərdin münasibətlər haqqında, onun ehtiyaclarının mahiyyəti və tərəfləri haqqında kliyenti məlumatlandırır. Kliyentdə informasiya bazasını yaradaraq onun özünü problemli situasiyanın həll olunması məsələsində düşünməyə və həll yolunu tapmağa istiqamətləndirir. Bəzən problemin həll edilməsi yalnız informasiyanın olmamasından qaynaqlanır.

**Aydınlaşdırma:** Sosial işçinin tətbiq etdiyi texnologiyalardan biri də aydınlaşdırma texnologiyasıdır. Bu texnologiyanın tətbiqi zamanı motivasiya tətbiq edilməmişdən öncə o motivasiyaya təsir edə biləcəm amillər ortaya çıxarılır və aydınlaşdırma aparılır.

**Sosial patronaj:** Bu texnokogiya kliyenlərə evdə xidmətin göstərilməsi, baş çəkmək və yaxud diaqnostik məqsəd ilə xidmətin göstərilməsindən ibarətdir. Sosial patronaj texnologiyasına ailələr ilə sosial iş zamanı müraciət olunur.

Bu zaman sosial işçi ilə ailə arasında ilk görüş zamanı ailə ilə tanışlıq olur və onların problemləri müəyyənləşdirilir. Həmçinin, sosial işçi ailənin bu problemi həll etmək üçün nə dərəcədə aktiv və yaxud passiv olduğunu aydınlaşdıraraq fəaliyyətə keçirilir.

Çox zaman sosial patronaj texnologiyası uşaqlara qarşı kobud rəftarın müşahidə edildiyi, qeyri-etik davranışların olduğu ailələrdir. Bu zaman sosial işçinin məqsədi ailədə olan uşaqların inkişafını şərtləndirəcək addımlar atmaq və onların hüquqlarının müdafiəsi üçün uşaqlara və ailələrə hərtərəfli kömək etməkdən ibarətdir (6).

**Sosial profilaktika:** Bu texnologiyanın əsas xüsusiyyəti qabaqlayıcı xüsusiyyətə malik olmasıdır. Bu özündə erkən müdaxiləni ehtiva edir. Hansı ki, baş verə biləcək sosial problemin qarşısı atılan müəyyən addımlar ilə alınmasıdır.

**Sosial adaptasiya:** Sosial adaptasiya texnologiyası fərdin düşdüyü yeni mühitə uyğunlaşmasıdır. Məsələn, həbs evlərindən buraxılmış şəxslərin sosial adaptasiyası, miqrant və qaçqınların düşdükləri yeni mühitə uyğunlaşması, sağlamlıq imkanları məhdud uşaqların xüsusi siniflərə uyğunlaşması və s. sosial adabtasiya texnologiyasının tətbiqini ehtiva edir. Sosial adaptasiya texnologiyasının tətbiqi zamanı sosial işçi çalışmalıdır ki, kliyent mühitə fəal şəkildə daxil olsun, yəni onun passivliyini aradan qaldırmalıdır.

**Sosial terapiya:** Sosial terapiya 1970-ci illərin sonlarından tətbiq edilməyə başlanılmışdır. Sosial terapiya fərdin digər şəxlər ilə əlaqələrinin emosional və psixoloji olaraq inkişafına dəstək olan metodların cəmidir. Artterapiya da sosial terapiyaya aiddir. Artterapiyanın aşağıdakı növləri vardır.

- biblioterapiya,
- imaqoterapiya,
- musiqi terapiyası,
- rəqs terapiyası və s.(7)

Məsələn, fiziki, əqli problemləri olan fərdlər çox vaxt ünsiyyət qurmaqda çətinliklər yaşayırlar. Bu isə özlüyündə fərdin cəmiyyətə adaptasiyasına, inkişaf qabiliyyətinə mənfi təsir göstərə bilər.

**Sosial diaqnostika:** Adından da göründüyü kimi bu texnologiyanın məqsədi sosial işçinin kliyent haqqında diaqnostik dəyərləndirmə apararaq ətraf mühit ehtiyatarı və şəxsi ehtiyatları haqqında məlumat toplayır.

**Sosial reablitasiya:** Qrup fəaliyyətləri və digər ictimai hadisələrdə iştirak etməklə sağlamlıq imkanları məhdud olan şəxslərin yüksək sosial fəaliyyətə nail olmasına istiqamətlənmiş sosial tədbirlər sistemidir (Zamanov, 2015).

## Nəticə

Nəticə olaraq qeyd edə bilərik ki, risk qruplarına daxil olan əhali kateqoriyaları ilə işləyən sosial işçi ilkin olaraq onunla hansı səviyyədə fəaliyyət göstərəcəyini aydınlaşdırmalıdır. İlkin addım olaraq bu xüsusi əhəmiyyətə malikdir. Çünki, risk qruplarına daxil olan əhali kateqoriyasının xüsusiyyətinə görə texnologiyanın düzgün seçilməsi problemin həll edilməsinə gətirib çıxarır. Texnologiyanı müəyyənləşdirdikdən sonra isə risk qruplarına daxil olan əhali kateqoriyalarının problemlərinin həll edilməsi daha da asanlaşacaqdır.

## Ədəbiyyat

1. Məmmədova, R. (2019). Sosial işə giriş. Bakı: Ecoprint, 208 s.
2. https://socialwork.pk/techniques-of-social-case-work/
3. https://www.pearsonhighered.com/assets/samplechapter/0/2/0/5/0205446175.pdf
4. https://www.studocu.com/ph/document/cordillera-career-development-college/introduction-to-social-work/sw-skills-techniques-alttributes/8934621
5. https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/SOSIAL-IS-N%C6%8FZ%C6%8FRIYY%C6%8FSI.pdf
6. https://www.academia.edu/72014676/Sosyal_Hizmette_G%C3%B6r%C3%BC%C5%9Fme_%C4%B0lke_ve_Teknikleri
7. https://www.tozlumikrofon.com/sosyal-hizmet-yontem-ve-teknikleri/
8. Zamanov, A., Əliyeva, H. (2015). Sosial işin əsasları. Bakı: Təhsil işçisi mətbəəsi, 452 s.

Göndərilib: 20.03.2023 Qəbul edilib: 01.05.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/84-88

**Ülviyyə İsrafilova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
ulyaisr@gmail.com

# SƏSSİZ KİNODA PANTOMİMA ELEMENTLƏRİ

## Xülasə

Məqalədə Pantomima sənətinə səssiz kinonun təsiri mövzusuna toxunulmuş, pantomima ilə səssiz kinonun oxşar cəhətləri təhlil edilmişdir. Səssiz kino aktyorlarının Mim kimi keçmiş sənət yolu eyni zamanda kino aktyoru kimi bu istedadın onların karyerasına müsbət təsiri haqda məqalədə geniş məlumat verilmişdir. Çarli Çaplinin klassik səssiz kino tarixindəki filmləri barədə yazılmışdır. Onun personajlarının pantomima elementli çıxışları və filmləri təhlil olunaraq ələ alınmışdır. Həmçinin çağdaş kinomatoqrafiya nümunəsi olan filmlərdə kinonun inkişafına baxmayaraq fikri çatdırma aləti kimi mim elementləri, Pantomima və səsli kino arasındakı əlaqə gözdən keçirilmişdir. Pantomimanın animasiyaya təsirinə diqqət yetirilmişdir. Müasir dövr səssiz film yaradıcılığında "Cənab Bin" personajı təhlil olunmuşdur.

***Açar sözlər:*** *pantomima, səssiz kino, mim, musiqi, pantomima aktyoru*

**Ulviyya Israfilova**
Azerbaijan State University of Culture and Arts
master student
ulyaisr@gmail.com

## Pantomime and silent films

## Abstract

In the article, the influence of silent cinema on the art of pantomime was touched upon, and the similarities between pantomime and silent cinema were analyzed. The past artistic path of silent film actors such as Mim, as well as the positive impact of this talent on their career as a film actor, is detailed in the article. Written about Charlie Chaplin's films in classic silent film history. His characters' performances and films with pantomime elements were analyzed and captured. Also, despite the development of cinema, mime elements as a tool for conveying ideas, the relationship between pantomime and sound cinema have been reviewed in films that are an example of contemporary cinematography. Emphasis is placed on the influence of pantomime on animation. The character of "Mr. Bean" in modern silent film production was analyzed.

***Keywords:*** *pantomime, silent film, mime, music, pantomime actor*

## Giriş

Pantomima və səssiz kino zəngin tarixi və güclü əlaqəni paylaşan iki sənət formasıdır. Hər ikisi şifahi olmayan ünsiyyətə daha çox etibar edir, emosiyaları çatdırmaq, hekayə danışmaq məqsədilə tez-tez şişirdilmiş jest və ifadələrdən istifadə edir (Mugubi, 2017: 5).

Pantomimanın və "Səssiz kino"nun mənşəyinə gəlincə pantomimanın kökləri qədim Yunanıstan və Romaya gedib çıxır, burada ifaçılar sözlərdən istifadə etmədən şişirdilmiş jestlərlə emosiyalarını nümayiş etdirirdilər. Qədim Yunanıstanda pantomima tez-tez dini şənliklərin bir hissəsi kimi ifa olunurdu və bu mifoloji hekayələri fiziki ifadə vasitəsilə anlatmaq üsulu idi (Stefen, 2010: 21).

Romada rəqs və akrobatika üzrə yüksək səviyyəli təlim keçmiş ifaçılar daha mürəkkəb bir sənət növünə pantomimaya dönüşdülər. Pantomima tamaşaları tez-tez musiqi ilə müşayiət olunurdu və təsvir olunan hekayələr çox vaxt mifologiyadan, tarixdən və ya müasir həyatdan götürülürdü.

Roma İmperiyasının süqutu ilə pantomima teatr forması kimi rəğbətini itirdi və Avropada yalnız orta əsrlər dövrünə qədər dirçəliş baş verdi. Orta əsrlərdə "mummers" kimi tanınan səyahətçi truppalar fiziki jestlərə və hərəkətlərə əsaslanan tamaşalarla izləyiciləri əyləndirirdilər. Bu ənənə bütün orta əsrlər və İntibah dövründə Avropada tamaşaçıları əyləndirmək üçün pantomimadan istifadə edən "Komediya del arte" kimi tanınan aktyorların səyahət truppaları ilə davam etmişdir. İtaliyada yaranan məşhur teatr forması olan Komediya del arte-nin pantomimadan öz tamaşalarının vacib komponenti kimi istifadə etdiyini görürük. Komediya del arte Harlekin və Təlxək personajlardan istifadə etdi. Aktyorlar tamaşaçıları əyləndirmək üçün şişirdilmiş hərəkətlər göstərirdilər (Lawrance, 2017: 3).

Səssiz kino isə XIX əsrin sonlarında kino kamerasının ixtirası ilə ortaya çıxdı. İlk səssiz bədii filmlər sadə povestlərdən ibarət qısa, eksperimental parçalar idi və tamaşaçıların gülüşünə səbəb olmaq üçün fiziki hərəkətlərlə yumora əsaslanırdı.

Pantomimanın səssiz kinoya təsiri isə XX əsrin əvvəllərində başladı, səssiz kino populyarlıq qazanmağa başlayan kimi rejissorlar nitqə əsaslanmayan ünsiyyətin ekranda hekayəni izah etmək qabiliyyətini anladılar. Bir çox kinorejissorlar da sənətə teatrdan gəlmişdi və pantomima ilə işləmək təcrübəsinə malik idilər. Beləliklə də pantomima elementlərini kinoya tətbiq etməyə başladılar.

Bu təsirin ilk nümunələrindən birini fransız kinorejissoru Corc Meliyesin yaradıcılığında görmək olar. Meliyes filmlərində fantastik dünyalar yaratmaq, həm vizual olaraq heyrətamiz, həm də emosional rezonans doğuran hekayələr danışmaq üçün pantomima və digər teatr texnikalarından istifadə edirdi.

XX əsrin əvvəllərində kinorejissorlar səsdən istifadə etmədən hekayələr danışmağın yollarını axtararkən, pantomimanın fiziki xüsusiyyətlərindən və Komediya del arte-dən çox istifadə etdilər. Pantomimadan çox təsirlənən başqa bir rejissor Çarli Çaplin idi. Çarli Çaplin və Buster Keaton kimi səssiz kino ulduzları qədim Yunanıstan və Roma ifaçıları kimi emosiyaları çatdırmaq üçün bədən dili bacarığı ilə tanınırdılar.

Çarli Çaplin səssiz kino tarixinin ən məşhur simalarından biridir və onun pantomima sənətinə təsirini qiymətləndirməmək olmaz. Çaplinin personajı olan "Tramp" şişirdilmiş fiziki hərəkətləri və sözlərdən istifadə etmədən duyğularını çatdırmaq bacarığı ilə tanınırdı (Wranovics, 2005: 45).

Səssiz filmlər adından da göründüyü kimi, sinxron səs olmadan çəkilmiş filmlər idi. Bu o demək idi ki, aktyorlar tamaşaçılara fikri çatdırmaq üçün fiziki jestlərə və ifadələrə üstünlük verirdilər. Ünsiyyət üçün jestlərdən və bədən dilindən istifadə sənəti olan pantomima səssiz filmlərin inkişafında mühüm element idi (5).

Çaplinin pantomimadan istifadəsinin ən yaddaqalan nümunələrindən birini onun 1925-ci ildə çəkdiyi "Qızıl xəstələri" ("The gold rush") filmində görmək olar. Filmdə Çaplinin personajı Tramp Alyaska səhrasında qapalı vəziyyətdə qalıb və bir sıra çətinliklərə və uğursuzluqlara dözməlidir. Bir səhnədə Tramp o qədər acdır ki, Mack Suayn tərəfindən canlandırılan kəşfiyyatçı yoldaşını nəhəng bir toyuq kimi təsəvvür edir. Çaplinin bu səhnədəki şişirdilmiş jestləri və mimikaları pantomimanın sözlərdən istifadə etmədən yumor və duyğuları çatdırmaq üçün necə istifadə oluna biləcəyinə mükəmməl bir nümunədir (5).

Çaplinin "Uşaq" (1921) ("The kid") və "Böyük şəhər işıqları" ("City lights") (1931) kimi filmlərində pantomimadan istifadə etməsi səssiz komediya janrını müəyyənləşdirməyə kömək etdi. Onun ikonik personajı olan Tramp şəxsiyyəti ilə sinonimləşən özünəməxsus yerişi və şlyapası ilə tanınırdı. Qəhrəmanı olan Trampın fiziki jest aktivliyi onun komediya ifalarının əsas elementi idi və Çaplinin pantomima ustalığı ona dialoqdan istifadə etmədən mürəkkəb emosiyaları və mesajları çatdırmağa imkan verirdi.

Çaplinin pantomimaya təsirini hələ də müasir komediya filmlərində və televiziya şoularında görmək olar. Müasir kinokomediyada bir sıra fiziki jestlərin, üz ifadələrinin və digər şifahi olmayan ünsiyyət üsullarının istifadəsini Çaplin və səssiz kino dövrünə aid etmək olar (Chaplin, 2021: 56).

Qeyd etmək olar ki, pantomima və səssiz kinonun uzun, bir-birinə bağlı tarixi var. Pantomima hər iki əyləncə formasında eyni texnika və prinsiplərin çoxu ilə səssiz filmlər üçün əsas yaratdı. Səssiz kino inkişaf etdikcə o öz növbəsində pantomimanın inkişafına təsir göstərərək yeni texnika

və ifa üslublarına gətirib çıxardı. Pantomima və səssiz kinonun təsiri hələ də müasir əyləncələrdə görüntülənir. Qeyri-şifahi ünsiyyət üsullarından istifadə fiziki komediya filmləri və televiziya şoularının əsas elementi olmağa davam edir (Njogu, 2021: 4).

Pantomimanın səssiz kinoya açıq təsiri olsa da bunun əksi də doğru idi. Kinorejissorlar yeni texnika və texnologiya ilə təcrübə aparmağa davam etdikcə, onlar ekranda mümkün olanın sərhədlərini aşmağa başladılar və pantomim ifaçılarını da eyni şeyi etməyə ruhlandırdılar.

Bunun ən bariz nümunələrindən birini alman kinorejissoru Fritz Lanqın əsərində görmək olar. Dramatik işıqlandırma, xüsusi effektlər və mürəkkəb kamera hərəkətləri ilə tanınan Lanqın filmləri pantomima ifaçılarına dərin təsir bağışladı və onlar bu elementləri öz işlərinə daxil etməyə başladılar (Robinson, 1999: 115).

Bununla belə pantomimanın səssiz kinoya təsiri təkcə film çəkilişinin vizual aspektləri ilə məhdudlaşmırdı. Səssiz filmlərdə pantomimadan istifadə aktyorların öz tamaşalarına yanaşma tərzinə də təsir edib. Dialoqun köməyi olmadan səssiz kino aktyorları məna və emosiyanı çatdırmaq üçün fiziki jestlərin ifadəsinə çox müraciət etmək məcburiyyətində qaldılar. Bu davamlı olaraq onlardan pantomimadan götürülmüş texnika və hərəkətləri qəbul etməyi tələb edirdi. Məsələn: "Uşaq" (1921) ("The kid") filmində Çarli Çaplinin ifası əsasən pantomima texnikasına əsaslanır. Açılış səhnəsində Çaplinin personajı tərk edilmiş körpəni kəşf edərkən, çaşqınlığını və məyusluğunu hərəkətlər və üz ifadələrindən istifadə edirək nümayiş etdirir. Daha sonra filmdə uşağa qovuşduqda sevinci onun fiziki ifadəsini vurğulayaraq rəqsə bənzər hərəkətlərlə müşayət olunur (The Viking Press, 1979: 170).

Eynilə "Doktor Kaliqari kabineti" (Almaniya − 1920) ("Das Cabinet des Dr. Caligari") filmində də aktyorların istifadə etdikləri ekspressionist oyun tərzi pantomimadan çox təsirlənmişdi. Filmdə aktyorların istifadə etdikləri pantomima hərəkətləri və təhrif olunmuş üz ifadələri pantomima tamaşalarında istifadə olunan çoxsaylı jestləri xatırladır.

Pantomimanın səssiz kinoya təsirini intertitrlərin istifadəsində də görmək olar. Bu başlıqlar dialoqu çatdırmağa qulluq edirdi, amma onlar həm də filmdə ritm və sürət hissi yaratmaq kimi funksionallığa malik idilər. İntertitrlərin bu şəkildə istifadəsi pantomima ifalarının zaman və ritm hissi yaratmaq üçün musiqi və səs effektlərindən istifadə etmə tərzinə bənzəyirdi.

Pantomima ilə səssiz kino arasında əlaqə danılmazdır. Kino sənətinin ilk dövrlərindən bu günə qədər pantomima rejissorların və ifaçıların hekayəyə xarakter və ifadəyə yanaşma tərzinə böyük təsir göstərmişdir. Səssiz kinoda pantomima texnikalarından istifadə kino dilinin inkişafına təsir göstərmiş və kinonu bir sənət növü kimi başa düşmək, qiymətləndirmək tərzimizi formalaşdırmağa kömək etmişdir.

Vizual üsullarla yanaşı səssiz kino pantomima tamaşalarında istifadə olunan musiqi və səs effektlərinə də təsir etmişdir. 1920-ci illərin sonlarında kinorejissorlar sinxron səslə təcrübə aparmağa başlayanda pantomima ifaçıları öz əsərlərinin emosional təsirini gücləndirərək musiqi və səs effektlərini öz tamaşalarına daxil etməyə başladılar.

Pantomima və səssiz kino XX əsr boyu inkişaf etməyi davam etdikcə, onların əlaqələri mürəkkəbləşdi. 1920 və 1930-cu illərdə səssiz filmlər öz yerini ekranda hekayələri danışmaq üçün sinxron səsdən istifadə edən "danışmalara" verdi. Bu dəyişiklik həm pantomima, həm də səssiz kinoya əhəmiyyətli dərəcədə təsir göstərərək ifaçıları və rejissorları yeni texnologiyalara və tamaşaçılara uyğunlaşmağa məcbur etdi. Məsələn: pantomima ifaçıları öz ifalarına daha çox dialoq daxil etməyə başladılar, mənasını çatdırmaq üçün şişirdilmiş jest və ifadələrə daha az etibar etdilər. Eyni zamanda, kinorejissorlar hekayəni izah etmək üçün həm vizual, həm də eşitmə elementlərinə arxalanan tamaşaçılar üçün daha təsirli təcrübə yaradaraq yeni səs texnologiyaları ilə sınaqdan keçirməyə başladılar. Lakin bu dəyişikliklərə baxmayaraq pantomima və səssiz kino əsr boyu bir-birinə təsir göstərməyə davam etdi.

Pantomima və səssiz kinonun texnikası və estetikasına gəlincə isə Uolt Disney, Maks Fleşer və Uinsor Makkay kimi ilk animatorlar pantomima ifaçılarının ifalarından eləcə də səssiz kinonun vizual hekayə anlatma üsullarından ilham aldılar.

Öz növbəsində animasiya fonları və xüsusi effektlərin istifadəsi pantomimanın inkişafına təsir etdi. Məsələn: Disneyin 1937-ci ildə çəkdiyi "Ağca və yeddi Cırtdan" ("Snow White and the Seven Dwarfs") filmi sonradan pantomimanın səhnə istehsalına təsir edəcək sehrli və immersiv bir dünya yaratmaq üçün əsaslı animasiya üsullarından istifadə etdi. Bundan əlavə filmlərdə səsdən istifadə pantomimaya da təsirsiz ötüşmədi. 1920-ci illərin sonlarında filmlərdə səsin tətbiqi ilə bir çox səssiz kino aktyorları və aktrisaları yeni mühitə uyğunlaşmaqda çətinlik çəkdilər. Bununla belə, pantomima təcrübəsi olan bəzi ifaçılar səsli filmlərə keçidi uğurla həyata keçirə bildilər. Bunun ən bariz nümunələrindən biri fransız aktyor və rejissor Jak Tatidir. Tati yumor və emosiyaları çatdırmaq üçün jestlərdən istifadə edərək karyerasına pantomim ifaçısı kimi başlayıb. Sonrakı filmlərində məsələn "Mon əmi" (1958) ("Mon Oncle"), "Oyun vaxtı" (1967) "Play time" daha çox pantomimaya əsaslanaraq səs və dialoqdan az istifadə edib. Onun pantomimadakı təcrübəsi film çəkilişlərinə unikal yanaşmasına təsir etdi və ona sadiq izləyici kütləsi qazandırdı (10).

Bəli pantomima və səssiz kino bir-birinə təsir edən sənət sahələridir. Kino sənətinin ilk günlərindən pantomima ifaçıları və rejissorları bir-birinin yaradıcılığından ilham alır, hər iki sənət növündə yeni texnika və yanaşmaların inkişafına səbəb olurdu. Səssiz filmlər keçmişdə qalsa da pantomimanı bu gün də film və tamaşalarda görürük.

Pantomima ilə səssiz kino arasında digər mühüm əlaqə musiqi müşayiətinin istifadəsidir. Səssiz filmlər adətən canlı musiqi ilə müşayiət olunsa da, pantomima tamaşalarında tez-tez musiqi və səs effektləri istifadə olunurdu, bu da ifaçıların hərəkət və jestlərinin emosional təsirini gücləndirməyə kömək edirdi. Texnologiya inkişaf etdikcə həm pantomimada həm də kinoda musiqi və səs effektləri daha çox istifədə olunurdu.

Müasir dövr üçün isə pantomima ilə səssiz kinonun kəsişməsinin ən məşhur nümunələrindən biridir Britaniyalı aktyor Rouan Atkinsonun yaratdığı və canlandırdığı "Cənab Bin" obrazıdır.

"Cənab Bin" ilk dəfə 1990-cı ildə Britaniya televiziyasında göründü və qısa müddətdə bütün dünyada tamaşaçıların sevimlisinə çevrildi. Atkinsonun cılız və sosial yöndəmsiz bir personajı təsviri hərəkətli yumor və pantomimadan çox asılı idi. Personaj nadir hallarda danışır və bunun əvəzinə tamaşaçıya məna çatdırmaq üçün jestlərə, mimikalara və şişirdilmiş hərəkətlərə etibar edirdi (11).

Cənab Binin aktyorluğunun ən önəmli cəhətlərindən biri onun üz ifadələridir. Atkinsonun üz ifadələrini müxtəlif hallara çevirmək bacarığı onun fiziki bir ifaçı kimi məharətinin sübutudur. Cənab Binin üz ifadələri tez-tez onun duyğularını və düşüncələrini çatdırır və onlar personajın motivasiyalarını və hərəkətlərini başa düşmək üçün vacibdir.

Cənab Binin digər mühüm cəhəti onun rekvizitlərdən istifadə etməsidir. Xarakterin gündəlik əşyalara özünəməxsus yanaşması, çox vaxt onlardan gözlənilməz şəkildə istifadə etməsi həqiqətən gülüş doğurur. Məsələn: bir epizodda Cənab Bin sendviç hazırlamağa çalışır, lakin çörəyin olmadığını görür. Daha sonra o, dəmirdən və kəmərdən müvəqqəti manqal kimi istifadə edərək sendviç hazırlamağa davam edir, rekvizitlərlə öz bacarıq və yaradıcılığını nümayiş etdirir (12).

Cənab Binin komediyası və pantomiması tək televiziya serialları ilə məhdudlaşmır. Atkinson eyni zamanda personajı iki bədii filmdə − "Bin" (1997) ("Bean") və "Cənab Binin tətili" (2007) ("mr Bean's holliday") filmlərində canlandırıb. Hər iki filmdə Cənab Bin özünü bir sıra komediya və çox vaxt absurd vəziyyətlərdə tapır və onları idarə etmək üçün pantomima bacarıqlarına güvənir.

Cənab Binin populyarlığı onu müasir pantomima və səssiz filmin davamçısına çevirdi.

Cənab Bin pantomima ilə səssiz filmin kəsişməsinin gözəl nümunəsidir. Yumor və duyğuları çatdırmaq üçün pantomimaya müraciət etməsi onun bir sənət nümayəndəsi kimi böyük uğurudur. Cənab Binin davamlı populyarlığı pantomimanın və səssiz filmin tamaşaçıları əyləndirmək və onları sevindirmək gücü buna sübutdur (Dessau, 2001: 200).

Pantomima müasir kinoya, xüsusən də animasiya sahəsinə əhəmiyyətli təsir göstərmişdir.

Animatorlar öz personajlarını canlandırmaq üçün hərəkət və jestdən istifadə edir və daha ifadəli və cəlbedici animasiyalar yaratmaq üçün pantomima texnikalarından ilham alırlar.

Bunun ən məşhur nümunələrindən biri, pantomimadan çox təsirlənmiş Disney animatoru Milt Kahlın işidir. Kahl animasiyanın pantomimanın bir növü olduğuna inanırdı və o, hər zaman bədən

dilinin önəmini aşılamağa çalışırdı. Bu yanaşmanı bir çox klassik Disney filmlərində, o cümlədən "Yeddi cırtdan" ("Seven Dwarfs"), "Pinokio" ("Pinokkio") və "Düyməcik" ("Cinderella") filmlərində görmək olar.

2011-ci ildə çəkilmiş "Aktyor" ("The artist") adlı səssiz filmdə pantomima üsullarından istifadə edilir, daha çox üz ifadələrinə və jestlərə üstünlük verilir. Bu yanaşma həm tənqidçilər, həm də tamaşaçılar tərəfindən yüksək qiymətləndirildi və film Akademiya Mükafatı da daxil olmaqla bir neçə böyük mükafat qazandı.

Müasir kinoda pantomimanın başqa bir nümunəsi 2018-ci ildə çəkilmiş "Sakit yer" ("A quiet place") filmidir ki, bu film səsə qarşı ov edən canavarların basqın etdiyi dünyada yaşayan bir ailənin hekayəsindən bəhs edir. Filmdə gərginlik yaratmaq üçün pantomimadan istifadə edilir, personajlar işarə dili və fiziki jestlər vasitəsilə ünsiyyət qururlar. Bu yanaşma yüksək effektiv idi və film cəlbedici kino təcrübəsi yaratmaq üçün pantomima üsullarından innovativ istifadəsinə görə yüksək qiymətləndirildi. Bir sözlə pantomima və müasir kino çox fərqli əyləncə forması kimi görünsə də bir birindən qopmayan iki sənət yoludur. Pantomima kino rejissorları üçün dəyərli vasitə olmaqda davam edir.

## Nəticə

Qeyd edək ki, pantomima ilə səssiz kino arasında qarşılıqlı və fikir mübadiləsi ilə səciyyələnən mürəkkəb və çoxşaxəli bir əlaqə var. Pantomima fiziki və vizual hekayə baxımından erkən kinoya təsir etsə də, səssiz kino da musiqi və xüsusi effektlərdən istifadə etməklə pantomimaya dərin təsir göstərmişdir. Bu təsirləri indi də müasir pantomimada və kinoda görmək olar, bu sənət növlərinin davamlı gücünü və aktuallığını nümayiş etdirir.

## Ədəbiyyat

1. Mugubi, J. (2017). "Silent film and age of sound". Keniya: Kenyatta university, p.5.
2. Stefen, V. (2010). "Istoriya velikogo nemogo kino". RF: Eksmo Press, 21 s.
3. Lawrance, N. (2017). "Silent cinema". US: Wallflower press, p.3.
4. Wranovics, J. (2005). "Chaplin and Agee: The Untold Story of Trump, the Writer and the Lost Screenplay". NY: St Martin's Press, p.25, p.45.
5. Robinson, M.D. "An Interview with Legendary Chaplin Biographer". https://www.youtube.com/watch?v=Y0KXSDDWqx8
6. Chaplin, Ch. (2021). "Kak zastavit' lyudey smeyatsya". RF: Zebra-Ye, 56 s.
7. Njogu, T. (2021). "Difference Between Mime and Pantomime". US: Differensbetween.net, p.4.
8. Robinson, D.R. (1999). "Physical Comedy Handbook". Great Britain: Heinemann Drama, 115 p.
9. The Viking Press. (1979). "Walt Disney's Snow White and the Seven Dwarfs (Studio Book)". NY: The Viking Press p.130, 170 p.
10. Wikipedia (2021). "Cinderella (Disney Character) Wikipedia. US: https://en.wikipedia.org/wiki/Cinderella_(Disney_character)
11. Johnson, D. (2013). "Mr Bean" Canada: The Canadian Encyclopedia. https://www.thecanadianencyclopedia.ca/en/article/mr-bean
12. Ryan Cubreco. (2021). "The Importance of Bean: A Philosophical Analysis of Mr. Bean". https://cybreco.medium.com/the-importance-of-bean-a-philosophical-analysis-of-mr-bean-b7f6918061b2
13. Dessau, B. (2001). "Rowan Atkinson: The Biography". London: Orion Pub co p.115, p.120, p.200.

Göndərildi: 25.02.2023 Qəbul edildi: 03.05.2023

DOI: https://doi.org/10.36719/2706-6185/23/89-92

**Aysel Şükürova**
Azərbaycan Respublikası DİN-in Polis Akademiyası
filologiya üzrə fəlsəfə doktoru
aysel_edu@yahoo.com

# İNGİLİS DİLİNDƏ "EV" KONSEPTİNİN VERBALLAŞMASI

**Xülasə**

Məqalə ingilis dilində "ev" konseptinin təhlilinə həsr olunmuşdur. Hal-hazırda koqnitiv dilçilikdə konseptlər geniş şəkildə araşdırılır. Konseptlər haqqında yeni nəzəri fikirlərin yaranması davam edir. Qeyd etmək lazımdır ki, ingilis dilində konseptlərin linqvokoqnitiv və mədəniyyətşünaslıq nöqteyi-nəzərdən öyrənilməsi əhəmiyyətlidir.

Onların formalaşması dil və qeyri-dil paradiqmaları əsasında gerçəkləşir. "Ev" konsepti çoxölçülü məfhum olduğuna görə fərqli aspektlərdən izah oluna bilər. Buna görə də koqnitiv diskursiv yanaşma ingilis mədəniyyətində "ev" konsepti və onu əhatə edən semantik sahə haqqında məlumatı əldə etmək imkanı verir.

***Açar sözlər:*** *koqnitiv dilçilik, konsept, anlayış, söz, lüğət, təsəvvürlər, termin, məna, diskurs*

**Aysel Shukurova**
Police Academy of MIA of the Republic of Azerbaijan
Doctor of Philosophy in Philology
aysel_edu@yahoo.com

## Verbalization of the concept of "home" in English

**Abstract**

The article is devoted to the study of the concept of "home" in English. Currently, concepts are widely investigated in cognitive linguistics. New theoretical ideas about concepts continue to emerge. It should be noted that it is important to study the concepts in English from the linguocognitive and cultural point of view.

Their formation takes place on the basis of linguistic and non-linguistic paradigms. As the concept of "home" is a multidimensional notion, it can be explained from different aspects. Therefore, the cognitive discursive approach provides an opportunity to obtain information about the concept of "home" in English culture and the semantic field surrounding it.

***Keywords:*** *cognitive linguistics, concept, notion, word, vocabulary, imaginations, term, meaning, discourse*

## Giriş

Məzmunu tədricən genişlənən konsepti bütün insanlar qavrasa da qavrayış subyektiv idraki proseslərlə müşayiət oluna bilər. Məhz buna görə, konseptlərin obyektivləşməsi qanunauyğunluğunda həm şəxsi, həm də ümumi ideyalar dialektik vəhdətdə birləşir. İnsanlar obyektiv reallıqdakı məfhumları şəxsi təcrübələrinin sınağından keçirərək qruplaşdırırlar. Onlar bu məfhumlar haqqında daim fikirləşirlər, düşüncə tərzlərinə əsasən münasibətlərini bildirirlər və nəticədə saysız-hesabsız təsəvvürlər zəncirvari olaraq birləşir. Əhəmiyyətli sayılan məfhumlar konseptlərə, hətta bəzən əbədi, ömürlük konseptlərə çevrilir.

Deməli, eyni bir söz-konseptə müxtəlif insanların şüurunda müxtəlif mental formalar uyğun gələcək. Belə ki, konsept kollektiv və individual nöqteyi-nəzərdən fərqlənən əsas əlamətləri özündə birləşdirir. Buradan belə bir nəticəyə gəlmək olar ki, konseptdə insanların mənəvi dünyası öyrənilir. Konsept milli-mədəni xüsusiyyətə malik olan təməl kimi həm fərdin, həm də xalqın koqnitiv-kommunikativ fəaliyyətində aktuallaşır və emosional cəhətdən hiss oluna bilən əhəmiyyətli reallığı

əks edir. Sözdən, anlayışdan, mənadan daha geniş, koqnitiv təməlli məfhum olan konsept diskursiv situasiyada özündə müxtəlif geniş məna əlaqələrinin və təsəvvürlərin bütün incəliklərini cəmləşdirən mental mahiyyətdir. Məna "*1.Semantik məzmundur ki, onun əsasında iki dilin vahidi arasında qanunauyğun müvafiqlik qurulur; tərcümə zamanı invariant məna olur"* (Manafoğlu, Tağısoy, Kamal, 2010: 51).

Konseptin təsviri əsasən müxtəlif yanaşmaların kompleks şəkildə tətbiqi vasitəsilə gerçəkləşir. Qeyd etmək lazımdır ki, son dövrlər konseptlərin təhlilinə həsr olunmuş xüsusi ensiklopediyalar tərtib olunur. Buna misal olaraq, Y.S.Stepanovun "Konstantlar. Rus mədəniyyətinin lüğəti" adlı toplusunun adını çəkə bilərik. Belə ki, Y.S.Stepanov lüğətdə rus mədəniyyətindəki əsas dəyərlərin məzmununu izah edir. O, rus dilinin konseptual strukturuna hərtərəfli yanaşaraq rusların dil şüurundakı əsas konseptlərin müxtəlif ifadə yollarını müəyyən etməyə çalışmışdır. Belə linqvomədəni nöqteyi-nəzərdən konseptlər sırf kulturoloji dəyər kimi öyrənilir. Burada mədəniyyət həm verbal, həm də qeyri-verbal vasitələrlə konseptin təsvirini təqdim edən məfhumdur.

Mədəniyyət adət-ənənələr əsasında formalaşır. Bu zaman insanın mental dünyası dil ilə qarşılıqlı əlaqədə olur. Bununla da ünsiyyət iştirakçılarının konseptual dünyagörüşü, fikirləri, əqidəsindən asılı olaraq konsept estetik vahid kimi müxtəlif mədəniyyətlərdə özünəməxsus şəkildə şərh olunur.

Bundan əlavə, dilin işarə sistemində aktuallaşan və koqnitiv modellərin tərkib hissəsi olan konseptin nizamlı elementlərinin şərhi linqvokoqnitiv tədqiq çərçivəsində aparıla bilər. "*Bəzi dilçilər koqnitiv dilçiliyi "çox dərin semantika" kimi müəyyənləşdirir və ona semantik ideyaların təbii inkişafı kimi baxırlar*" (Abdullayev, 2006:53). "*Koqnitiv dilçilik üçün dil insan beynindəki bütün koqnitiv proseslərə çıxış, bir fərdin digərinin şüuruna təsir etmək vasitəsi, o cümlədən dilin özü kommunikasiya zamanı gerçəkləşən idrak hadisəsidir*" (Şükürova, 2022: 3). Konseptin daşıdığı məlumatı, koqnitiv konteksti təyin etmək üçün ilk növbədə müvafiq dil nümunələrini sistemli şəkildə yığmaq lazımdır. Konseptin mənasını, tərkibindəki biliklərin şüura hansı formada gəlib çıxmasını, yəni onun anlam izini müəyyənləşdirmək də vacibdir.

Kommunikasiyada zənginləşən anlam məzmunu ilə dil vasitələri arasında əlaqəli biliklər dayanır. Onlar da öz növbəsində müxtəlif fraqmentlər olan freymlər, mənalar, təsəvvürlərdən qurulur. Mövcud şəraitin təsiri altında, obyektiv gerçəkliklə qarşılıqlı əlaqədə yeni məlumatlar konseptin sisteminə daxil olmaqla yanaşı xaric də olur. Bu proses konseptin mövcud olduğu həm etnik, həm də özgə dillərdəki mədəniyyətlərdə baş verə bilər. Deməli, apriori yolla qazanılan biliklər sayılan rəngarəng eksplikasiyalar, təəssüratlar konseptin məzmununu müəyyən etməyə kömək edir. Biz bunu konseptin assosiativ sahəsini təsvir edən anket sorğularında, testlərdə görə bilərik.

Konseptin strukturu və məzmunu bir-biri ilə sıx əlaqədədir. Bir sıra alimlər (məsələn, M.V. Terskix, E.D.Malyonova, V.A.Maslova) lüğətlərdəki definisiyalarda söz-konsepti ilkin olaraq təsvir edərkən onun əsas və ya ilkin mənasını "nüvə" adlandırırlar. Məsələn, M.V.Terskix və E.D.Malyonovaya görə, "*...konseptin quruluşunu dairə şəklində təsəvvür etmək olar, onun mərkəzində konseptin əsas anlayışı, nüvəsi durur, onun nüvəsini əsas qatlar əhatə edir, periferiyada isə mədəniyyət, ənənə, xalq təcrübəsi və şəxsi təcrübənin daxil etdiyi bütün qalan şeylər yerləşir*" (Terskikh, Malyonova, Maslova, 2015: 35).

Bundan əlavə, V.A.Maslova "Koqnitiv dilçilik" kitabında yazır: "*Nüvə bu və ya digər leksemin lüğəvi mənasıdır*" (Maslova, 2004: 45). Deməli, konsepti təsvir etmək üçün ilk növbədə onun adına müraciət olunur. Biz nüvəni həmçinin bazis adlandıra bilərik. Hesab edirik ki, konseptin mərkəzi və diferensial əlamətlərə malik olan periferiyası bir-birləri ilə oppozisiyada deyil. Onlar arasında kəskin ayrılmış sədd yoxdur. Periferiyada konsept koqnitiv əlamətlərlə zənginləşir. R.M.Frumkinanın və V.A.Maslovanın ardınca biz konseptin nüvəsini dəyişməyən hissə, periferiyasını isə dəyişkən hissə hesab edirik.

Qeyd etmək lazımdır ki, konsept dildə təcrid edilmiş, yəni hermetik şəkildə bağlanmış bir vahid olaraq şərh edilə bilməz. Onun məzmunu bəzən şifrələnmiş əlaqəli kodlara bənzəyir. Buna görə də konseptin təhlili zamanı onun çoxsaylı kontekstlərdə üslubi dəyişikliyə məruz qalmış məna çalarlarına diqqət etmək vacibdir.

Mədəni-mental vahid, koqnitiv-semantik törəmə olan konseptdə dil işarələri və qavranılan əşyalar arasında əlaqə var. Onun mental bloklarındakı biliklər isə şüurumuzdakı etnomədəni dünyagörüşünü emal edir.

Konsepti əhatə edən nominativ və denotativ sahə zəngin olmalıdır. Bu isə öz növbəsində onun dil vahidləri ilə ifadəsinin və aktuallaşmasının diskursiv imkanlarını genişləndirir. Konseptin nominativ sahəsinin təsviri zamanı Ə.Ə.Rəcəbli "Koqnitiv dilçilik" kitabında "nominativ sıxlıq" terminini işlədir. Müəllifin fikrincə, "*Konkret cəmiyyət üçün gerçəkliyin bu və ya digər sahəsinin aktuallığının mühüm obyektiv göstəricisi nominativ sıxlıq anlayışıdır*" (Rəcəbli, 2021:192).

Deməli, əvvəlcə konseptin nominantına, daha sonra isə denotantının müxtəlifliyinə fikir veririk. Burada nəzərə almaq lazımdır ki, ölkə və dövlət adları ilə bağlı olan konseptlərdə koqnitiv əlamətlərin bəziləri oxşar ola bilər, yəni eyni mənalar digər denotantlara da aid olur. Buna görə də, konseptin koqnitiv əlamətlərinin tədqiqi zamanı onlardan hansının daha çox diskursda zəngin çalarlarla ifadə olunduğu və kommunikativ nöqteyi-nəzərdən diskurs üçün münasibliyi müəyyənləşdirilir.

Qeyd etmək lazımdır ki, ev bütün mədəniyyətlərdə dünyaya müsbət münasibət və əhval-ruhiyyə modelidir. Buna görə də Vətənə olan hissləri, sevgini, dostluğu ev anlam sahəsində, yəni tikinti koqnitiv modelində təqdim etmək olar. Ev insan həyatının bir hissəsidir. Bu açar konseptin tez-tez işlənməsi həm də ingilis dili üçün aktualdır.

"Ev" konsepti ingilis dilində daha çox "home" və "house" leksemləri vasitəsilə ifadə olunur.

Hər iki leksem ilk növbədə bina, tikinti mənasını verir. "Ev" konseptinin semantik sahəsinin genişlənməsi nəticəsində onun digər mənaları da təzahür edir.

"Home" sözünün əsas semantik məzmunu ailə ocağı anlayışı ilə bağlı olub evin insan tərəfindən ailə və onun üzvləri, evin sakinləri, birgə yaşayış yeri kimi qavranılmasını ehtiva edir. Belə ki, ailə ocağı həm də doğma ev, yurd, valideynlər, rahatlıq, qayğı deməkdir. "Home" mənəvi cəhətdən müsbət yükü çox olan emosiyalar və müəyyən yerə bağlılıqdır.

Bildiyimiz kimi, hər hansı bir sığınacaqda müdafiə olunmaq kimi irrasional istək və öz mövcudluğunu təmin etmək üçün rahat, kiçik kainat yaratmaq arzusu bütün fərdlərdə vardır. Ocaq olan yerdə nizam-intizam və isti ünsiyyət hökm sürür.

Demək, insan özünü, ailəsini təhlükəsiz hiss etdiyi, xarici aləmdəki xaosdan qoruyan və ocaqla isidilən təmiz, şəxsi bir məkana ehtiyac duyur. Doğma ocaq xalqın kök saldığı və xalqa aid olan toxunulmaz yer deməkdir. Buna görə də yanan tonqal həyat simvolu, sönən ocaq isə ailənin, evin dağılması deməkdir. Demək, ev həm binadır, həm də ailə ocağıdır. Ailə ocağı isə insanın elə özüdür və onun konseptual sistemindəki rasional kainatın, həyatdakı dəyərlərinin mərkəzidir.

Buna görə də, "ev" konseptinə aid olan "home" leksemi ilə toponim-konseptlər arasında həm məzmunca, həm də dəyərlər nöqteyi-nəzərdən əlaqə var. Belə ki, bütün mədəniyyətlərdə olduğu kimi ingilis mədəniyyətində də ölkə evə bənzədilir. Demək, ingilislər üçün "home" həm də coğrafi məkan olub Vətən və insanın mənşəyinə istinad edir. Məsələn:

*"Members of Congress, closer to home there is a threat to freedom both savage and insidious"* (7).

Yuxarıdakı nümunədə "*home"* sözü ev artefakt metaforuna aiddir və ölkə mənasını ifadə edir. Qeyd etmək istərdik ki, ölkə adları ilə bağlı konseptlərin evə bənzədilməsi diskurs üçün səciyyəvi haldır.

Biz həyatı və eləcə də ölkənin şüurumuzdakı koqnitiv modelini ev kimi təsəvvür edə bilərik. Onun qapalı örtüyündə şəxsi həyat qorunur. Məhz buna görə də ev metaforunda ölkənin yalnız bizlərə aid olmasına işarə edilir. Bura ən yaxın insanların yaşadığı bir məkan və bəzən də uşaqlıq dövrünün keçdiyi yerdir. Buna baxmayaraq, rahat yaşayış sahəsi öz-özünə yaranmır; o yorulmaz fəaliyyətin nəticəsində gerçəkləşib davamlı olaraq qorunmalıdır.

Ev anlam sahəsinə aid olan artefakt metaforlarda quruculuq fəaliyyəti ilə bağlı olan semlər aktuallaşır.

Məsələn, aşağıdakı ifadələrə nəzər yetirək:

*"To bring home the bacon*" (Yaşamaq üçün vacib olan pulu qazanmaq) idiomu bərəkət semi vasitəsilə aktuallaşır.

*"Charity begins at home"* (Əvvəl evin içi, sonra çölü) ifadəsi ailə üzvlərinin hər bir kəsdən vacib olduğunu və xeyriyyəçiliyin evdən başladığını bildirir.

İnsanın rahatlığı xarici təhdidlərin, gərginliyin, məcburiyyətin əksi olan evin daxilindədir. Məsələn:

*"Make yourself at home"* və *"to feel at home"* (Özünü evdəki kimi hiss etmək) ifadələri hər hansı bir yerdə və ya kiminsə yanında özünü rahat, evdəki kimi hiss etmək anlamına gəlir.

*"East, west, home's best"* (Gəzməyə qərib ölkə ölməyə Vətən yaxşı) ifadəsi.

*"There's no place like home"*

*"Home, sweet home"*

*"Home is where the heart is"*

Bundan əlavə, "home" təhlükəsizlik anlayışı ilə bağlıdır.

Məsələn:

*"An Englishman's home is his castle"* (Azərbaycan dilində analoqu: mənim evim mənim qalamdır).

*"Be home and dry"*

Yuxarıdakı nümunələrdə ev alınmaz qalaya bənzədilir.

Deməli, ev xarici təhlükələrdən, özgə nəzərdən müdafiə edir və bizi əhatə edən makrokosmun mərkəzidir.

"House" lekseminin əsas semantik elementlərinə nəzər yetirək:

İlk növbədə "house" yaşamaq üçün binadır. Deməli, "house" sözü evin fiziki təcəssümü olub sırf tikinti, bina və binanın hissələrini nəzərdə tutduğuna görə, qapı, dam, mənzil, kərpic və s. leksemlərlə sıx bağlıdır.

Eyni zamanda, "house" leksemi təşkilat və ya idarə mənasını da ifadə edə bilər.

Məsələn:

*"I am a child of the House of Commons"*(8).

Böyük Britaniya parlamentində İcmalar palatası "the House of Commons" adlanır. Deməli, Britaniya Parlamentində insanlar bir dam altında birləşərək siyasi fəaliyyətlə məşğul olurlar.

## Nəticə

"Home" və "house" leksemlərinin istifadə olunduğu ifadələrə nəzər yetirərək belə nəticəyə gəlmək olar ki, "home" daha çox yaşadığımız yer, "house" isə yaşadığımız binadır. Eyni zamanda "home" üstqurum, "house" leksemi isə materiya anlayışı ilə bağlıdır. Təbii ki, hər iki sözün məzmununda dəyərlər var. Sadəcə, "house" sözünün təqdim etdiyi məna invariant olub hamı üçün eynidir, "home" anlayışında isə semantik və üslubi cəhətləri zəngin olan qiymətləndirici məzmun ön plana çıxır.

## Ədəbiyyat


1. Manafoğlu, R., Tağısoy, N., Kamal, R. (2010). İzahlı tərcüməşünaslıq terminləri lüğəti. Bakı: Mütərcim, 164 s.
2. Abdullayev, Ə.Ə. (2006). Koqnitiv dilçiliyin əsasları. Bakı: ADU nəşriyyatı, 228 s.
3. Şükürova, A.İ. (2022). Müstəqillik dövrü siyasi diskursunda "Azərbaycan" konseptinin dinamikası. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 32 s.
4. Terskikh, M.V., Malyonova, E.D. (2015). Medyaobraz sibirskogo regyona: lingvokognitivnoe modelirovanie: monografiya. Omsk: LITERA, 160 s.
5. Maslova, V.A. (2004). Koqnitivnaya linqvistika: uçebnoe posobie. Minsk: Tetra Sistems, 256 s.
6. Rəcəbli, Ə.Ə. (2021). Koqnitiv dilçilik. Bakı: Elm və təhsil, 304 s.
7. https://www.americanrhetoric.com/speeches/margaretthatcherjointsessioncongress.htm
8. https://www.americanrhetoric.com/speeches/winstonchurchillmastersofourfate.htm


Göndərilib: 06.03.2023 Qəbul edilib: 21.05.2023

## İÇİNDƏKİLƏR

**Güllü İsmayılova**
Bədii mədəniyyət - Sovet ideologiyasının təsir mexanizmi çərçivəsində ..........................................6
**Fatma Hajiyeva**
Intellectual development and educational success in secondary schools .........................................12
**Elmar Allahverdi**
Azərbaycan və keçmiş sovet respublikalarının icbari tibbi siğortaya keçid problemləri .................21
**Günel Hacalıyeva**
Şah dönəmində İran-Misir münasibətləri ...........................................................................................28
**Mülkəddin Məmmədov**
Aqrar sahədə dövlətin siyasət və strategiyasının milli iqtisadiyyata təsiri .......................................35
**Elmar Allahverdi**
Socio-economic paradigm of health insurance ...................................................................................40
**Sevinc Babayeva**
Turizmdə istifadə olunan informasiya texnologiyalarının mahiyyəti ...............................................46
**Nigar Seyidzadə**
Məktəbəqədər uşaqların musiqi fəaliyyəti .........................................................................................50
**Raul Khalilov**
Intellectual property protection in technology transfer contracts .....................................................55
**Aytac Alməmmədova**
Dünya ticarət təşkilatında mübahisələrin həlli sistemi ......................................................................59
**Mircamal Abbasov**
Baydenin Yaxın Şərq siyasəti: Trampın Yaxın Şərq siyasətindəki miras və dəyişikliklər ...............65
**Anar Kərimov**
XX əsrin əvvəllərində Çar Rusiyasının Şimali Azərbaycanda həyata keçirdiyi
aqrar islahatlar (1912-1913-cü illərdə verilmiş qanunlar) ...............................................................71
**Şövqiyyə İsmayılzadə**
Çox konfessiyali cəmiyyətin idarəsində Heydər Əliyev rəhbərliyi, sosial müxtəlifliyin
təkamül mərhələsi, etnik demoqrafik proseslərin gedişatı və miqrasiya cəmiyyətinin
formalaşması .....................................................................................................................................76
**Gülşən Atakişiyeva**
Risk qrupları ilə sosial işin təşkilində sosial iş texnologiyaları ........................................................80
**Ülviyyə İsrafilova**
Səssiz kinoda pantomima elementləri ................................................................................................84
**Aysel Şükürova**
İngilis dilində "ev" konseptinin verballaşması ...................................................................................89

İmzalandı: 27.05.2023
Formatı: 60/84, 1/8
H/n həcmi: 11.75 ç.v.
Sifariş: 645

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az